Kədərsiz ayrılıq

Dekabrın əvvəlində hayların baş diplomatı Ararat Mirzoyan Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun iştirakçısı olan Dövlətlər Assambleyasının 23-cü sessiyasında "maraqlı" çıxış edib. "Biz hesab edirik ki, Beynəlxalq Cinayət Məhkəməsi beynəlxalq hüququn mühüm elementidir. O, həmçinin beynəlxalq hüququn inkişafına töhfə verir və onu müasir çağırışlara daha da uyğunlaşdırır".

Bəli, Mirzoyan çıxışının preambulasında tam haqlıdır. Amma o, nədənsə sözündə məntiqi ardıcıllığı gözləmir və Azərbaycan ərazisinin otuz ilə yaxın erməni işğalı altında olmasına görə məsuliyyət daşıyanların, hərbi cinayətlər törədənlərin hələ də azadlıqda gəzdiyini beynəlxalq Femidanın nəzərinə çatdırmır.

Ararat Mirzoyanın "hücum ən yaxşı müdafiədir" taktikası aydındır. Amma bu diplomatik gediş onun təmsil etdiyi hakimiyyətin "siyasi menyusuna" daxil edilə bilməz. Çünki işğalçı ölkənin nümayəndəsinin beynəlxalq hüquqa istinad etməsi, onun "vəhşiliklərin qurbanlarına ədalətli yanaşmadan" danışması acı gülüşdən başqa heç bir hiss doğurmur.

(ardı 4-cü səhifədə)

"Böyük manipulyator"

Məşhur alman filosofu, siyasi xadimi və tarixçisi Maks Veberin fikrincə, dövlət ən bahalı xidmətlərin ən aşağı səviyyədə təqdim edildiyi təşkilatdır. Tanınmış rus satiriki Gennadi Malkin isə deyirdi ki, biz hakimiyyətlə bağlı nə qədər pis düşünsək də, hakimiyyətdə oturanlar bizim barəmizdə daha pis düşünürlər.

Əlbəttə, hər iki müəllifin bildirdiklərində subyektivlik payı var. Mümkündür ki, onlar dövlət və hakimiyyət məsələlərinə yalnız bir pəncərədən yanaşıblar. Ancaq fransalı araşdırmaçı və jurnalist Mark Endeveldin müəllifi olduğu "Böyük manipulyator" kitabına diqqət yetirəndə, həm Veberin, həm də Malkinin haqlı olduğu tərəfləri görmək mümkündür.

(ardı 5-ci səhifədə)

Xalq qəzeti

Xalqın qəzeti!

№ 278 (30682) 17 dekabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

Azərbaycanın multikultural dəyərləri çağdaş dünya üçün örnəkdir

Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallageri qəbul edib.

Arxiyepiskop Paul Riçard Qallager Roma Papası Fransiskin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi.

Roma Papasının sonuncu dəfə 2016-cı ildə Azərbaycana səfər etdiyini deyən dövlətimizin başçısı həmin vaxt və özünün 2020-ci ildə Vatikana səfəri çərçivəsində Roma Papası ilə görüşlərini məmnunluqla xatırladı, Roma Papasını ölkəmizə səfərə dəvət etdi.

(ardı 2-ci səhifədə)

Qərbi Azərbaycana qayıdış – erməni isteriyasına cavabımız

"Qayıdış hüququ – Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda Bakıda bu ayın əvvəlində keçirilmiş II beynəlxalq konfransda səslənən fikirlər, o cümlədən, Prezident İlham Əliyevin tədbir iştirakçılarına məktubunda əksini tapmış məsələlər erməni cəmiyyətində isterik durum formalaşdırıb. Dövlətimizin başçısının rəsmi İrəvanın Qərbi Azərbaycan İcmasının təmsilçiləri ilə danışığa başlamasının zəruriliyini vurğulayan fikri isə hayları əməlli-başlı əndişəyə salıb. Erməni ekspertlərin və tarixçilərin mövzu ətrafındakı mülahizə və düşüncələri bitmək bilmir.

Qərbi Azərbaycana qayıdış hüququ ilə bağlı indiyədək təkcə respublikamızda deyil, onun hüdudlarından kənarda da çoxsaylı toplantılar təşkil olunub. Hay cəmiyyətinin təmsilçilərinin bütün bunlardan anladığı yalnız bir şey var – Azərbaycan Ermənistana qarşı yeni müharibə hazırlığındadır. Axı anladıqları işğalçılıq və təcavüzdür, bəşəri dəyər və prinsiplərdən qat-qat uzaqdırlar. Uzaq olmasaydılar, Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdışın dinc məqsədli konsepsiya olduğuna dair fikirlərinə də nəzər salar, məsələyə haqq və ədalət prizmasından yanaşardılar. Yanaşmırlar, bizim də haylardan hansısa ağıllı bir gözləntimiz yoxdur. Ona görə onların azərbaycanlıların Qərbi Azərbaycana qayıdış hüququ ilə bağlı məsələyə münasibətdəki bəzi tendensiyaların üzərində dayanaq və tarixə qısaca nəzər salaq.

Beləliklə, erməni başbilənlər deyirlər ki, Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların sayı Azərbaycan SSR ərazisində yaşayan ermənilərin sayından az olub. Yəni, onlar bunu əsas götürüb soydaşlarımızın tarixi vətənlərinə qayıtmalarının yolverilməzliyi üzərində dayanırlar.

(ardı 4-cü səhifədə)

"Kirakosyançılıq"

Beynəlxalq hüquqla subliminal manipulyasiya

Ermənistan dövləti bütün beynəlxalq platformalarda anti-Azərbaycan siyasətə üstünlük verir. Ancaq rəsmi İrəvan əməlini bir qədər fərqli tərzdə həyata keçirir. Yəni oxu atıb, yayı gizlədir.

Məlum olduğu kimi, İrəvanda bu günlərdə "Soyqırımı cinayətinə qarşı" qlobal forum düzənləndi. Ermənistanın xarici işlər nazirliyinin təşəbbüsü ilə reallaşmış forumdan məqsəd dünyanın diqqətini "erməni soyqırımı"na yönəltmək, ən əsası, guya ermənilərə qarşı indi də soyqırımının həyata keçirildiyini vurğulamaq idi.

Əlbəttə, rəsmi İrəvanın hədəfi Azərbaycandır. Digər hədəf isə Türkiyədir. Oxu atıb, yayı gizlətmək məntiqinə gəlincə, tədbirə qatılan erməni rəsmilər hər cür cəfəngiyyatı danışdılar, söhbəti bilavasitə Azərbaycanın və Türkiyənin üzərinə gətirdilər, ancaq ölkələrimizin adlarını çəkməkdən uzaq durdular. Ad çəkənlər isə başqaları oldu. Yəni, erməni XİN xaricdən kifayət qədər çoxlu ermənipərəst dəvət etmişdi ki, məhz onlar Bakıya və Ankaraya yönələn hədyanlarından qalmadılar...

Beləliklə, Ermənistanın XİN rəhbəri Ararat Mirzoyanla yanaşı, ölkənin Avropa İnsan Hüquqları Məhkəməsindəki (AİHM) nümayəndəsi, beynəlxalq hüquq məsələləri üzrə təmsilçi Yegişe Kirakosyan da subliminal mesajlara üstünlük verdi. Sözügedən forumda çıxış edən Y.Kirakosyan özünün ittihamçı tonundan da qalmadı. O dedi ki, hazırkı mürəkkəb şəraitdə, münaqişə vəziyyətlərində Beynəlxalq Ədalət Məhkəməsinin (BƏM) və ya AİHM-nin qərarlarının radikal dəyişikliklərə gətirib çıxara biləcəyini gözləyəcək qədər sadəlövh deyil. Bu, nə deməkdir? Aydındır ki, söhbət, məsələn BƏM-in Mozambiklə bağlı qərarının icra olunmamasından getmir.

(ardı 3-cü səhifədə)

"Əsrin müqaviləsi"nin "mavi yanacaq" töhfəsi

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan xam neftlə bərabər səmt qazı da hasil olunur. "Əsrin müqaviləsi"nin şərtlərinə əsasən, səmt qazı təmənnasız olaraq Azərbaycan hökumətinə təhvil verilir.

"BP-Azərbaycan" şirkətinin məlumatına görə, bu ilin üç rübü ərzində Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə Azərbaycanın qazpaylayıcı sisteminə gündə orta hesabla 6,5 milyon kubmetr, ümumilikdə isə, 1,8 milyard kubmetr səmt qazı ötürülüb. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub. Ümumilikdə, ötən 27 il ərzində konsorsium iştirakçıları tərəfindən Azərbaycan hökumətinə 57 milyard kubmetr səmt qazı təhvil verilib. Qazın qalan hissəsindən isə "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda lay təzyiqini sabit saxlamaq üçün istifadə olunub.

(ardı 7-ci səhifədə)

"Zurabişvili hökumətin siyasətinə qarşıdırsa, istefa verməli idi"

"Komanda qərara gəldi ki, prezidentlik institutunu konstitusiya çərçivəsinə qaytaran şəxs mən olacağam. Bu, mənim üçün böyük şərəfdir. Təklifə gəlincə, partiyanın fəxri sədri və baş nazir məni görüşə çağırdılar.

Təbii ki, bu təklif gözlənilməz oldu, mənim namizədliyimə baxıldı və proses açıq şəkildə həyata keçirildi".

(ardı 6-cı səhifədə)

Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibini qəbul edib

(əvvəli 1-ci səhifədə)

Səfərinin əsas məqsədinin Azərbaycanda II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin təqdis edilməsi olduğunu deyən qonaq bu kilsənin inşası üçün ərazinin ayrılmasına və göstərilən dəstəyə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi, bunun tərəfdaşlığın nümunəsi olduğunu və ölkəmizdəki katolik icması tərəfindən çox böyük rəğbətlə qarşılandığını vurğuladı.

Dövlətimizin başçısı yeni kilsənin inşasına başlanmasından məmnunluğunu ifadə edərək, arxiyepiskop Paul Riçard Qallagerin ölkəmizə səfərinin və kilsənin tikiləcəyi ərazini təqdis etməsinin Müqəddəs Taxt-Tacın Azərbaycanın katolik icması ilə əlaqələrə verdiyi önəmi nümayiş etdirdiyini dedi. Prezident İlham Əliyev yeni tikiləcək kilsənin əlaqələrimizin yaxşı rəmzi olacağını vurğuladı.

Qonaq Azərbaycanda müxtəlif dini icmaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamasında Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rolunu xüsusi olaraq qeyd etdi. Arxiyepiskop Paul Riçard Qallager vurğuladı ki, müxtəlif dinlərin və konfessiyaların nümayəndələrinə bu cür hörmət göstərilməsi, harmonik şəraitin yaradılması Azərbaycanın və xalqımızın fərqləndirici xüsusiyyətlərindən biridir.

Dövlətimizin başçısı Azərbaycanın multikulturalizm ənənələrini qeyd edərək, ölkəmizdə müxtəlif xalqların və konfessiyaların nümayəndələrinin daim sülh, əmin-amanlıq və harmoniya şəraitində yaşadığını vurğuladı.

Arxiyepiskop Paul Riçard Qallager ölkəmizdəki katolik icmasının nümayəndələrinin Azərbaycan rəsmiləri və cəmiyyəti ilə rahat şəraitdə münasibətlərinin olmasından məmnunluğunu bildirdi və qeyd etdi ki, bu da Azərbaycana nüfuz gətirən amillərdən biridir. Qonaq ölkəmizə səfəri çərçivəsində çox səmərəli görüşlər keçirdiyini dedi.

Prezident İlham Əliyev bütün bunların Azərbaycan üçün fəxr hissi doğurduğunu bildirdi, ölkəmizdə multikulturalizmin və çoxmillətliliyin daim təmin olunmasını məmnunluqla qeyd etdi, bunu dövlət siyasəti ilə xalqımızın ənənəvi yaşayış tərzinin vəhdəti olduğunu dedi. Dövlətimizin başçısı qeyd etdi ki, müxtəlif millətlərin, dinlərin nümayəndələrinin ölkəmizdə sülh, dostluq və mehriban şəraitdə yaşaması Azərbaycana əlavə güc verir, sabitliyin və cəmiyyətdə ahəngdarlığın təmin olunmasına xidmət edir.

Azərbaycanın, həmçinin beynəlxalq səviyyədə dinlər və mədəniyyətlərarası dialoq prosesinə və bu sahədə əməkdaşlığa böyük töhfə verdiyini deyən dövlətimizin başçısı ölkəmizdə mütəmadi olaraq mədəniyyətlər və konfessiyalararası dialoqa həsr edilən beynəlxalq tədbirlərin keçirildiyini məmnunluqla xatırladı.

Qonaq COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev bildirdi ki, COP29 ərəfəsində dünya dini liderlərinin sammiti də keçirilib və orada dünya dini liderləri tərəfindən də iqlim dəyişmələri ilə əlaqədar beynəlxalq ictimaiyyətə müraciət olunub. COP29 zamanı Azərbaycanın müxtəlif tərəflər arasında körpülərin yaradılmasına çalışdığını deyən dövlətimizin başçısı bu tədbir çərçivəsində aparılan danışıqlar prosesinin uğurlu nəticələr verdiyini xüsusilə qeyd etdi.

Söhbət zamanı regional məsələlər barədə fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti Cənubi Qafqaz regionunda sülhün və sabitliyin təmin olunması istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini vurğuladı.

Görüşdə Yaxın Şərqdəki vəziyyətə toxunuldu. Prezident İlham Əliyev Əsəd rejiminin çökməsindən sonra qardaş Türkiyə ilə məsləhətləşərək Suriya xalqının üzləşdiyi humanitar problemlərin həllinə dəstək verməyə hazır olduğunu bir daha qeyd etdi.

Arxiyepiskop Paul Riçard Qallager dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

AZƏRTAC

Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəyə

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Bəhreyn əlaqələrinin genişləndirilməsi, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Bəhreyn xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 dekabr 2024-cü il

N.N.Məmmədovun Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nəsir Natiq oğlu Məmmədov Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2024-cü il

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1 "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1372 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Anar Ələkbərov – Azərbaycan Respublikası Prezidentinin köməkçisi" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Xalid Əhədov – Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi";

1.2. "Elçin Əmirbəyov – Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi" və "Xalid Əhədov – Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi" abzasları aşağıdakı redaksiyada verilsin:

"Fərəh Əliyeva – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

Elçin Əmirbəyov – Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi";

1.3. "Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla)" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

1.4. "Fərəh Əliyeva – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri" sözləri "Aydın Kərimov – Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi" sözləri ilə əvəz edilsin;

1.5. "Kamran Əliyev" sözlərindən əvvəl aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Elçin Yusubov – Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

Vahid Hacıyev – Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

Məsim Məmmədov – Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

Bəşir Hacıyev – Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi";

1.6. "Fikrət Məmmədov" sözləri "Fərid Əhmədov" sözləri ilə, "İnam Kərimov" sözləri "Məcnun Məmmədov" sözləri ilə əvəz edilsin;

1.7. "Anar Quliyev" sözlərindən əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Fərid Qayıbov – Azərbaycan Respublikasının gənclər və idman naziri";

1.8. "Vüqar Süleymanov" sözlərindən əvvəl aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Fuad Nağıyev – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Zaur Mikayılov – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri

Saleh Məmmədov – Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri".

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2024-cü il

"Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1 Müəyyən edilsin ki:

1.1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 93-3-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 93-3-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 96-cı maddəsinin birinci hissəsinin ikinci cümləsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur;

1.4. "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 12.0.21-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3 "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 744 (Cild I); 2024, № 5 (I kitab), maddə 519) 7 ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 7.1-ci bənddə birinci halda "altıncı" sözü "dördüncü" sözü ilə əvəz edilsin və həmin bənddən "onuncu hissəsinin ikinci–dördüncü, altıncı və yeddinci abzaslarında," sözləri çıxarılsın;

3.2. aşağıdakı məzmunda 7.1-1-ci bənd əlavə edilsin:

"7.1-1. həmin Qanunun 93-3-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

3.3. 7.9-cu bəndə "birinci cümləsində" sözlərindən sonra "və 96-cı maddəsinin birinci hissəsinin ikinci cümləsində" sözləri əlavə edilsin.

4. "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 17 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.5-ci bənddə "və Hakimlərin Seçki" sözləri ", Hakimlərin Seçki Komitəsinin və Hakimlərin Qiymətləndirilməsi" sözləri ilə əvəz edilsin;

4.2. 2-ci hissə üzrə:

4.2.1.2.2-ci bənddən ", 13.3-cü" sözləri çıxarılsın;

4.2.2.aşağıdakı məzmunda 2.3 1 ci bənd əlavə edilsin:

"2.3-1. həmin Qanunun 12.0.21-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur;".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2024-cü il

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2130 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1639 (Cild I) ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"nin 4.7.8-1-ci yarımbəndindən "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının 3.6-cı bəndi nəzərə alınmaqla," sözləri çıxarılsın.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2024-cü il

Çoxtərəfli əməkdaşlığın inkişaf perspektivləri

Dekabrın 16-da xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə səfəri çərçivəsində Müqəddəs Taxt-Tacın xarici işlər üzrə dövlət katibi arxiyepiskop Paul Riçard Qallager ilə görüşüb.

Tərəflər arasında keçirilən təkbətək görüş daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib. Geniştərkibli görüşdə Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında mövcud ikitərəfli, habelə çoxtərəfli əməkdaşlığın inkişafı perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

İki ölkə arasında qarşılıqlı səfər və təmasların dinamikasında müşahidə olunan artımın məmnunluq doğurduğu, Azərbaycan ilə Müqəddəs Taxt-Tacın siyasi, mədəni, humanitar sahələrdə mövcud əməkdaşlığına ciddi töhfə verdiyi vurğulanıb. Azərbaycanın Vatikanda səfirliyinin fəaliyyətə başlamasının ikitərəfli münasibətlər üçün əhəmiyyəti məmnunluqla qeyd edilib. Roma Papası II İoann Pavelin 2002-ci ildə, Papa Fransiskin 2016-cı ildə ölkəmizə səfərləri xatırlanıb, qarşılıqlı səfərlərin davamlı olacağına inam ifadə edilib.

Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Heydər Əliyev Fondunun dünyanın bir çox bölgələrində, o cümlədən Müqəddəs Taxt-Tac ərazisində yerləşən beynəlxalq əhəmiyyətli mədəni abidələrin bərpasında fəal iştirakının təqdirəlayiq olduğu diqqətə çatdırılıb. Görülən tədbirlərin ölkəmizin multikulturalizmin təşviqi sahəsində mövcud təcrübə və fəaliyyətinin davamı olduğu bildirilib, bu istiqamətdə, həmçinin Müqəddəs Taxt-Tacla əməkdaşlığın inkişafında ölkəmizin maraqlı olduğu diqqətə çatdırılıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı vəziyyətindən, delimitasiya komissiyaları tərəfindən aparılan iş barədə ətraflı bəhs edilib.

Arxiyepiskop Paul Riçard Qallager II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin təqdis edilməsinə görə böyük məmnunluq duyduğunu diqqətə çatdırıb, kilsənin inşasına yaradılan şəraitə görə minnətdarlığını bildirib.

XQ

Milli Məclisin plenar iclası

Dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələri qəbul edilib

Dekabrın 16-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.

Parlamentin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bugünkü iclasın gündəliyinə 14 məsələ daxil edilib və 10 məsələ 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. Sonra parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib.

Sonra maliyyə naziri Samir Şərifov 2025-ci ilin dövlət büdcəsi layihəsi ilə bağlı çıxış edib. Nazir qeyd edib ki, təklif olunan dəyişikliklər qəbul edildiyi təqdirdə, 2025-ci il üçün həm dövlət, həm də icmal büdcələrin gəlir və xərcləri bərabər olaraq 40 milyon manat artır, yəni, dövlət büdcəsinin gəlirləri 38 milyard 356 milyon manat, xərcləri 41 milyard 407 milyon 600 min manat, icmal büdcənin gəlirləri 43 milyard 950 milyon 500 min manat, xərcləri 47 milyard 629 milyon 400 min manat təşkil edəcək. Dövlət və icmal büdcələrinin kəsirlərində hər hansı dəyişiklik baş verməyəcək və onlar ilkin təqdim olunmuş büdcə layihəsindəki kimi saxlanılır. Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra gündəliyin növbəti iki məsələsi – "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihələri təqdim edilib. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bu məsələlər barədə məlumat verib. Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İclasda Azər Əmiraslanov "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O bildirib ki, layihəyə əsasən, əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği 2025-ci il üçün ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyən edilir. Sonra Musa Quliyev "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O, 2025-ci il üçün ehtiyac meyarının həddinin 285 manat məbləğində müəyyən edildiyini diqqətə çatdırıb. Müzakirələrdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda çıxış edən Baş nazir Əli Əsədov bildirib ki, 2024-cü il Vətənimiz üçün siyasi müstəvidə çox önəmli tarixi hadisələrlə zəngin olub, Azərbaycanın bütün suveren ərazisində prezident və parlament seçkiləri keçirilib. Eyni zamanda, Prezidentin sərəncamına əsasən, sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi təsis edilib, "Əsrin müqaviləsi"nin bağlanmasının 30-cu ildönümü qeyd olunub.

Ə.Əsədov Bakıda COP29-un yüksək səviyyədə keçirilməsinə də toxunub, ötən ilin dekabrında 200-ə yaxın ölkənin yekdil qərarı ilə Azərbaycanın bu tədbirə ev sahibi seçilməsinin ölkəmizə və şəxsən dövlətimizin başçısına böyük hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rola verilən yüksək qiymət olduğunu söyləyib.

Daha sonra bu ilin bəzi makroiqtisadi göstəriciləri diqqətə çatdıran Baş nazir qeyd edib ki, artıq 11 ayda iqtisadi artım 4,1 faiz olub, o cümlədən qeyri-neft sektorumuz 6,4 faiz artıb. Strateji valyuta ehtiyatlarımız 72 milyard dolları ötüb. Birbaşa xarici dövlət borcumuz ÜDM-in cəmi 7,3 faizini təşkil edir. Hökumət tərəfindən təsdiq edilmiş müvafiq Tədbirlər Planının icrası da antiinflyasiya tədbirlərinə öz töhfəsini verib, ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin olunub.

Əli Əsədov diqqətə çatdırıb ki, 2025-ci ildə dövlət büdcəsinin gəlirləri təxminən 38,4 milyard manat, xərcləri isə 41,4 milyard manat proqnozlaşdırılır. Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 2,4 faizdir. Büdcə layihəsi müasir Azərbaycan tarixində ən böyük büdcədir. Makroiqtisadi proqnozlara əsasən, 2025-ci ildə ümumi daxili məhsulun 3,5 faiz (129,2 milyard manat), qeyri-neft sektoru üzrə isə 4,9 faiz real artım tempi proqnozlaşdırılır. Gələn ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin 20,6 faizini təşkil edir. 2025-ci ildə büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaq. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında daim qalmağa davam edəcək. Ümumilikdə bütün istiqamətlər üzrə sosialyönlü xərclər dövlət büdcəsi xərclərinin 40 faizini üstələyir. 2025-ci ildə minimum əməkhaqqı, pensiya, müavinət və digər sosial ödənişlərdə yeni artımlar 3 milyona yaxın vətəndaşı əhatə edəcək. Səhiyyə sahəsində aparılan davamlı islahatların nəticəsində cari ildə Tibbi Xidmətlər Zərfi çərçivəsində göstərilmiş xidmətlərin sayında 21 faiz artım olub.

Baş nazir diqqətə çatdırıb ki, azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə 2020-ci ildən başlayaraq ümumilikdə 22 milyard manata yaxın, o cümlədən 2025-ci ildə 4 milyard manat vəsait ayrılıb. Böyük Qayıdış çərçivəsində bugünədək 2417 ailə – 9306 nəfər azad olunmuş ərazilərə köçürülüb.

Baş nazir deputatların səsləndirdikləri bir sıra məsələlərin həlli üçün təkliflərə cavab olaraq bildirib ki, ölkə ərazisində qazlaşdırılma səviyyəsi 96,6 faizdir (o cümlədən Naxçıvanda 100 faiz). Bu göstəriciyə görə ölkəmiz MDB və digər qonşu ölkələri qabaqlayır. Hazırda 473 məktəbin əsaslı təmirinə ehtiyac var. Bu, ölkədəki bütün məktəblərin 10 faizini təşkil edir. Bunlardan 123 məktəbdə təmir-tikinti işlərinin gələn ildə aparılması nəzərdə tutulub. 2021-ci ildən bugünədək ölkə üzrə 2700 kilometrdən çox avtomobil yolları yenidən qurulub və təmir olunub. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə 45 layihə icra edilir.

Baş nazir bildirib ki, dövlət büdcəsində "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan layihələrin maliyyələşdirilməsinə 1,1 milyard manat və investisiya xərclərindən sosial və infrastruktur təyinatlı layihələrə 540 milyon manat vəsait ayrılacaq.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası diqqət mərkəzində saxlanılacaq və 150 milyon manat vəsait nəzərdə tutulub. Eyni zamanda, hökumət tərəfindən regionların sosial-iqtisadi inkişafına dair növbəti 5 illik dövlət proqramının hazırlanması planlaşdırılır.

Plenar iclasda müzakirə edilən digər qanun layihələri də səsə qoyularaq qəbul edilib.

XQ

FHN-nin yaradılmasının 19-cu ildönümü

Dekabrın 16-da Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 19-cu ildönümü və işçilərinin peşə bayramı münasibətilə nazirliyin inzibati binasında təntənəli iclas keçirilib.

Əvvəlcə fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə nazirliyin kollektivi Fəxri xiyabana gələrək Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üstünə tər çiçəklər düzülüb. Sonra Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla anılıb, məzarları üzərinə gül dəstələri qoyulub.

Fövqəladə Hallar Nazirliyinin inzibati binasında keçirilən iclas Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

İclasda çıxış edən nazir Kəmaləddin Heydərov sona çatmaqda olan 2024-cü ilin ölkəmizin bütün sahələrdə daha da inkişafı, yeni-yeni və tarixi nailiyyətlərin əldə edilməsi ilə əlamətdar olduğunu vurğulayıb. O, müstəqillik tariximizdə ərazi bütövlüyü və suverenliyi tam bərpa olmuş Azərbaycanda keçirilən ilk Prezident seçkilərində xalqımızın yekdilliklə ən layiqli namizədinə - ölkəmizi hərtərəfli və davamlı inkişaf yolunda inamla idarə edən, 30 il işğal altında olan əzəli torpaqlarımızı azad edərək böyük Zəfərə imza atan, erməni separatizminə son qoyan İlham Əliyevə səs verdiyini xatırladaraq, Ulu öndər Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısının Azərbaycana hələ çox zəfərlər, qələbələr qazandıracağına əminliyini ifadə edib.

Nazir Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un Bakıda keçirilməsinin əlamətdar tarixi hadisə olduğunu qeyd edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qlobal tədbirə uğurla ev sahibliyi etdiyini və konfransın tarixi nailiyyətlərlə yadda qaldığını xatırladıb.

Prezident İlham Əliyevin şəxsi nəzarəti və diqqəti altında işğaldan azad olunmuş ərazilərimizdə çoxsaylı yaşayış məntəqələrinin yenidən qurulduğunu, "ağıllı" kəndlər və şəhərlərin salındığını xatırladan nazir, 2024-cü ildə də bu sahədə dövlətimiz tərəfindən böyük işlərin görüldüyünü vurğulayıb. Həmçinin Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda xalqımızın tarixi, dini, mədəni irsinin müvəffəqiyyətlə bərpa olunduğunu bildirib. Nazir deyib ki, Fövqəladə Hallar Nazirliyi işğaldan azad olunmuş torpaqlarımızda əhalinin və ərazilərin təhlükəsizliyinin təmin edilməsi sahəsində aidiyyəti üzrə müvafiq tədbirləri davam etdirir. Xüsusi Riskli Xilasetmə Xidmətinin "N" saylı xüsusi təyinatlı hərbi hissəsi tərəfindən işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi işləri fasiləsiz həyata keçirilir.

Çıxışının sonunda peşə bayramı münasibətilə şəxsi heyəti təbrik edən nazir Kəmaləddin Heydərov əmin olduğunu bildirib ki, Ulu öndər Heydər Əliyevin ideyalarına söykənən, Prezident İlham Əliyevin hər zaman diqqət və qayğısını hiss edən Fövqəladə Hallar Nazirliyinin kollektivi vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması istiqamətində bundan sonra da var gücü ilə çalışacaq, Ali Baş Komandanın bütün əmr və tapşırıqlarını uğurla yerinə yetirəcək.

Daha sonra Prezidentin müvafiq sərəncamı ilə "Minatəmizləmə sahəsində xidmətlərə görə" medalı ilə təltif edilmiş FHN-in əməkdaşlarına təltiflər təqdim olunub.

Sonda iclas iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunub.

"Kirakosyançılıq"

(əvvəli 1-ci səhifədə)

...Y.Kirakosyan bildirib ki, Ermənistanın beynəlxalq məhkəmələrdəki iddiaları irqi ayrı-seçkilik, nifrətin qızışdırılması xüsusundadır və problemi bu həddə çatdıran ölkənin (Azərbaycanın – red.) möcüzəvi şəkildə ideal qanunlara malik məmləkətə çevrilməsini gözləmək olmaz. "Bu, baş verməyəcək və siz beynəlxalq məhkəmə sisteminə bunun niyə dərhal baş verməsiyini deyə bilməzsiniz. Vaxt lazımdır və bu, heç bir təsirin olmadığı demək deyil" kimi fikirlər səsləndirən erməni diplomat əlavə edib ki, beynəlxalq sistemi pozmağa çalışan avtokrat ölkələr beynəlxalq hüququ başqa ölkələrlə münasibətlərində alətə çevirirlər.

Deməli, Y.Kirakosyanın "avtoritar ölkə" məntiqinin hədəfi Azərbaycandır. Yəni, bu adam son dərəcə arsız-arsız erməni xislətinə xas cəhətlərin ölkəmizin üzərinə transformasiyasına çalışır. Məsələn, "başqa ölkələrlə münasibətdə beynəlxalq hüquqla manipulyasiya"nı götürək. Kirakosyan yaxşı bilir ki, ermənilərin iddia etdiyi ərazi, yəni, Qarabağ beynəlxalq hüquq baxımından da Azərbaycana məxsusdur. Sən demə, bizim erməni millətçilərinin avantürizmini sübuta yetirmək, Ermənistanın separatçılığını dünyaya göstərmək üçün beynəlxalq hüquqa istinadımız manipulyasiya imiş. Həyasızlıq olar, ta bu qədər də yox!

Təsəvvür edin, otuz ilə yaxın müddətdə Azərbaycan torpaqlarını işğal altında saxlayaraq təcavüzkar siyasət yeridən, BMT-nin ərazilərimizin işğalına son qoyulmasına çağırış yüklü dörd qətnaməsinə məhəl qoymayan ölkənin hüquq təmsilçisi bu gün beynəlxalq hüquqa riayət edilməməsindən dəm vurur. Bu, azmış kimi, hələ xarici aləmi də ittiham etmək yolunu tutur.

Yada salaq ki, Y.Kirakosyanın haqqında söz açdığı BƏM-in məhkəmə qərarı Laçın dəhlizi ilə əlaqədar idi. Qərar yolun humanitar məqsədlər naminə açılmasını tələb edirdi ki, onsuz da bu, təmin olunurdu. Yəni, həmin vaxt Azərbaycan Qarabağın erməni əhalisinin yoldan istifadəsinə şərait yaratmışdı. Başlıca vəzifəmiz isə bölgəyə silah-sursat daşınmasının qarşısının alınması və azərbaycanlı mütəxəssislərin faydalı qazıntı mədənlərində iş aparmalarına maneənin aradan qaldırılması olmuşdu.

Əlbəttə, Y.Kirakosyanın "Soyqırım cinayətinə qarşı" qlobal forumundakı çıxışı zamanı Azərbaycana qarşı yönəlmiş mesajlarındakı digər cəhətlərə də nəzər salmaq mümkündür. Amma buna ehtiyac duymuruq. Onsuz da Ermənistanın beynəlxalq miqyasda Azərbaycana qarşı qaldırdığı bütün iddialar puça çıxır, heç bir nəticə vermir. İddialara gəlincə, onların mahiyyətində son dərəcə avantürist niyyətlər dayanır. Kirakosyan irqi ayrı-seçkilik, nifrətin qızışdırılması məsələlərini qabardır. Halbuki, irqi və dini ayrı-seçkiliyə yol verən də, azərbaycanlılara və türklərə qarşı nifrət aşılayan da Ermənistanın özüdür. Bu gün həm Azərbaycanda, həm də Türkiyədə erməni millətindən olan vətəndaşlar yaşayırlar. Ermənistanda isə belə bir hal yoxdursa, aydındır ki, rəsmi İrəvanın mövcud istiqamətdəki iddiaları əhəmiyyətsizdir. Hər halda, beynəlxalq hüququn da müəyyən reallıqdan çıxışetmə xüsusiyyəti, az da olsa, ədalət payı var

Digər tərəfdən, onu da bildirək ki, Ermənistanın Azərbaycan əleyhinə beynəlxalq məhkəmələrə daşıdığı məsələlər sırf xəstə təfəkkür məhsuludur. Məsələn, rəsmi İrəvan Azərbaycan ərazilərindəki mənəvi irs nümunələri sayılan abidələrin erməni abidələri kimi təsdiqlənməsinə çalışıb. Yəni, təxminən belə: torpaq Azərbaycanındır, onun üzərindəki abidə ermənilərə məxsusdur. Bu o deməkdir ki, nə zamansa Ermənistan güclənsə və Azərbaycana qarşı yenidən ərazi iddiası irəli sürmək istəsə, indi çıxarılacaq hansısa məhkəmə qərarı, bir növ, əldə bayraq ediləcək. Deyiləcək ki, abidə ermənilərə məxsusdursa, deməli, onun yerləşdiyi torpaq da ermənilərindir.

Ümumən, müasir Ermənistan dövlətinin beynəlxalq hüquqa yanaşması məhz qeyd etdiyimiz tərzdədir və Y.Kirakosyan bu "yanaşmanın" sırtıq nümayəndələrindən biridir. Ən problemli cəhət isə odur ki, Ermənistanda kirakosyanların sayı kifayət qədərdir və ölkə onlardan, Mirzoyan kimi avantürizmə köklənmiş dövlət rəsmilərindən təmizlənməyincə, rəsmi İrəvanın Azərbaycanla sülhə gəlməsi çətin olacaq.

Ə.RÜSTƏMOV
XQ

YAP namizədlərinin siyahısını təsdiqlədi

Dekabrın 16-da Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin növbəti iclası keçirilib.

İclasda əvvəlcə Azərbaycanda 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar YAP tərəfindən namizədlərin irəli sürülməsi məsələsinə baxılıb.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov seçkilərin keçiriləcəyi 685 bələdiyyənin hər biri üzrə ümumilikdə 8071 namizədin müəyyənləşdirildiyini, onların siyahısının İdarə Heyətinin üzvlərinə əvvəlcədən təqdim olunduğunu vurğulayaraq münasibət bildirilməsini xahiş edib.

Məsələ səsə qoyulub və YAP-ın bələdiyyə üzvlüyünə namizədlərinin siyahısı yekdilliklə təsdiq olunub.

Sonra seçki komissiyalarının tərkibinə təklif olunan məşvərətçi səs hüquqlu üzvlər, seçki dairə və məntəqələrində səsvermə günü müşahidə aparacaq şəxslərlə bağlı məsələyə baxılıb və onların siyahıları təsdiq edilib.

Qərbi Azərbaycana qayıdış – erməni isteriyasına cavabımız

(əvvəli 1-ci səhifədə)

Təxminən belə: azərbaycanlılar Ermənistana qayıtmaq istəyirlərsə, ermənilər də Azərbaycana qayıtmalıdırlar.

Əvvəla, onu deyək ki, Azərbaycanda bu gün də erməni millətindən olan vətəndaşlar yaşayırlar və heç kəs onlara "gözün üstə qaşın var" demir. Bu şəxslər doğulub boya-başa çatdıqları ölkəni özlərinə vətən bilirlər və oranı tərk etmək niyyətində deyillər. Çünki insan kimi ömür sürürlər. Ermənistanda isə nəinki azərbaycanlı yoxdur, üstəlik, digər millətlərin nümayəndələri də istisnadır. Ölkə monoetnik respublikadır ki, bu baxımdan dünyaya "nümunə" sayıla bilər.

İkincisi, Qarabağda ermənilər yaşayırdılar. Ancaq Azərbaycan hakimiyyətinin deyil, qondarma "Dağlıq Qarabağ Respublikası"nın "yurisdiksiyası" altında. Bölgədəki separatçı rejim 2023-cü ilin sentyabrında ordu birləşmələrimizin həyata keçirdikləri lokal xarakterli antiterror tədbirləri nəticəsində tarixin arxivinə gömüldü. Həmin vaxt Azərbaycan hakimiyyəti Qarabağ ermənilərinin ərazidə qalmalarının, evlərini tərk etməmələrinin, həmçinin, ölkəmizin tamhüquqlu vətəndaşı kimi yaşamalarının mümkünlüyünü bəyan etdi. Lakin buna məhəl qoyulmadı və Ermənistan hakimiyyəti, tez bir zamanda, onların bölgədən uzaqlaşdırılmasını həyata keçirdi. Yeri gəlmişkən, rəsmi Bakı antiterror tədbirlərinədək də Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə inteqrasiyası məsələsində çoxsaylı çağırışlar edib, lakin buna əhəmiyyətsiz yanaşılıb.

Sözümüz ondadır ki, azərbaycanlılar ermənilərin Azərbaycan ərazisində yaşamalarına mənfi yanaşmayıblar. Azərbaycan dövləti eyni kursu yeridib. Otuz ilə yaxın davam etmiş Azərbaycan–Ermənistan danışıqlarının müxtəlif mərhələlərində də Qarabağ ermənilərinə ölkəmizin hüdudları daxilində ən yüksək muxtariyyətin verilməsi kimi məsələlər təklif olunub. Erməni millətçilərinin hakim rol oynadıqları rəsmi İrəvan bununla da razılaşmayıb, torpaqlarımızı işğal altında saxlayıb.

Gələk mövzumuza. Söhbət bilavasitə Azərbaycan SSR ərazisində ermənilərin yaşamalarından və onların sayının Ermənistan SSR ərazisində yaşayan azərbaycanlılardan çox olması iddiasından gedirsə, müəyyən tarixi faktlara və reallıqlara diqqət yetirmək zərurəti yaranır. Hələ biz İrəvanın qədim Azərbaycan və türk yurdu olmasını, ermənilərin 1830-cu ildən sonra Azərbaycanın müxtəlif ərazilərinə məqsədli şəkildə köçürülmələrini, onlar üçün erməni vilayətinin yaradılmasını, sonradan isə İrəvanın paytaxt kimi erməni dövlətinə hədiyyə edilməsini bir kənara qoyuruq. Bir sual da var: 1918-ci ilin Mart soyqırımı nə üçün törədilmişdi? Məqsəd Azərbaycanda müsəlman əhalinin kökünü kəsmək idi. Kökünü kəsmək və vətənimizi ermənilərdirmək.

Habelə, SSRİ İttifaqı dövründə Azərbaycan ərazilər hesabına Ermənistan SSR-in ərazilərinin böyüdülməsi halları qeydə alınmışdı. Ermənilər Sovet İttifaqı rəhbərliyində təmsil olunanlar erməni millətçiləri ilə birgə respublikamızın müxtəlif bölgələrində yaşayan azərbaycanlıların öz yurd-yuvalarından uzaqlaşmaları yönündə müəyyən addımlar atmışdılar. Məsələn, Kəlbəcər rayonunun yüksək dağ kəndlərinin sakinlərinə yaşadıqları yerlərə yol, su çəkməyin, guya, mümkünsüzlüyü bildirilmiş və onlara alternativ yaşayış yerləri təklif edilmişdi. Plan belə idi: azərbaycanlı əhali ərazidən uzaqlaşsın, onların yerini ermənilər tutsunlar.

Ümumən, SSRİ dövründə ermənilərlə azərbaycanlılar arasında say balansı yaratmaq istiqamətində tədbirlər də "aktuallığını" saxlamışdı. Məsələn, 1929-cu ildə İrəvana xaricdən 2258, 1930-cu ildə 1610 erməni köçürülmüşdü. Onların yerləşdirilmələri üçün 1929-cu ildə 806, 1930-cu ildə isə 1018 azərbaycanlı İrəvandan çıxarılmışdı. Bundan əvvəl, yəni 1922–1923-cü illərdə isə Qərbi Azərbaycanda yaşayan azərbaycanlı əhalinin 55 mini erməni şovinist dairələrinin yaratdıqları problemlər nəticəsində Azərbaycana və başqa yerlərə üz tutmaq məcburiyyətində qalmışdı.

Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin Ermənistan ərazisinin rayonlaşdırılması haqqında 12 iyul 1929-cu il tarixli qərarına diqqət yetirək. Həmin qərara əsasən, respublikada 5 qəza və 31 rayon təşkil olunmuşdur. Ən əsası isə rayonlaşdırma həyata keçirilərkən, azərbaycanlıların sıx yaşadıqları bir sıra kəndləri parçalamaq planı icra olunmuşdu. Bu mənfur plan soydaşlarımızın ömür sürdükləri ayrı-ayrı yaşayış məntəqələrinin ermənilərin çoxluq təşkil etdikləri rayonların tabeliyinə verilməsi ilə reallaşdırılmışdı.

Onu da vurğulayaq ki, SSRİ-də 1929-cu ildən başlamış kənd təsərrüfatının kollektivləşdirilməsi tədbirləri də anti-Azərbaycan kampaniyasına çevrilmişdi. Həmin vaxt ən yaxşı azərbaycanlı təsərrüfatçılara "qolçomaq" , "əksinqilabçı", "şübhəli ünsür" damğası vurulmuşdu. Bu şəxslərə qarşı saxta ittihamlar irəli sürülmüş, onlar Sibirə və Qazaxıstana sürgünə göndərilmişdi.

XX əsrin 30-cu illərində kolxozları möhkəmləndirmək üçün yeni mütəxəssis qüvvəsinə ehtiyac olması bəhanəsi il xaricdən ermənilərin Ermənistana kütləvi şəkildə köçürülməsi siyasəti həyata keçirilmişdi. Təsəvvür edin ki, həmin illərdə Fransadan və Yunanıstandan Ermənistana 17 min erməni gətirilmişdi. Proses azərbaycanlıların sıxışdırılması ilə paralel şəkildə aparılmışdı. 1933–1934-cü illərdə isə Qərbi Azərbaycana daha 8500 erməni yerləşdirilmişdi. Ümumən, 1920-ci ildən 1940-cı ilədək xaricdən Ermənistana 42 min ermənin gətirilməsi təmin olunmuşdu. Deməli, həm ermənilərin sayı artırılmış, həm də azərbaycanlıların sayının azaldılması həyata keçirilmişdi. Repressiya illərində isə Azərbaycan kəndliləri əksinqilabçı elementlər sayılmış, onlar güllələnmiş, qovulmuş, həbs edilmiş, əmlakları əllərindən alınmışdı. Ermənistanda amansız repressiyanın qurbanı olmuş azərbaycanlıların sayı isə 60 mini ötmüşdü.

İkinci Dünya müharibəsindən sonra da azərbaycanlıların sıxışdırılması həyata keçirilmişdi. Diqqət yetirək, paytaxt Bakıda azərbaycanlı əhalinin sayı erməni və digər millətlərin nümayəndələrinin sayından az olmuşdu. Yalnız ulu öndər Heydər Əliyev 1969-cu ildə respublikamızda rəhbərliyə başladıqdan sonra vəziyyət dəyişməyə başlamışdı. Ancaq hələ bunadək, daha dəqiq desək, 1947-ci ildə SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı olmuşdu. Sovet İttifaqı rəhbərliyindəki ermənilərin, ermənipərəstlərin, habelə erməni millətçilərinin əli ilə çıxarılmış bu qərar nəticəsində Azərbaycanda ermənilərin say üstünlüyünün yaradılmasına çalışılmışdı.

Bəli, ulu öndər Heydər Əliyev, ilk növbədə, Bakının digər millətlərin nümayəndələrinin, o cümlədən, ermənilərin, necə deyərlər, əlindən alınmasına çalışmışdı. Bunu paytaxtda sanaye müəssisələrinin açılmasına nail olmaqla etmişdi. Məlumdur ki, həmin müəssisələr üçün işçi qüvvəsinə ehtiyac var idi. Buna görə rayonlarımızdan paytaxta axın başlamışdı. Yalnız ötən əsrin 70-ci illərinin sonlarına doğru Bakıda azərbaycanlı əhalinin say üstünlüyü 50 faizlik baryeri keçmişdi. Təsadüfi deyil ki, indi bir qədər ağlı başında olan ermənilər arasında belə bir deyim var: Biz Qarabağı istəməklə Bakını itirdik. Onların bu qənaətə gəlmələri heç də təsadüfi deyildi. Axı paytaxtın mərkəzindəki evlərin əksəriyyətində ermənilər yaşayır, rəhbər vəzifələrin çoxunu onlar tuturdular.

Əlbəttə, indi bu sualı vermək istəmirik: Nəyiniz əskik idi? Çünki erməni xisləti üçün hər şey azdır. Az olduğu üçündür ki, haylar SSRİ dövründə Qarabağın da Ermənistana birləşdirilməsinə çalışmışdılar. Əlbəttə, ulu öndər Heydər Əliyev belə cəhdlərin qarşısını böyük ustalıq və prinsipiallıqla almış, üstəlik, Azərbaycanın Qarabağla bağını gücləndirmək istiqamətində məqsədyönlü tədbirlər reallaşdırmışdı. Məsələn, Bakıdan Xankəndiyə dəmir yolu xətti çəkilmiş, pedaqoji institutun Xankəndi filialı fəaliyyətə başlamış və digər bu kimi işlər görülmüşdü. Qətiyyətlə demək olar ki, məhz Ulu öndər mənfur erməni planlarının qarşısına sədd çəkmişdi. Deməli, onun SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılmasından sonra erməni millətçilərinin hərəkətə keçəcəklərini gözləmək olardı və gözləntilər özünü doğrultdu. Sonra hansı faciələr yaşandı, hər kəsə yaxşı məlumdur...

***

Sonda deyək ki, hazırda Ermənistanda Qərbi Azərbaycanla bağlı isterik durum formalaşdıranlar, ermənilərin Azərbaycandakı say üstünlüyündən danışanlar diqqətə çatdırdığımız məsələləri mütləq şəkildə nəzərə almalıdırlar. Çünki tarixə birtərəfli baxış yolverilməzdir. Əgər keçmişdə olanlar əsas götürüləcəksə, o zaman hər şeyə, hər detala diqqət yetiriləcək. Yəni, yaxşı olar ki, Ermənistanda kimlərsə tarixdə ilişib qalmasınlar, keçmişi manipulyativ şəkildə arqumentləşdirməyə qalxmasınlar. İndiki durumda edəcəkləri yalnız bir şey var ki, o da Azərbaycanın tələblərini sözsüz-söhbətsiz yerinə yetirməkdir. Düşünsünlər ki, bu yazıda diqqətə çatdırdıqlarımız erməni məkrinin çox cüzi bir hissəsidir. Onu da düşünsünlər ki, bütün faktlar dilə gəlsə, indiki Ermənistan dövlətinin mövcudluğu böyük sual altına düşəcək. Kimlərəsə bu aqibət lazımdırsa, buyurub cəfəngiyyatlarını əsirgəməsinlər.

Ə.CAHANGİROĞLU
XQ

"Azərbaycana qarşı qara piar əlaqələndirilmiş reaksiya tələb edir "

Bu günlərdə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Xarici İşlər Nazirliyinin birgə təşkilatçılığı ilə "Yeni dönəmin xarici siyasət prioritetləri və media" mövzusunda təlim keçirilib. Təlimin məqsədi, əldə olunan nəticələr, eləcə də gələcəyə yönəlik perspektivlər barədə suallarımızı BMTM İdarə Heyətinin sədri Fərid Şəfiyev cavablandırır.

– Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin Xarici İşlər Nazirliyi ilə birgə jurnalistlər üçün keçirdiyi "Yeni dönəmin xarici siyasət prioritetləri və media" mövzusunda təlimin məqsədi nədən ibarət idi?

– Bildiyiniz kimi, bütün suveren ərazilərimizi əhatə edən prezident və parlament seçkilərindən sonra dövlət başçısı İlham Əliyev tərəfindən yeni dönəmin reallıqlarına uyğun xarici siyasət hədəfləri və prioritetləri müəyyənləşdirildi. Beynəlxalq fəaliyyətdə humanizm və təşəbbüskarlığın əsas prinsiplər olaraq müəyyən edildiyi bu hədəflər istiqamətində Azərbaycan dövləti ardıcıl addımlar atmaqda, tərəfdaş və dost ölkələrlə səmərəli münasibətlər qurmaqda davam edir. Lakin erməni lobbisinin təsiri altında olan müxtəlif dövlətlərin hakimiyyət qolları, eləcə də transmilli şirkətlər tərəfindən Azərbaycana qarşı təşkil edilən qara piar və dezinformasiya kampaniyaları dövlətimiz qarşısında çağırışlar formalaşdırır. Bu isə dövlət, vətəndaş cəmiyyəti və mediadan mümkün təhdidlərə qarşı operativ və əlaqələndirilmiş reaksiya tələb edir. Qeyd edilən məsələlər nəzərə alınaraq, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə media üçün "Yeni dönəmin xarici siyasət prioritetləri və media" mövzusunda təlim təşkil etdi. Təlim iştirakçılarına Azərbaycan və Ermənistan arasında davam etməkdə olan sülh prosesi, Azərbaycanın qonşu, Avropa dövlətləri və beynəlxalq güclərlə münasibətləri, ölkəmizin xarici siyasətində Türk Dövlətləri Təşkilatının yeri və rolu barədə nəzəri və praktiki məlumatlar verdik. Təlimdə 7-si televiziya (biri region televiziyasıdır) olmaqla 11 media təmsilçisi iştirak etdi. Gələcəkdə təlimin əhatə arealını daha da genişləndirməyi və regionlarda fəaliyyət göstərən digər televiziya əməkdaşlarının da cəlb edilməsini düşünürük.

– Hakimiyyətin xarici siyasət prioritetlərinin ölkənin həm də özəl media qurumlarında gözlənilməsi istiqamətində hansı işlər aparılır?

– Bu istiqamətdə hər il media təmsilçiləri üçün təlimlər təşkil edirik. Gündəmə uyğun olaraq, zəruri hesab etdiyimiz məqamlarda mətbuat konfransları keçirərək cəmiyyətdə sual doğuran məqamlara aydınlıq gətiririk. Lakin, bir qayda olaraq, hər ilin sonunda media nümayəndələri ilə görüş təyin edib bu istiqamətdə söhbətlər aparırıq. Əlavə olaraq, mərkəzin ekspertləri tərəfindən təhlillər hazırlanır və bu təhlilləri əsasən "X", "Facebook" platformaları vasitəsilə ictimaiyyətlə paylaşırıq.

– Hazırda jurnalistlərin beynəlxalq sahə üzrə ekspert kimi yetişdirilməsində digər formatların, misal üçün, seminarların, kursların keçirilməsi nəzərdə tutulurmu?

– Sizin qeyd etdiyiniz səpkidə, yəni jurnalistlərin beynəlxalq münasibətlər üzrə ekspertlər kimi hazırlanmasını həyata keçirən kurslarımız fəaliyyət göstərmir. Lakin hər il ölkəmizdəki universitetlərdən – ADA, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Dövlət İdarəçilik Akademiyası və digərlərindən çox sayda tələbələr mərkəzimizdə təcrübə keçirlər. Mərkəz kollektivi olaraq bu təcrübə müddətinin tələbələr üçün faydalı keçməsi üçün çalışırıq. Onu da nəzərə çatdırım ki, təhlil və məqalələrin hazırlanmasında tələbələr müvafiq qaydada araşdırma proseslərinə cəlb olunurlar. Habelə onların tədbirlərin təşkilatçılığı prosesində iştiraka cəlb edərək, praktiki biliklərinin təkmilləşdirilməsinə töhfə verməyə çalışırıq. Əlavə olaraq, onu bildirmək istəyirəm ki, təşkil etdiyimiz tədbirlər ictimaiyyət üçün açıq olduğu üçün media işçiləri tədbirlərdə iştirak edərək müvafiq məlumatlar əldə edə bilərlər.

– Mərkəzin sahə üzrə seçilmiş media təmsilçilərinin xarici ölkələrə media-turlarının təşkilinə necə baxırsınız?

– Bildiyiniz kimi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin fəaliyyəti, əsasən, dünyada və regionda baş verən proseslərin təhlili, Azərbaycan və Ermənistan arasında davam etməkdə olan sülh prosesi, təhlükəsizlik məsələləri ilə bağlı fundamental araşdırmalar aparılması, bu məsələlərlə bağlı ölkəmizin mövqeyinin beynəlxalq ictimai, siyasi və akademik dairələrə çatdırılmasından ibarətdir. Yəni fəaliyyətimiz əsasən ölkəmizin prioritetlərinin beynəlxalq ictimaiyyətdə, xarici auditoriyalarda düzgün işıqlandırılması və əsaslandırılması istiqamətində qurulub və qeyd etdiyiniz məsələ səlahiyyətlərimizə aid deyil. Eyni zamanda, qeyd etməliyəm ki, indiyədək Azərbaycan media təmsilçilərinin yüksək peşəkarlıqla hazırlanmış məqalə və araşdırmalarının tərəfimizdən dərc olunan icmallarda nəşrini həyata keçirmişik. Vurğuladığım kimi, beynəlxalq ictimai-siyasi və akademik çevrələrdə Azərbaycan həqiqətlərinin düzgün dərk edilməsi fəaliyyətimizin əsas istiqamətidir. Bu istiqamətdə Xarici İşlər Nazirliyi Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) ilə birgə həyata keçirdiyimiz AIDA proqramı çərçivəsində indiyədək İtaliya, Monteneqro, Belçika, Serbiya, Meksika, Gürcüstan, Türkiyə, Hindistan, Albaniya və digər ölkələrdən ilboyu müxtəlif vaxtlarda BMTM-də təqaüd proqramında iştirak ediblər. Onlar Azərbaycanda olduqları müddətdə ölkəmizlə bağlı araşdırmalar həyata keçirir, görüşlərə qatılırlar.

Qələmə aldı:
İmran BƏDİRXANLI
XQ

Replika

Kədərsiz ayrılıq

(əvvəli 1-ci səhifədə)

Bundan daha ləzzətli ironik gülüşü Amerika Ermənləri Milli Komitəsinin (ANCA) saytında dərc olunmuş bəyanatdakı tezis yaradır. Müxtəlif ölkələrdə fəaliyyət göstərən 30-dan çox insan hüquqları, siyasi və dini təşkilatların çağırışında oxuyuruq: "Beynəlxalq mandat altında beynəlxalq hüququn həyata keçirilməsi məqsədilə danışıqlar üçün beynəlxalq platforma yaradılmalı, məcburi köçkünlər Dağlıq Qarabağa qayıtmalıdırlar".

Doğrudan da, "beynəlxalq mandat" qüdrətli və sanballı sözdür. İntəhası, onun haylara tətbiqi zamanı tamamilə yararsız söz birləşməsinə çevrilir. Təbii ki, okeanın o tayındakı ermənilər nəyəsə çağıra bilərlər. Bir məsələ var ki, Azərbaycan hansısa "Dağlıq Qarabağa" hansısa "qayıdış" mövzusunda hansısa danışıqları aparmaq niyyətində deyil. Bu mövzu bağlanıb. Vaxtilə Azərbaycan ərazisində yaşayan ermənilər ərazimizi tamamilə könüllü şəkildə tərk etdilər.

Bu proses təkcə Laçın keçid məntəqəsindəki müşahidə kameraları ilə qeydə alınmayıb. Həm də 2023-cü ilin oktyabrında separatçılardan azad edilmiş Qarabağa gəlmiş BMT-nin faktaraşdırma missiyasının hesabatında da öz əksini tapıb. Mötəbər beynəlxalq qurumun hesabatında yazılıb: "Missiya Xankəndi şəhərində oldu, burada əhali və ictimaiyyət nümayəndələri ilə görüşdü, səhiyyə və təhsil sahəsində vəziyyətlə şəxsən tanış ola bildi. Missiya mülki və ictimai infrastruktura, o cümlədən xəstəxanalar, məktəblər və yaşayış binaları, mədəni və dini infrastruktura hər hansı ziyanın dəydiyini görmədi. Həmkarlarımıza nə yerli əhalidən, nə də başqalarından mülki şəxslərə qarşı zorakılıq barədə məlumat daxil olmadı. BMT komandasının üzvləri, həmçinin kənd təsərrüfatı infrastrukturunun məhv edilməsini və ya ölmüş heyvanları müşahidə etmədi".

Bununla münaqişəyə son nöqtə qoyuldu, Qarabağ məsələsi də həll olundu. Yox, əgər Qarabağ ermənləri XIX əsrdən etibarən sığınacaq tapdıqları bu dilbər güşə üçün çox darıxırlarsa, buyursunlar fərdi qaydada müraciət etsinlər. Onların geriyə dönüşü Azərbaycan qanunlarına uyğun şəkildə həyata keçiriləcək. Amma bu proses qarşılıqlı surətdə, Ermənistandan deportasiya edilmiş azərbaycanlı əhalinin geri qayıtmaq hüququnun tanınması ilə paralel gedəcək.

Sonda daha bir gülməli məqam: Bəzi "məcburi köçkünlər" bəyan etmişdilər ki, onlar "Dağlıq Qarabağa" dönməyə ümid edirlər, amma Ermənistan vətəndaşlığını qəbul etsələr qayıtmaq hüququnu itirməkdən qorxurlar. Noyabr ayının məlumatına görə, Azərbaycanı könüllü tərk edən Qarabağ ermənilərinin yalnız üç faizi Ermənistan vətəndaşlığını qəbul edib. Ermənistan daxili işlər nazirinin müavini Armen Kazaryan onlara bildirib ki, "Dağlıq Qarabağdan" Ermənistan vətəndaşlığını qəbul etmiş "məcburi mühacirlər" statuslarında nəzərdə tutulmuş bütün imtiyazlarını, o cümlədən ölkəyə yenidən qayıtmaq hüququnu özlərində saxlayırlar.

Hayların daxili işlər nazirinin o boyda müavinini məyus etmək istəməzdik, amma ermənilərin Azərbaycan ərazisinə bu cür qayıdışı nəzərdə tutulmur. Burada nə onları gözləyən var, nə də geri qayıtmalarına ehtiyac duyulur. Vaxtilə aramızda "qarşılıqlı sevgi"nin olmadığı kimi, indi ayrılığımız da kədərsiz baş tutdu...

İ.HƏSƏNQALA
XQ

Papikyanın Paris səfəri regiona yeni gərginlik vəd edir

Ermənistanın müdafiə naziri Suren Papikyanın rəhbərlik etdiyi nümayəndə heyəti Fransaya səfər edib. Bu barədə ölkənin müdafiə nazirliyi məlumat yayıb. Məlumatda dekabrın 15-dən başlayan səfərin "işgüzar" xarakter daşıdığı qeyd edilib. Nazirlik səfərin gündəliyi ilə bağlı məsələlərə dair ətraflı məlumat verməyib.

Dünən açıqlanan məlumatda S.Papikyanın səfər çərçivəsində Fransa prezidentinin hərbi müşaviri, hərbi kabinetin rəhbəri, ordu generalı Fabyen Mandonla görüşdüyü bildirilib. Ermənistan tərəfinin yaydığı məlumata görə, görüşdə iki ölkə arasında müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Əməkdaşlığın bütün istiqamətləri ətraflı nəzərdən keçirilib. Bura hərbi təhsil, təlim proqramları, məsləhətləşmələr, hərbi-texniki məsələlər daxildir. "Görüşdə regional və beynəlxalq təhlükəsizlik məsələləri də müzakirə edilib. Tərəflər bu məsələlərlə bağlı öz yanaşmalarını təqdim ediblər" – deyə Ermənistan müdafiə nazirliyi bildirib.

Qeyd edək ki, S.Papikyan bundan öncə də dəfələrlə Parisə səfər edib. Həmçinin, onun fransalı həmkarı Sebastyen Lekornyu İrəvanda olub. Bu səfərlər zamanı Fransanın Ermənistana hücum silahları tədarük etməsinə dair sazişlər imzalanıb. Bir sözlə, Ermənistan və Fransa hərbi əməkdaşlığı daha da genişləndirib, dərinləşdirirlər. Bir neçə həftədən sonra yeni – 2025-ci ilə qədəm qoyacağımızı nəzərə alaraq ehtimal etmək olar ki, budəfəki səfər növbəti il üçün planların tərtib olunmasına həsr ediləcək. Bütövlükdə isə Fransanın Cənubi Qafqaz bölgəsində olduqca destruktiv, təxribatçı rol oynadığını nəzərə alaraq demək mümkündür ki, digər səfərlər kimi, bu səfər də bölgədə gərginliyi daha da artırmağa xidmət edəcək.

Onu da bildirək ki, Ermənistan müdafiə nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın əvvəlində ABŞ-a işgüzar səfərə gedib. Birləşmiş Ştatların müdafiə naziri Lloyd Ostin Papikyanın səfərini "tarixi" adlandırıb və ABŞ-ın Ermənistan silahlı qüvvələrində islahatları dəstəkləməyə davam etməyə hazır olduğunu bildirib. Həmçinin bildirilib ki, tərəflər təkcə Ermənistan–ABŞ ikitərəfli əməkdaşlığını deyil, beynəlxalq və regional təhlükəsizlik məsələlərini də müzakirə ediblər. Bundan əlavə, son illərdə Ermənistanla Hindistan arasında hərbi əməkdaşlığın genişlənməsini də nəzərdən qaçırmaq olmaz. Yola salmaq üzrə olduğumuz ildə Ermənistan təkcə Fransa, Hindistan və ABŞ-la hərbi əməkdaşlığı gücləndirməyib, eyni zamanda, Yunanıstan və Cənubi Kiprlə də bu istiqamətdə lazımi addımlar atıb. Həmçinin, Cənubi Koreya və Çin Xalq Respublikası ilə hərbi-texniki əməkdaşlıq üzrə dialoqa başlanılıb. Ermənistanın təcavüzkar dövlət olduğunu, Azərbaycan ərazilərinin 20 faizini on illər ərzində işğal altında saxlamasını, bu gün də sülh danışıqlarına paralel olaraq prinsipial məsələlərdə konstruktivlik göstərməməsi, yəni əsas qanununda Müstəqillik bəyannaməsinə istinadı çıxarmaqdan imtina etməsi bu ölkənin silahlanmasına, başqa ölkələrlə hərbi əməkdaşlığı genişləndirməsinə bizim həssaslıqla yanaşmağımızı tələb edir. Baş verənlər ölkəmizin təhlükəsizlik qayğılarını artırır.

Bu çərçivədə dekabrın 12-də Fransanın Ermənistandakı səfiri Olivye Dekotini və S.Papikyan arasında müdafiə sahəsində əməkdaşlıq gündəliyinin aktual məsələlərinin və yaxınmüddətli planların müzakirə edildiyi görüş də diqqəti cəlb edir.

Bundan bir neçə gün öncə isə İrəvanda Ermənistanla Fransa arasında strateji məsləhətləşmələr həyata keçirilib və 2025-ci il üçün müdafiə sahəsində əməkdaşlıq proqramı imzalayıb. Lakin proqramın detalları açıqlanmayıb. Ermənistan müdafiə nazirliyi bildirib ki, proqrama silahlı qüvvələrin, demək olar ki, bütün fəaliyyət istiqamətləri üzrə onlarca fəaliyyət daxildir. Rəsmi xülasədə bildirilir ki, Ermənistan–Fransa strateji məsləhətləşmələri zamanı müdafiənin planlaşdırılması, hərbi təhsil və təlimlər, məsləhət dəstəyi, müxtəlif qoşun növlərinin hazırlığı və hərbi-texniki əməkdaşlığın digər sahələrində əməkdaşlığa xüsusi diqqət yetirilib.

Hayastan müdafiə nazirliyi əməkdaşlığın daha yüksək səviyyəsi ilə bağlı ifadənin nə demək olduğunu dəqiqləşdirməyib. Sadəcə məlumdur ki, "strateji məsləhətləşmələr" baş tutub və sənədi Ermənistan tərəfdən nazirliyin müdafiə siyasəti və beynəlxalq əməkdaşlıq departamentinin rəhbəri Levon Ayvazyan, Fransa tərəfdən isə müdafiə nazirliyinin beynəlxalq əməkdaşlıq baş idarəsinin nümayəndəsi Aleksandr Eskorsiya imzalayıblar. Ermənistan müdafiə nazirliyi, həmçinin bildirib ki, silahlı qüvvələrin komandanlığı fransalı tərəfdaşlarla qarşılıqlı fəaliyyət səviyyəsindən razıdır və əməkdaşlığı inkişaf etdirmək niyyətindədir: "Ermənistanın silahlı qüvvələrində islahatların prioritetləri və bu islahatlar çərçivəsində Fransa ilə əməkdaşlığın gedişatı müzakirə edilib".

Ötən il isə Ermənistan və Fransa hərbi texnikanın tədarükünə dair müqavilə imzalayıblar. Müqaviləyə əsasən, Fransa Ermənistana üç ədəd "GM200" radarı və "Mistral" raketləri verməlidir. Həmçinin bildirilib ki, Fransa tərəfi Ermənistana silahlı qüvvələrində islahatlar aparmaqda kömək göstərəcək. 2023-cü ildən başlayan əməkdaşlıq nəticəsində Fransa artıq Ermənistana 24 ədəd "Bastion" zirehli maşını verib. Lakin hələlik üç ədəd "GM200" radarının və "Mistral" raketlərinin təhvil verilib-verilməməsi barədə məlumat yoxdur. Bir neçə ay əvvəl Fransanın xarici işlər naziri İrəvanda olarkən Parisin müdafiə sektorunda Ermənistana dəstəyini davam etdirəcəyini bildirmişdi.

Qərb dünyasını təmsil edən Ermənistanın Fransa ilə hərbi əməkdaşlığı inkişaf etdirməsi Azərbaycanda təhlükəsizlik qayğıları yaratmaqla yanaşı, Rusiyaya qarşı da yönəlmiş addımdır. İrəvandakı qərbpərəst ekspertlər Fransa ilə hərbi əlaqələrin inkişaf etdirilməsinə sevindiklərini gizlətmirlər. Politoloq Lilit Dallakyan Qərb tərəfdaşları ilə əməkdaşlığın dərinləşdirilməsinə yönəlmiş istənilən addımı müsbət qiymətləndirdiyini deyib: "Təbii müttəfiqlərimizlə əməkdaşlığın dərinləşdirilməsi vacibdir. Xüsusilə Suriyadakı hadisələrdən sonra yaranmış belə mürəkkəb və kövrək geosiyasi vəziyyətdə. Heç kim Suriya böhranının necə bitəcəyini proqnozlaşdıra bilməz".

Ekspert hesab edir ki, silah alışı ilə yanaşı, zabitlər və bütün hərbi heyət üçün təlimlər keçirmək, silahlı qüvvələri NATO standartlarına yaxınlaşdırmaq lazımdır: "Bizim qarşımızda ordunun modernləşdirilməsi kimi ciddi vəzifə durur. Mən bunu müasir silah almağa bərabər vacib məsələ hesab edirəm. Siz silah almaqla yanaşı, ondan necə istifadə edəcəyinizi də bilməlisiniz".

Politoloq Ermənistanın hava hücumundan müdafiəsinin Rusiya ilə birgə həyata keçirilməsini problemli məsələ hesab etdiyini bildirib. Qeyd edib ki, yeni hava hücumundan müdafiə sistemlərini əldə edərkən, onların necə istifadə olunacağı, Rusiya Federasiyasının müdaxiləsi olmadan müstəqil şəkildə istifadə edilə biləcəyi sualı yaranır: "Bir çox hərbi ekspertlər iddia edirlər ki, artıq Rusiyanın Ermənistana hava hücumundan müdafiə ilə bağlı öhdəliklərini yerinə yetirmədiyi hallar olub".

L.Dallakyan əmindir ki, Ermənistanın müdafiə sistemində Rusiyanın mövcudluğu minimuma endirilməlidir. O hesab edir ki, Ermənistan–ABŞ və Ermənistan–Fransa müdafiə əməkdaşlığı bir paketdə nəzərdən keçirilməlidir. Dallakyan xatırladıb ki, hamı Qərb tərəfdaşlarının Rusiyanın yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Ermənistana silah satmasını qeyri-mümkün hesab edirdi. Lakin onun fikrincə, bu, ABŞ-ın razılığı ilə baş verdi: "ABŞ-ın icazəsi olmasaydı, Fransa belə bir addım atmazdı".

Politoloq, eyni zamanda, Donald Trampın hakimiyyətə gəlişindən sonra Avropanın müdafiə sistemini müstəqil şəkildə inkişaf etdirməyə çalışacağına dair siqnallar verildiyini qeyd edib: "Fransa, Böyük Britaniya, Almaniya, Polşa öz ordularını gücləndirmək barədə çox fəal şəkildə danışır. Bu, bizim üçün yaxşıdır. Biz bir tərəfdaşdan asılı olmayacağıq. Biz də Ukrayna kimi bir sıra Avropa ölkələri ilə ikitərəfli müqavilələr imzalaya biləcəyik".

L.Dallakyanın sözlərinə görə, bu ölkələr İrəvanla qarşılıqlı faydalı əməkdaşlığa razı olacaqlar, çünki Ermənistan artıq Rusiyanın strateji müttəfiqi olması stereotipini sındırıb. Onun fikrincə, Ermənistanın KTMT-yə üzv olması hücum silahlarının əldə edilməsinə mane ola bilər. Eyni zamanda, L.Dallakyan Rusiyanın bu strukturunu (KTMT-ni nəzərdə tutur–S.H.) tərk etməyin risklərini də nəzərə almağı zəruri hesab edib. Deyib ki, Ermənistan rəhbərliyi əvvəlcə ölkəni "təhlükəsizlik yastıqları" ilə təmin etməlidir.

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu S.Papikyanın səfəri ilə bağlı XQ-yə açıqlamasında bildirdi ki, bir ölkənin müdafiə naziri il ərzində başqa ölkəyə dəfələrlə səfər edirsə, deməli, həmin ölkə ilə hərbi əməkdaşlığı dərinləşdirməyə və oradan hərbi texnika almağa çalışır. Onun sözlərinə görə, bu sözlər Ermənistan müdafiə nazirinin Parisə səfər etməsinə aid edilməlidir. Bu, Papikyanın 2024-cü il ərzində Parisə çoxsaylı səfərlərindən daha biridir: "Xəbərlərdə Papikyanın Parisə "işgüzar" xarakterli səfər etdiyi qeyd olunub. Bundan bir neçə gün əvvəl Papikyan ABŞ-a da "işgüzar" səfər etmişdi. Fransa Ermənistanla hərbi əməkdaşlığı dərinləşdirməyə və bu ölkəyə hərbi texnika, o cümlədən raket sistemləri verməyə hazırdır. Ermənistan hökuməti də bunu istəyir, ancaq İrəvan Rusiyadan hələ tam qopa bilməyib. Ermənistan 2024-cü il ərzində Rusiyadan hərbi texnika almasa da, keçmiş illərdə şimal qonşumuzdan aldıqlarının həcmi o qədər böyükdür ki, onları NATO üzvü Fransadan aldığı və alacağı hərbi texnika ilə inteqrasiya etdirmək çətindir".

E.Şahinoğlu qeyd etdi ki, S.Papikyan baş nazir Nikol Paşinyandan aldığı təlimat əsasında bu məsələləri Parislə razılaşdırmağa çalışmalıdır: "Digər tərəfdən Ermənistan ordusunun generallarına etibar yoxdur. Paşinyan özü demişdi ki, orduda beşinci kolon mövcuddur. Yəni, yüksək rütbəli erməni zabitlərin bir qismi Rusiyaya bağlıdır. Həmin zabitlər Ermənistana göndərilən və ya göndərilməsi planlaşdırılan hərbi texnikalar barədə məlumatları axırıncı detallarına qədər Rusiya hərbi kəşfiyyatına ötürə bilərlər. Paşinyan bu problemi həll etməyib. Vaşinqton və Paris Ermənistanla hərbi sahədə əməkdaşlıq edərkən, İrəvanın Rusiyadan nə qədər uzaqlaşa bildiyini də hesablamağa çalışırlar".

Səxavət HƏMİD
XQ

Təxribat və girov götürmə cinayətlərini planlaşdıran ekstremist qruplaşma ifşa edildi

Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri ilə Azərbaycan Respublikasının vətəndaşları – 1984-cü il təvəllüdlü Şahmurov Fəxrəddin Hacı oğlu, 1960-cı il təvəllüdlü Muradov Calal Murac oğlu, 1998-ci il təvəllüdlü Babayev Kamran Kamil oğlu və digərlərinin Azərbaycan Respublikasının konstitusiya quruluşunun əsasları əleyhinə ağır və xüsusilə ağır cinayət əməlləri törətmək məqsədilə sövdələşib cinayətkar birlik yaratmaları, respublika ərazisində gizli görüşlər və sosial şəbəkələrdə müxtəlif qapalı qruplar təşkil edərək, dövlət təsisatlarına qarşı təxribat əməlləri törətmələrinə hazırlıq görmələri aşkara çıxarılmışdır.

Məlum olmuşdur ki, xarici ölkə vətəndaşının da iştirakı ilə keçirilmiş gizli toplantıda cinayətkar birliyin bayrağının, törədiləcək cinayətlərin plan və şərtlərinin işlənib hazırlanmasına rəhbərlik etmək Fəxrəddin Şahmurova tapşırılmışdır.

Fəxrəddin Şahmurov cinayət qruplaşmasının digər üzvləri ilə birlikdə mütəşəkkil dəstə halında ölkənin müdafiə qabiliyyətinə və iqtisadi təhlükəsizliyinə ziyan vurmaq məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədində yerləşən gömrük postunu ələ keçirmək, cinayətkar birliyin tələblərini irəli sürmək üçün orada xidmət aparan əməkdaşları və digər şəxsləri girov götürmək barədə təxribat planı hazırlamışdır. Lakin öncədən görülmüş tədbirlərlə mütəşəkkil dəstənin qanunsuz əməllərinin qarşısı alınmışdır.

Fəxrəddin Şahmurov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28.282.2-ci (mütəşəkkil dəstə tərəfindən təxribata hazırlıq), 28.215.3 (adamları girov götürməyə hazırlıq), 218.1 (cinayət birlik (təşkilat) yaratma) və 281.2 (dövlət əleyhinə çağırışlar məzmunlu materiallar yayma), Calal Muradov və Kamran Babayev isə Cinayət Məcəlləsinin 281.2-ci və digər maddələri ilə cinayət məsuliyyətinə cəlb edilərək həbs olunmuşdur. Həmçinin digər şəxslər də istintaqa cəlb edilmişdir.

DTX-nın mətbuat xidməti bildirir ki, hazırda cinayət işi üzrə kompleks araşdırmalar davam etdirilir.

XQ

"Böyük manipulyator"

(əvvəli 1-ci səhifədə)

Nə qədər qəribə səslənsə də, onlara haqq qazandıran Fransa prezidenti Emmanuel Makrondur. Axı M.Endeveld "Böyük manipulyator"u da elə Makronun özüdür.

O da məlumdur ki, Fransanın dövlət başçısı jurnalistin 2019-cu ildə nəşr etdirdiyi bu kitaba qarşı əsl hücumlar təşkil edib, onun satışına, ümumən yayımına maneələr törədib, reklamını əngəlləyib. Necə deyərlər, haqq nazilər, amma üzülməz. "Böyük manipulyator" isə haqqı faktoloji baxımdan diqqətə çatdıran son dərəcə ciddi vəsaitdir.

M.Endeveld istəyinə nail olmağı bacarıb. Onun qələmindəki Makron M.Veberin təbirincə desək, bahalı xidmətləri fransızlara ən aşağı səviyyədə sırımağa cəhd göstərən, həyatda öz yerini tuta bilməyən avantüristdir. Bu avantürist o qədər qəzəblidir ki, G.Malkinin əvvəldə diqqətə çatdırdığımız düşüncəsi də aktuallığını qoruyur. Axı Makron hakimiyyətin öz xalqı haqqında pis düşüncədə ola bilməsinin də sübutlu obrazıdır.

Hesab edirik ki, M.Endeveldin diqqətə çatdıracağımız "Böyük manipulyator" kitabı ilə tanış olduqca, Fransanın hazırkı dövlət başçısının əsl simasını, daha doğrusu, simasızlığını dolğun boyalarla görəcəksiniz. Makronun gizli şəbəkələrindən bəhs edən nəşrdə onun dövlət idarəçiliyini acınacaqlı duruma gətirməsi də əhatəli təsvir olunur.

Prezident zəhəri

2018-ci ilin yazında, hələ "Benalla məsələsindən" əvvəl, Yelisey sarayındakı murdar və üzücü ab-havadan şikayətlənən məsləhətçilərindən birinə Emmanuel Makron belə cavab verir: "Sən də Brijit kimi birdəfəlik başa düş ki, respublika prezidentinin ətrafı həmişə zəhərli olur". Həm qəribə, həm aydın, həm də fatalizmlə dolu bir həqiqət... Sanki V Respublikanın ən gənc prezidenti seçki kampaniyasında özünü "yeni dünya"nın daşıyıcısı kimi təqdim edən bu adam, gücü tükənmiş bir rejimi, eləcə də əvvəldən mövcud olan qanunları dəyişdirmək niyyətində deyilmiş. Onun cavabından təəccüblənən həmsöhbəti, prezidentdən bu zəhərə qarşı dərman olub-olmadığını soruşur. Dövlət başçısı bu sualı cavabsız qoyur.

Hər şey prezidentin seçki kampaniyasından başlandı. Şübhə yoxdur ki, bu iddialı adamın bəxti gətirir. Belə ki, heç bir siyasi karyerası olmayan, hətta heç bir partiyaya belə daxil olmayan Emmanuel Makron, ən yüksək pilləyə qalxmaq üçün bütün Respublika şəbəkələrindən məharətlə istifadə etdi. Düzdür, onun tərəfdarları Makronu mediada "yeni dünya yaradacaq, güclü potensialı olan, ölkəyə yeni siyasi və iqtisadi amillər gətirəcək bir namizəd" kimi təqdim etsələr də, bu adam hakimiyyətə gəlmək üçün əslində, "köhnə dünya"nın klassik kanallarından istifadə etdi. Heç kəsə heç nəyi sübut etmək niyyətində olmadığını iddia edən, öz sözlərinə görə "hər şeyi həmişə özü tək edən" gənc bankir, əslində, prezident kürsüsündə əyləşmək üçün min oyundan çıxdı, yüzlərlə adamı məharətlə manipulyasiya etdi, onlarla adama şirin vədlər verib, nəhayət, istədiyinə nail oldu.

Şəbəkələr və kölgədə olan adamlar

Müxtəlif lobbilər, cəmiyyətə və ictimai fikrə təsir etməyi bacaran xüsusi agentlər, əyalət şəhərlərindəki baronlar, media kralları, hətta frank-mason lojaları... Hamısı ona öz köməklərini təklif etdilər. Makron onların hər birini böyük təbəssümlə qarşıladı, onlardan ustalıqla istifadə elədi, bəzilərini isə sadəcə olaraq manipulyasiya etdi. Bu siyasi hoqqalarda onun arvadı Brijit Makron mərkəzi rol oynadı, xüsusilə sağçılar partiyasının üzvlərini öz tərəflərinə çəkməkdə. Bütün təsir şəbəkələrindən səmərəli istifadə edən bu "həyasız" namizəd, rəqiblərini tamamilə zərərsizləşdirə bildi. Professional bir bankir kimi Makron insanlardan kapital kimi istifadə edir: kimləri harada və nə vaxt investisiya etməyi, kimlərdən harada və nə vaxt istifadə etməyi gözəl bacarır. Necə ki, vaxtilə Manuel Valls HAVAS şəbəkəsindən, Fransua Bayru Modem partiyasından, Fransua Ollandın keçmiş müdafiə naziri Jan-İv Lö Drian Sosialist Partiyasından istifadə etdiyi kimi.

Hakimiyyətə gəlmək üçün Makron, demək olar ki, utanıb-qızarmadan hər şeydən və hamıdan sui-istifadə etdi. Vaxtilə onun prezident kampaniyası üçün vəsait toplayan yaxın bir adamı deyir ki, "prezident olmazdan əvvəl, Makron eynilə Don Juan kimi özünü bizim hamımıza sevdirdi, hamımıza şirin vədlər verdi, istədiyinə çatandan sonra isə hamımızı – katolikləri, müsəlmanları, milyonerləri, yüksək vəzifə sahiblərini, bir sözlə, ona kömək duranların hamısını tamamilə unutdu. Qısası, hamımızı yaxşıca doladı".

2017-ci ildə gənc prezidentin qələbəsində, bütün bu şəbəkələr böyük rol oynadılar. Ortaya məntiqi bir sual çıxır: necə olur ki, Sarkozi sisteminə qarşı çıxmaqla prezident seçilən Fransua Ollanddan sonra siyasi kölgədə qalanlar, din xadimləri, iş adamları, mədəniyyət və incəsənət adamları, hətta cəmiyyətin böyük bir qismi, bu adamı hakimiyyətə gətirmək üçün dəridən-qabıqdan çıxdılar? Makronun keçmiş tələbə yoldaşlarından birinin sözlərinə görə "onlar Sarkozi ilə Dominik Stros Kanın əxlaqsızlıqlarını bir-biri ilə qarışdırıb ortaya bunu (Emmanuel Makron) çıxardılar".

Yelisey sarayında, prezidentin ətrafındakılar bir ağızdan təsdiqləyirlər ki, "Makron öz xeyirləri üçün Fransadan istifadə edən bəzi ölkələr, xüsusilə bir sıra Afrika ölkələri ilə əlaqələri qırmaq istəyir. Əslində, onlar bu mifologiyanı, reallığı gizlətmək üçün yaradıblar. Özünün siyasi partiyası olmadığından, prezidentliyə namizədliyini irəli sürən Makron, əvvəllər yaxınlıq etdiyi iki böyük ənənəvi partiyadan kömək istəmişdi. Ancaq eyni zamanda hər yerdə təkrar edirdi ki, o, nə sağçı partiyası, nə də solçu partiyası ilə yaxınlıq etmək fikrində deyil. Etiraf etmək lazımdır ki, onu dəstəkləyən şəbəkələr genişdir: onların arasında böyük beynəlxalq ticarət orqanizmləri, Afrikanın bəzi fransızdilli ölkələri, silah sənayesi, gizli kəşfiyyat xidmətləri, xüsusi təhlükəsizlik servisləri, dövlət üçün işləyən tikinti, telekommunikasiya və kommunal şirkətləri var. Təbii ki, bunlardan geniş ictimaiyyətin xəbəri yoxdur, daha dəqiq desək, onların çoxunu heç ictimaiyyət tanımır. Bizim apardığımız araşdırmalar nəticəsində məlum oldu ki, yuxarıda adı çəkilən ölkə və şirkətlər Makronun prezident kampaniyasında maliyyə çətinliklərinin olduğu bir vaxta meydana çıxdılar. Rəsmi məlumata görə, prezidentliyə namizəd Makron, Yelisey sarayını fəth etmək üçün onun kampaniyasına lazım olan məbləğin xeyli hissəsini, özlərini "yeni iqtisadiyyatın" sütunları sayan məşhur iş adamlarının köməyi ilə topladı. Ancaq bu bəs eləmədi.

Təbii ki, seçki kampaniyasına keçirilən pullar, Milli Kampaniya Hesab Komissiyası tərəfindən, eləcə də siyasi maliyyələşdirmə komitəsi tərəfindən təsdiq olunmuşdu. Ancaq 2018-ci ilin noyabr ayında onun seçki komissiyasının maliyyələşdirilməsində bir neçə qanun pozuntuları olduğunu sezən ədliyyə sistemi istintaq işi açdı. Məhkəmə bir il əvvəl prezidentliyə namizəd olan Makronun "Hərəkətdə!" hərəkatına keçirilən 144 000 avronun haradan gəldiyi ilə maraqlandı. Açığını deyək ki, bizim bu barədə verdiyimiz suallar, çox vaxt həmsöhbətlərimizi narahat etdi... Emmanuel Makron iqtisadiyyat naziri olan vaxt, onun kabinetinin keçmiş üzvlərindən biri bizə belə cavab verdi: "mən bu barədə danışmaq belə istəmirəm… çünki onların hamısı xəstədir!". Bəziləri bizim suallarımızdan yayındılar, bəziləri bizimlə söhbətdə, hətta mobil telefonlarından belə istifadə etməkdən qorxdular. Nə səbəbə?

(ardı var)

Liderin quruculuq kursu

IX MƏQALƏ

Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.

Heydər ƏLİYEV,
Ümummilli lider

Yüksək rifah cəmiyyəti

"Yaşıl ölkə" anlayışının sosial-iqtisadi ilə yanaşı, mənəvi-əxlaqi və mədəni komponentlərin sintezində dərk edilməsi dayanıqlı inkişafın mühüm şərtini anlamağa yardım edir. Bununla yanaşı, burada müxtəlif faktorların çox incə bir balansının mövcudluğu tələb olunur ki, ölkə bütöv halda davamlı inkişafda ola bilsin.

Onu təmin edən mexanizmlər kimi güclü iqtisadi sistem, fəzilətli toplum və milli ideyanı vurğulamaq olar. Həmin faktorların kompleks təsiri sayəsində formalaşan qüdrətli dövlətin yüksək rifah (fəzilətli) cəmiyyətinə malik olması mühüm şərtdir. Bu aspektdə problemə yanaşanda yüksək rifah cəmiyyətinin fəlsəfi və politoloji anlamı qurucu liderliyin vacib tərəflərindən birini aydın təsəvvür etməyə imkan yarada bilər.

Strateji inkişaf kursunun yüksək rifah cəmiyyəti məqsədi müasir dövrün əsas tələblərindən biri kimi fəlsəfi təfəkkürün diqqətini çəkir. Məsələ onunla bağlıdır ki, hazırda süni intellektin yaradılması və onun total olaraq cəmiyyətə tətbiqi xeyli dərəcədə insanların mənəvi-əxlaqi dəyərlərə münasibətini dəyişməkdədir.

Artıq əvvəlki dövrlərdə olduğu kimi mənəviyyat və əxlaq məsələsi yalnız insanın daxili keyfiyyətləri və ya dini əsaslara görə qiymətləndirilmir. İnsan daxili dünyasını birbaşa "seyr etməklə" (E.Husserl "ideasiya" terminini işlətmişdir) özünün mənəvi-əxlaqi keyfiyyətlərini formalaşdıra bilər. Filosoflara görə, bu keyfiyyət artıq keçmişdə qalmışdır. Başqa bir yanaşmaya görə, insanın mənəvi-əxlaqi keyfiyyətləri sırf maddi faktorlara görə formalaşır. Nəhayət, idealistik yanaşmada ideasiya ilə materialist yanaşmanın sintezi baş verir.

Müasir mərhələdə bunlarla yanaşı, ictimai aspektdə yeni bir fenomen formalaşır – insanlar özlərinin mənəvi-əxlaqi aləmlərinə texniki, texnoloji və informasiya-kommunikasiya faktorlarının kompleks təsirinin prizmasında baxırlar. Bu da xeyli dərəcədə insanların dünyagörüşündə ekstravaqant (zahiri parlaqlıq, mənəvi ilğım) effekt yaradır. Onun sadə mənası belədir ki, artıq insanlar cəmiyyətdə mənəvi-əxlaqi keyfiyyətlərini daxili özəlliklərlə texniki artefaktların (faktların şüurda təsəvvür kimi obrazlaşmasının) vəhdətində dəyərləndirirlər.

Total miqyasda, bu, sırf ideasion dəyərlərlə komfort, rahat və utilitar xarakterli ekstravaqant məqamların harmoniyasını ön plana çıxarır. Müasir cəmiyyətlərin hər biri bu iki istiqamətin "çarpaz" təsirləri altındadır. Bu faktı ciddi qəbul etmək lazımdır, çünki onun necə və hansı nisbətdə təsir etməsi real olaraq toplumun kimliyini müəyyən edir. Burada da müxtəlif ssenarilər meydana gələ bilir: 1) cəmiyyət texnoloji inkişafa nail olur, 2) lakin mənəvi-əxlaqi və etik dəyərlərdən kasad qalır, 3) cəmiyyət mənəvi-əxlaqi kamil olur, lakin texniki və texnoloji tərəqqidə feridə qalır, 4) cəmiyyətdə süni varlıqlar (intellekt) üstün nəzarət imkanlarına malik olur ki, bu da mənəvi-əxlaqi aspekti qeyri-müəyyən məcraya yönəldə bilir, 5) cəmiyyətdə süni intellektin dominantlığı meydana müxtəlif mənəvi-əxlaqi riskləri çıxarır.

Bütün bu məqamları müasir filosofların bir qrupu Böyük Antropoloji Keçid (yeni kollektiv mövcudluq formasına transformasiya) adlandırırlar. Yəni fərdi və kollektiv səviyyədə insana, cəmiyyətə münasibətlər dəyişir. Belə alınır ki, müasir mərhələdə hər bir cəmiyyət özünün inkişaf kursunu çox sayda bir-biri ilə qarşılıqlı əlaqədə olan faktorların nəzərə alınması şərti ilə müəyyən etməlidir. Yəni strateji kontekstdə konkret toplum modeli seçilməlidir. Bu baxımdan Azərbaycan rəhbərliyinin yüksək rifah cəmiyyəti nümunəsinə üstünlük verməsi tarixi mənası olan müsbət seçimdir.

Burada "yüksək rifah" anlamı faktiki olaraq "yüksək fəzilətli toplum" anlayışı ilə sinonimdir. Çünki başlıca məqsəd insan kapitalına istiqamətlənmiş kursu müəyyən etməkdən ibarətdir. İnsan kapitalı isə mənəvi-əxlaqi, etik və maddi rifah tərəflərinin sintezində formalaşan dəyər olaraq dərk edilir. Bu dəyər milli ideyanın müəyyən etdiyi fərdi və kollektiv varolmanın mənəvi, mədəni və maddi aspektlərinin hüdudlarında əyaniləşə bilir. Bu mənada da cəmiyyətdə davamlı olaraq aktuallaşır. Onun fəzilətliliklə sinonimliyi həmin məqamda özünü göstərir.

Məsələ onunla bağlıdır ki, yüksək rifahın qüdrətli dövlətlə vəhdətdə olması və bir-biri ilə ziddiyyət təşkil etməməsi üçün rifah hər şeydən öncə fəzilətlə sinonim olmalıdır. Bütövlükdə toplumun məqsədi insana, onun rahat və ümidli yaşamasına xidmət etməlidir. Dövlətin də qüdrəti müəyyən aspektdə bu faktorlarla sıx bağlıdır. XXI əsrdə dövlət o zaman qüdrətli olur ki, vətəndaşın dəyər və qiymətini yüksəkdə tutur.

Beləliklə, yüksək rifah və ya fəzilətli cəmiyyəti qurmaq siyasi liderin başlıca qurucu keyfiyyətlərindən birini təşkil edir. Yüksək rifah cəmiyyətini qurmaq üçün düzgün və nəticəverici strateji kurs yaradan lider XXI əsrdə güclü qurucu liderdir. Azərbaycan təcrübəsi göstərir ki, Prezident İlham Əliyev bu kontekstdə dünya üçün nümunə ola bilər.

Lakin XXI əsrdə liderin quruculuq kursu vurğulanan özəlliklərlə məhdudlaşmır. Bunun başlıca səbəbi müasir dövrün xüsusiyyətləri ilə bağlıdır. Politoloqların qənaətinə görə, indi liderin yalnız milli miqyasda fəaliyyəti onun lider kimi tam potensialını ifadə etmir. Bu o deməkdir ki, müasir şərtlər liderin milli, regional və qlobal miqyaslarda fəaliyyətinin qarşılıqlı nisbətində qiymətləndirilməsini tələb edir. Bu isə olduqca mürəkkəb şəraitdə uğurlu olmaq deməkdir. Dünya təcrübəsi göstərir ki, nadir siyasi şəxsiyyətlər həmin şərtlər kontekstində uğurlu qurucu lider ola bilirlər.

Milli miqyas

İndi liderlikdə fəaliyyətin milli və regional miqyası arasında nisbəti düzgün müəyyən etmək bir zərurətdir. Çünki qloballaşma dövlətləri elə yaxınlaşdırmışdır ki, onların mövcudluğu və inkişafı bir-biri ilə sıx bağlıdır. Bundan başqa, müasir geosiyasi təlimlərdə dünyanın daha unikal formada regionlaşdığını və reallıqda dövlətlər qrupundan söhbət getdiyini qəbul edirlər. Belə alınır ki, ayrıca götürülmüş və ya tam avtonom, regionun digər ölkələrindən təcrid olunmuş halda davamlı və dayanıqlı inkişaf mümkün deyildir. Bu reallıq hər bir dövlətin liderinin fəaliyyətini daha da aktuallaşdırır və əhəmiyyətli edir.

Lideroloji yanaşma aspektində nəzəri müstəvidə bunun anlamı liderliyin milli və regional faktorların qarşılıqlı təsiri və müəyyən nisbətlərində formalaşmasından ibarətdir. Milli miqyasda o zaman lider uğurlu hesab olunur ki, regional miqyasda da uğurlu olsun və əksinə. Ancaq hər iki miqyasın özünəməxsus uğurluluq kriteriyaları (və ya göstəriciləri) vardır.

Milli miqyasda quruculuq iqtisadi, sosial, mənəvi, mədəni, əxlaqi, etik və ideoloji istiqamətlərdə cəmiyyəti köklü yeniləşdirməyə nail olmaqla müəyyən olunur. Vurğulanan faktorların müsbət rol oynadığını müəyyən edən əsas amil isə davamlı inkişaf və cəmiyyətin bütövlüyünün təmin olunmasıdır. Cəmiyyətin bütövlüyü milli ideyanın düzgün məzmunlaşmasından çox asılıdır. Eyni zamanda, toplumun birlik modelinin əhəmiyyəti xeyli aktuallaşır. Deməli, milli miqyasda liderin uğurlu olması mürəkkəb xarakterli prosesdir və çox sayda faktordan asılıdır. Onların harmoniyası təmin edildikdə lideri qurucu adlandırmaq olar.

Regional miqyas

Regional miqyas daha mürəkkəb və çoxaspektli fəaliyyət tələb edir. Çünki artıq fəaliyyət bir ölkənin sərhədləri daxilində deyil, bir neçə dövlətlə münasibətlərin qurulmasının müxtəlif aspektlərini əhatə edir. Həm də həmin dövlətlərlə münasibətlərin yekun effekti milli miqyasda əldə edilən nailiyyətlərlə uzlaşmalıdır. Bu da liderlikdə milli miqyasdan regional miqyasa qurucu transformasiya sayəsində mümkündür.

Digər tərəfdən, milli miqyasda fəaliyyətin obyekti ilə regional miqyasdakı obyekt arasında ciddi fərqlər vardır. Milli səviyyədə lider dövlətin daxili idarəetmə institutları ilə işləyir və təsiri onlar vasitəsilə edir. Regional miqyasda isə bu vasitə keçərli deyildir. Orada dövlətlərin qarşılıqlı münasibətlərinin mahiyyətinə uyğun institutlarla işləmək lazım gəlir. O isə tamamilə fərqli yanaşma, enerji və məqsəd müəyyənliyi tələb edir.

Bəs regional miqyasda liderin quruculuq xəttini reallaşdıra bilməsi üçün əsas hansı institutlardan istifadə etmək lazım gəlir? Onlar regional miqyaslı təşkilatlardır. Əlbəttə, ayrıca dövlət oranları arasında da əlaqələr mövcud olur. Tarixən bu cəhətin əhəmiyyəti və rolu olmuşdur.

Məsələn. Azərbaycanla Gürcüstan arasında münasibətlərdə hər iki dövlətin rəsmi orqanlarının münasibət qurması ciddi əhəmiyyət daşımışdır. Eyni məntiqlə Azərbaycan-Rusiya, Azərbaycan–İran, Azərbaycan–Türkiyə və Azərbaycan–Ermənistan münasibətlərinə baxa bilərik. Bu ikitərəfli münasibətlərin xarakteri dövlətlərarası əlaqələrin məzmununa birbaşa təsir edir. Regional miqyasda bu özəlliyi nəzərə almaq lazım gəlir.

Ancaq regional geosiyasi mənzərə yalnız ikitərəfli əlaqələrin sintezi ilə tam müəyyən olunmur. Burada üçtərəfli, dördtərəfli və s. platformalar da aktuallaşır. Regiona vahid orqanizm kimi baxdıqda isə başqa platformalara da ehtiyacın yarandığı aydın görünür. Onlar isə iki istiqamətdə yarana bilər.

Birinci istiqamət region dövlətlərinin ümumi problemlərə görə qruplaşması və kollektiv fəaliyyət göstərməsi ilə bağlıdır. İkinci istiqamət isə region dövlətlərinin konkret istiqamətlər və problemlər üzrə qruplaşmasından ibarətdir.

Hər iki istiqamətin reallaşma üsulu regional təşkilatların yaradılmasıdır. Nümunə üçün deyək ki, "Qafqaz evi" ideyası region dövlətlərinin hər birini özündə birləşdirən vahid bir təşkilatın formalaşdırılmasını nəzərdə tutur. "3+3" formatı da ümumregion miqyasında sülh, əməkdaşlıq və təhlükəsizliyi təmin edən bir təşkilatın yaradılmasını nəzərdə tutur. Azərbaycan–Türkiyə–Gürcüstan platforması konkret təhlükəsizliyi əhatə edə bilər və ya yalnız enerji sferasına aid ola bilər.

Başqa nümunələr də gətirmək mümkündür. Lakin bütün hallarda liderin regional miqyasda quruculuğu regional təşkilatlardakı fəaliyyəti ilə sıx əlaqəlidir. Bu prizmadan Prezident İlham Əliyevin regional təşkilatlardakı fəaliyyətinə baxsaq, quruculuq aspektində nəzəri və praktiki əhəmiyyəti olan özəllikləri aydınlaşdıra bilərik.

(ardı var)

Füzuli QURBANOV,
XQ-nin analitiki,
fəlsəfə elmləri doktoru

"Zurabişvili hökumətin siyasətinə qarşıdırsa, istefa verməli idi"

Mixeil Kavelaşvili: "Dəyərlərindən və adət-ənənələrindən imtina edərək Gürcüstanın hər hansı bir təşkilata qoşulmasının mənası yoxdur"

(əvvəli 1-ci səhifədə)

Bunu yeni seçilmiş prezident Mixeil Kavelaşvili "İmedi" telekanalına müsahibəsində bildirib. Onun sözlərinə görə, son illər çıxışları ictimaiyyətə bir qədər sərt görünə bilərik, lakin bu, həmin dövrdə qarşıda duran tapşırıqlarla əlaqədar idi: "Niyə bəzi hallarda mən radikal və aqressiv olmuşam? Bütün bunlar ölkəmizin mənafeyinə və milli maraqlarımıza xidmət edirdi.

Səmimiyyət mənim təbii vəziyyətimdir və bunu dəyişə bilmirəm, lakin bundan sonra ölkəmin maraqlarını başqa yolla müdafiə edəcəyəm. İndi vətəndaşlarla, xüsusilə də eyni fikirdə olmadığım insanlarla birbaşa danışmaq imkanım var. Mənim marağım ondan ibarətdir ki, müzakirələrə yol tapım və hər iki tərəflə həqiqəti danışa bilim".

Kavelaşvili müsahibəsində deyib: "Dəyərlərindən və adət-ənənələrindən imtina edərək Gürcüstanın hər hansı bir təşkilata qoşulmasının mənası yoxdur. Əgər bizim dəyərlərimiz və xarakterimiz, mədəniyyətimiz, dilimiz, inancımız, vətəni müdafiəmiz olmasaydı, hansısa təşkilata qoşulmağın nə mənası olardı? Biz Avropa İttifaqına olduğumuz kimi üzv olmaq istəyirik, inteqrasiyadan imtina etmirik".

O, Gürcüstanın istənilən mövzuda müzakirəyə hazır olduğunu, lakin Qərbin müzakirə etmək istəyini hiss etmədiyini, yalnız tənqidlə məşğul olduğunu bildirib. Yeni seçilmiş prezident sələfi Salome Zurabişvili ilə bağlı da danışıb: "Zurabişvili hökumətin siyasətinə qarşıdırsa, istefa verməli idi. Gürcüstan Konstitusiyası prezidentə hökumətlə qarşıdurmaya getmək imkanı vermir".

Qərb Gürcüstanla müzakirələrə hazır olmadığını bir daha sübut etdi və Tbilisini sanksiya ilə hədələdi. Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas təsdiqləyib ki, Aİ Xarici Əlaqələr Şurası Gürcüstana qarşı sanksiyaların və vizasız rejimə məhdudiyyətlərin tətbiqini müzakirə edir: "Əlbəttə, hazırda Gürcüstanda müşahidə etdiyimiz bütün hadisələr Aİ-yə namizəd ölkənin hərəkət etməli olduğu istiqamətdə getmir. Biz Gürcüstan hökumətinin müxalifətə qarşı repressiyalarından və orada istifadə edilən bütün vasitələrin nəticələrini, Avropa tərəfdən nə edə biləcəyimizi müzairə edirik. Bir mövzu da təbii ki, sanksiyalar, eləcə də vizasız rejimin məhdudlaşdırılmasıdır".

Sanksiyalardan danışan Kaya Kallas bildirib ki, artıq konkret siyahı təklif olunub, müzakirələr davam edir və bütün ölkələrin razılığı lazımdır. Macarıstan fərdi sanksiyaları dəstəkləməyəcəyini bildirib. Gürcüstan Lüksemburqun simasında da gözlənilməz müttəfiq tapıb. Ölkənin Xarici İşlər Nazirliyinin rəhbəri Ksavye Bettel Aİ-nin Tbilisiyə qarşı düşünülməmiş sanksiyalar siyasətinə qarşı çıxış edib. İlk növbədə məhdudlaşdırıcı tədbirlərə haqq qazandıracaq səbəbləri tapmağa çağırıb. O, Gürcüstanda keçirilən son seçkilərin nəticələrininin saxtalaşdırıldığını qəbul etməyib. Bettel Aİ-nin mümkün sanksiyalarını "seçkilərə qarşı sanksiyalar" adlandırıb: "Seçkilərə qarşı sanksiyaların tətbiqindən qorxuram. Biz ilk növbədə qanun pozuntularının olub-olmadığına əmin olmalıyıq. Seçkilərdə yüzlərlə seçici iştirak edib. Sadəcə seçkinin nəticələrini bəyənməməyimiz o demək deyil ki, biz qalib partiyaya qarşı sanksiyalar tətbiq etməliyik".

Burdan da aydın olur ki, Aİ-də Gürcüstanın siyasi xadimlərinin siyahısı ilə bağlı heç bir konsensus yoxdur. Vizasız rejimin məhdudlaşdırılmasına gəlincə, bunun üçün Aİ-nin bütün ölkələrinin razılığı tələb olunmur. Bir neçə gün əvvəl məlum olub ki, Aİ diplomatik pasport sahibləri üçün vizasız gediş-gəlişi ləğv edə bilər.

Kallas prezident seçkiləri ilə bağlı sualı da cavablandırıb. Artıq bəzi avropalı siyasətçilər Gürcüstanın yeganə legitim prezidentinin Salome Zurabişvili olduğunu bəyan ediblər. "Biz prezident Salome Zurabişvilinin Gürcüstanı Avropa yoluna qaytarmaq istəyini tam dəstəkləyirik. Prezident seçkilərinə gəlincə, prezident (Zurabişvili) dekabrın 29-na kimi hakimiyyətdə olacaq və bu müddət ərzində çox şey baş verə bilər",– o deyib.

Göründüyü kimi, Aİ hər imkanda Gürcüstana qarşı dost olmayan münasibətini nümayiş etdirir. Bundan əvvəl isə Litva, Latviya və Estoniya Gürcüstanın hakim "Gürcü Arzusu–Demokratik Gürcüstan" partiyasının təsisçisi və fəxri sədri Bidzina İvanişviliyə, hökumət başçısına və 16 nümayəndəsinə qarşı sanksiyalar tətbiq ediblər. Litvanın xarici işlər naziri Kestutis Budrisin sözlərinə görə, Litva gürcü xalqını və onun Avropa arzusunu dəstəkləyir. Lakin o bildirib ki, Aİ səviyyəsində birgə fəaliyyətin vaxtı çatıb. Bundan sonra Tbilisinin sərt cavab verəcəyi gözlənilirdi. Lakin Gürcüstan hakimiyyəti Litva və Estoniyanın sanksiyaları ilə bağlı cavab tədbirləri görməmək qərarına gəlib: "Gürcüstan hökumətinin Litva və Estoniya hökumətlərinin bu anti-Gürcüstan qərarına qarşı çıxmaq hüququ və imkanı var. Lakin Litva və Estoniya xalqına hörmət edərək, belə bir addım atmağı məqsədəuyğun hesab etmirik".

Bildirilib ki, Gürcüstan hakimiyyətinin qərarı gürcü, eston və Litva xalqları arasında ənənəvi dostluğa xələl gətirməmək üçün hər iki dövlətlə birtərəfli dostluq rejimində qalmaqdır: "Hamıya məlumdur ki, Estoniya və Litva bu gün bütün Aİ-də ən az suverenliyə malik olan və hökumətləri öz xalqlarının mənafeyindən deyil, xarici administrasiyanın diktəsi ilə hərəkət edən dövlətlərdir...

Təəssüf ki, 33 illik müstəqillik tarixinə baxmayaraq, Litva və Estoniya hakimiyyətləri hələ də sovet təfəkküründən qurtula bilməyiblər".

Beləliklə, Qərb Gürcüstan iqtidarını tənqid edib, müxalifəti dəstəkləsə də, etiraz aksiyaları süquta doğru gedir. Müxalifət artıq etiraz aksiyalarına 2 min nəfər çıxara bilmir. Tezliklə parlamentin qarşısındakı küçədə də nümayişçilər qalmayacaq. Çünki hakim partiyanın kifayət qədər dəstəyi var.

P.ƏFƏNDİYEV
XQ

"Əsrin müqaviləsi"nin "mavi yanacaq" töhfəsi

AÇG-dən Azərbaycana indiyədək 57 milyard kubmetr səmt qazı təhvil verilib

(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, 1997-ci ilin noyabr ayında "Çıraq" yatağında hasilata başlanıldığı vaxtdan indiyədək AÇG yatağından, təxminən, 4,4 milyard barel neft hasil edilib. Gələcəkdə yeni texnologiyalara və qurğulara davamlı iri sərmayələr və layların neftvermə əmsalının maksimuma çatdırılması istiqamətində digər səylər nəticəsində dünya səviyyəli bu yataqdan hasilatın gələcək onilliklər ərzində də davam edəcəyi gözlənilir.

Hazırda "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda 7 hasilat və 2 emal, qaz-kompressor, suvurma və texnoloji platforma fəaliyyət göstərir. Həmin platformalardan neft və səmt qazı Bakı yaxınlığında yerləşən, dünyanın ən böyük neft və qaz terminallarından biri olan Səngəçal terminalına nəql edilir.

Xatırladaq ki, "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş 1994-cü il sentyabrın 20-də Bakıda imzalanıb. "Əsrin müqaviləsi" adlandırılan bu tarixi sazişin ilkin neft layihəsi çərçivəsində 1997-ci il noyabrın 7-də "Çıraq-1" platformasından hasilata başlanılıb. Ötən müddətdə AÇG yatağının işlənməsinə isə, təxminən, 45 milyard dollar investisiya qoyulub.

2017-ci il sentyabrın 14-də AÇG üzrə dəyişdirilmiş və yenidən işlənmiş hasilatın pay bölgüsü sazişi imzalanıb. Bununla da, "Əsrin müqaviləsi"nin müddəti 2049-cu ilin sonuna qədər uzadılıb. Bu ilin sentyabr ayında isə "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı sərbəst təbii qaz ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı ilə bağlı işləri sürətləndirmək məqsədilə AÇG üzrə mövcud hasilatın pay bölgüsü sazişinə yeni bir əlavə imzalanıb. Bu sənədə uyğun olaraq SOCAR və AÇG layihəsinin tərəfdaşları hazırda sərbəst təbii qaz laylarının işlənməsi üçün növbəti fəaliyyətləri planlaşdırırlar. Həmin işlərin bir hissəsi kimi iki prioritet laydan qaz hasil etmək məqsədilə "Qərbi Çıraq" platformasından ilkin quyu qazılır.

"BP-Azərbaycan" şirkətinin məlumatına görə, yeni quyu hasilat vasitəsilə müqavilə sahəsində qiymətləndirmə aparmağa imkan verəcək. Bu baxımdan xüsusi əhəmiyyət kəsb edən qiymətləndirmə quyusunun əsasında da gələcək işlənmə planlarının qurulması mümkün olacaq. Bu quyudan qaz hasilatına isə 2025-ci ildə başlanılacaq. Yeri gəlmişkən, mütəxəssislər AÇG yatağının sərbəst təbii qaz ehtiyatlarının 4 trilyon kub futadək olmasını ehtimal edirlər.

11 ayda 26 milyard kilovat-saat enerji

Operativ məlumatlara əsasən, 2024-cü ilin yanvar-noyabr aylarında Azərbaycanda 25 milyard 932,5 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub. Bu barədə Energetika Nazirliyi məlumat yayıb.

Bildirilib ki, hesabat dövründə istehsal olunmuş ümumi elektrik enerjisinin 22 milyard 351,9 milyon kilovat-saatı istilik, 2 milyard 780,9 milyon kilovat-saatı su elektrik stansiyalarının, 799,7 milyon kilovat-saatı isə digər mənbələrin payına düşüb. Cari ilin 11 ayında ölkənin günəş elektrik stansiyalarında 540,1 milyon kilovat-saat, külək elektrik stansiyalarında 48,6 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 211 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Bütövlükdə, yanvar-noyabr ayları ərzində "yaşıl" enerji mənbələri üzrə elektrik enerjisi istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyard 617,8 milyon kilovat-saat və ya 80 faizdən çox artaraq 3 milyard 580,6 milyon kilovat-saat təşkil edib.

Nazirliyin məlumatına görə, cari ilin 11 ayında "Azərenerji" ASC üzrə 22 milyard 908,1 elektrik enerjisi istehsal olunub. Bunun da 20 milyard 314,7 milyon kilovat-saatı isitlik, 2 milyard 593,4 milyon kilovat-saatı isə su elektrik stansiyalarının payına düşüb.

Yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti üzrə istilik elektrik stansiyalarında 227,7 milyon kilovat-saat, su elektrik stansiyalarında 169,5 milyon kilovat-saat, günəş elektrik stansiyasında 57,5 milyon kilovat-saat olmaqla, ümumilikdə, 454,7 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Hesabat dövründə "Azərişıq" ASC üzrə elektrik enerjisinin istehsalı isə külək elektrik stansiyalarında 36,8 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 2 milyard 532,9 milyon kilovat-saat təşkil edib.

2024-cü ilin 11 ayı ərzində istehsal olunmuş ümumi elektrik enerjisinin 1 milyard 255,3 milyon kilovat-saatı ixraca yönəldilib. Bununla yanaşı, hesabat dövründə ölkəmiz 159,8 milyon kilovat-saat elektrik enerjisi idxal edib.

2024-cü ilin noyabr ayında ölkə üzrə elektrik enerjisinin istehsalı isə 2 milyard 89,7 milyon kilovat-saat təşkil edib. Bu dövrdə elektrik enerjisinin ixracı 7,9 milyon kilovat-saat, idxalı isə 9,1 milyon kilovat-saat olub.

Elektromobillər onlayn sığortalanacaq

Azərbaycanda elektromobil sahiblərinin mülki məsuliyyət sığortasının onlayn qaydada rəsmiləşdirilməsinə başlanılıb. Bu barədə "İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı açıqlama yayıb.

Məlumata əsasən, qurum avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortalanmasının asanlaşdırılması və müştəri məmnunluğunun təmin edilməsi məqsədilə həyata keçirdiyi tədbirləri davam etdirir. Dekabrın 16-dan elektromobillərin avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının onlayn qaydada rəsmiləşdirilməsi tətbiq olunur.

Bu, Azərbaycanda nəqliyyat vasitələrinin sığortalanması sahəsində əhəmiyyətli bir yenilikdir. Belə ki, elektromobillərin onlayn icbari sığortalanmasının tətbiqi sürücülər üçün bir sıra üstünlüklər yaradır. Artıq elektromobil sahibləri avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortalanması növü üzrə şəhadətnamələrini sığorta şirkətlərinin rəsmi veb-səhifələri vasitəsilə onlayn şəkildə sürətli və asan əldə edə bilərlər. Sürücülər, "İcbari Sığorta Bürosu"nun rəsmi veb-səhifəsinə daxil olaraq burada təqdim olunan sığorta şirkətlərinin siyahısından seçim edə və seçdikləri şirkətin rəsmi səhifəsinə birbaşa keçid edərək elektromobilləri üçün onlayn sığorta müqaviləsini rəsmiləşdirə bilərlər.

Qurumdan verilən məlumata görə, elektronlaşma sahəsində həyata keçirilən islahat tədbirləri ölkəmizdə sığorta xidmətlərinin inkişafına, sığortalıların hüquqlarının qorunmasına və sığorta məhsullarına əlçatanlığın təmin olunmasına xidmət edir.

Xatırladaq ki, İcbari Sığorta Bürosu "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq zərərçəkən sığorta olunanların və zərər vurulan üçüncü şəxslərin hüquqlarının qorunması, icbari sığorta sisteminin sabitliyinin və davamlı inkişafının təmin edilməsi istiqamətində fəaliyyət göstərir

Neft Şirkəti İtaliya bankı ilə əməkdaşlıq yaradır

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) vitse-prezidenti Zaur Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti İtaliyanın Milan şəhərində səfərdə olub.

Səfər çərçivəsində "Intesa Sanpaolo" bankının və onun törəmə şirkəti olan "Vseobecna Uverova" bankının rəhbər heyətləri ilə səmərəli görüşlər keçirilib, əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi ilə bağlı müzakirələr aparılıb. Müzakirələrin nəticəsi olaraq COCAR və İtaliyanın "İntesa Sanpaolo" bankı arasında maliyyə vəsaitinin cəlb edilməsinə dair müqavilə imzalanıb.

Eyni zamanda, səfər çərçivəsində SOCAR-ın beynəlxalq maliyyə bazarında tədavüldə olan istiqrazları üzrə İtaliyadan olan mövcud və potensial investorlarla da görüşlər keçirilib. Görüşlərdə maliyyə bazarındakı son vəziyyət, SOCAR-ın maliyyə göstəriciləri, reytinqləri və "yaşıl" enerji sahəsindəki planları ilə bağlı geniş təqdimat edilib.

Azərbaycanın bərpaolunan enerji potensialı olduqca yüksəkdir. Prezident İlham Əliyevin çağırışına uyğun olaraq 2018-ci ildən başlayaraq bu sahədə genişmiqyaslı layihələrin icrasına başlanılıb. Artıq "yaşıl" enerji sahəsində fəaliyyət göstərən şirkətlərin sayı da artmaqdadır. Aparılan işlərin nəticəsidir ki, ölkədə "yaşıl" enerji istehsalının həcmində sürətli artım müşahidə olunur.

"Qaradağ" GES ölkəyə 500 milyon kilovat-saat enerji verib

Bu fikirləri "Masdar-Azərbaycan" şirkətinin direktoru Murad Sadıxov "Sıfıra doğru" şüarı ilə keçirilən Sənaye Təhlükəsizliyi Zirvəsində çıxışı zamanı deyib. Onun sözlərinə görə, Azərbaycan hökuməti bu günə qədər energetika haqqında qanun və torpaqların istifadəsinə dair qərarlarla yanaşı, digər sahələrdə də bərpaolunan enerji və təmiz enerji mənbələrinin potensialından istifadəni genişləndirmək məqsədilə bir sıra hüquqi islahatlar həyata keçirib.

2021-ci ildə imzalanmış ilk pilot layihə çərçivəsində tikilən 230 meqavatlıq "Qaradağ" Günəş Elektrik Stansiyasının fəaliyyətindən bəhs edən şirkət rəhbəri deyib ki, ötən il oktyabrın 26-da istismara verilmiş bu nəhəng istehsal müəssisəsindən indiyədək şəbəkəyə 500 milyon kilovat-saatdan artıq təmiz enerji ötürülüb. Onun sözlərinə görə, ötən müddətdə enerji istehsalı nəticəsində 130 milyon kubmetrdən artıq qazın istifadəsinə qənaət edilib, bununla da, 200 min tondan artıq karbon emissiyasının qarşısı alınıb. "Qaradağ" Günəş Elektrik Stansiyasının dövlət təminatı olmadan xarici investisiya hesabına icra edilən ilk layihə olduğunu xatırladan M. Sadıxov bunu Azərbaycanın investisiya cəlbediciliyini artıran mühüm nailiyyətlərdən biri kimi dəyərləndirib.

2022-ci ildə bərpaolunan enerji sahəsində daha iki böyük sazişin imzalandığını diqqətə çatdıran şirkət rəsmisi bildirib ki, həmin sənədlərə əsasən, quruda 1 giqavat gücündə günəş və 1 giqavat gücündə külək, dənizdə isə ilkin olaraq 2 giqavat, növbəti mərhələdə 4 giqavat gücündə külək enerjisi və hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi nəzərdə tutulur: "Bu məqsədlə COP29 çərçivəsində Energetika Nazirliyi və "AzərEnerji" Açıq Səhmdar Cəmiyyəti ilə müvafiq müqavilələr imzalanıb. Artıq 760 meqavat gücündə 2 günəş elektrik stansiyasının tikintisinə başlanılıb. 445 meqavatlıq Biləsuvar və 315 meqavatlıq Neftçala günəş elektrik stansiyalarının isə 2026-cı ilin ilk rübündə istifadəyə verilməsi planlaşdırılır. Bütün bu tədbirlər Azərbaycan hökumətinin bərpaolunan enerji sektorunun inkişafına verdiyi əhəmiyyətin göstəricisidir. Dövlət bu sahənin genişlənməsi üçün həm hüquqi bazanı təkmilləşdirib, həm də investisiyaların cəlb edilməsini təşviq edib. Bu addımlar Azərbaycanın təmiz enerji mənbələrindən səmərəli istifadə etməsi və regionda "yaşıl" enerji mərkəzinə çevrilməsi istiqamətində atılmış mühüm addımlardır".

Torpaqların təyinatının dəyişdirilməsi ilə bağlı müraciətlər elektronlaşdırılır

Ölkə ərazisində torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı müraciətlər bilavasitə Əmlak Məsələləri Dövlət Xidmətinə ediləcək. Bu barədə Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini Rüstəm Şahbazov məlumat verib.

Bu müraciətlərə baxılması prosesinin "vahid pəncərə" prinsipi əsasında elektron qaydada həyata keçiriləcəyini diqqətə çatdıran rəis müavininin sözlərinə görə, yeni qaydalar 2025-ci ilin yanvarın 1-dən qüvvəyə minəcək. O deyib ki, dövlət orqanları tərəfindən torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi ilə bağlı müraciətlərə rəy verilməsi prosesi Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə həyata keçiriləcək: "Bu halda, aidiyyəti dövlət orqanları 10 iş günü müddətində rəylərini elektron qaydada bildirməlidirlər. Göstərilən müddətdə rəylər təqdim edilmədikdə, torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi aidiyyəti dövlət orqanı ilə razılaşdırılmış hesab olunacaq".

Torpaq Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər barədə isə bildirilib ki, bu, kənd təsərrüfatı məhsullarının emalı sənayesinin inkişafı aqrar sektorda biznes mühitinin daha da yaxşılaşdırılmasına xidmət edir. Qanunun müəyyən etdiyi yeniliklərə əsasən, kənd təsərrüfatı təyinatlı torpaqlarda yalnız kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün nəzərdə tutulmuş, habelə işçilərin müvəqqəti yaşaması məqsədləri üçün yaşayış təyinatlı əsaslı tikililər inşa edilə və quraşdırıla bilər. Bu tikililər sahəsi 5 hektardan az olmayan və vahid sərhəd daxilində yerləşən kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin 1 faizinədək hissəsində tikilə bilər. Bu halda yay və qış otlaqları, ümumi istifadədə olan örüş sahələri istisna təşkil edir.

Kənd təsərrüfatı təyinatlı torpaqlarda tikinti-quraşdırma işləri Dövlət Şəhərsalma və Arxitektura Komitəsini və yerli icra hakimiyyəti orqanlarını məlumatlandırılmaqla aparılacaq. Tikinti işlərinin aparılmasına dair tələblər isə müvafiq qanunla müəyyən edilib. İstixanalar və suvarma infrastrukturlarının inşası və quraşdırılması zamanı 5 hektara və 1 faizə dair məhdudiyyətlər tətbiq edilmir.

Yeniliklərdən biri də torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi məsələləridir. Belə ki, yay və qış otlaqları, örüş və biçənəklər istisna olmaqla, mülkiyyətçilər öz torpaqlarının məqsədli təyinatını kateqoriya daxilində dəyişmək imkanı əldə edirlər. Əkin və çoxillik əkmələrin altında olan kənd təsərrüfatı yerlərinin bir-biri arasında məqsədli təyinatının dəyişdirilməsi torpaq sahələrinin mülkiyyətçiləri və ya icarəçiləri, həmçinin istifadəçiləri tərəfindən həyata keçirilir.

Səhifəni hazırladılar:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ

Dünyaya ədalət çağırışı

Qərbi Azərbaycan İcmasının II beynəlxalq konfransı haqqında qeydlər

Ölkəmizin paytaxtında 5-6 dekabr tarixlərində "Qayıdış hüququ, Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təşviqi" mövzusunda keçirilən ikinci beynəlxalq konfrans artıq tarixdir.

Qeyd edək ki, bu tədbir 2023-cü ilin dekabrında Bakıda keçirilmiş "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə ləyaqətlə geri qayıdışını təmin etmək: qlobal kontekst və ədalətli həll" adlı konfransın davamı idi. Qərbi Azərbaycan İcmasının (QAİ) təşkilatçılığı ilə baş tutan və artıq ənənəyə çevrilən hər iki tədbir Prezident İlham Əliyevin ümumazərbaycançılıq konsepsiyasından qidalanıb. Bu konsepsiya Prezidentin 2022-ci il dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən bir qrup icma üzvü önündəki çıxışında yer tapan tezislərdə qarşıya qoyulan hədəflərə beynəlxalq hüquq çərçivəsində çatmağın yollarını göstərir. Dövlətimizin başçısı Qərbi Azərbaycan İcmasının inzibati binasını nəzərdə tutaraq deyib: "Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Bu konsepsiyada soydaşlarımızın ölüm qorxusu altında, ağlagəlməz vəhşiliklər fonunda çıxarıldıqları doğma torpaqlarına ləyaqətli şəkildə qayıtmaq imkanlarının mövcudluğunu xatırladan məqamlar əsas yer tutur. Konsepsiyanın qidalandığı hüquqi və mənəvi köklər isə müasir Azərbaycan dövlətinin qurulduğu məqamlarda, ötən əsrin 90-cı illərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı dövlət sənədlərində açıq-aşkar görünür. Belə sənədlərin birində – 18 dekabr 1997-ci ildə imzalanan "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanın preambulasında xalqımızın yaşadığı ağrılar bu cür ümumiləşdirilirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

Daha sonra SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarlar ilə Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktının törədildiyi qeyd olunur və ümumən insanlığa qarşı törədilən cinayətlər siyahısında yer alan bu əməldən xalqımızın bir hissəsinə vurulan zərbələrə diqqət cəlb edilir. Bütün bunlardan sonra 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktının ötən 50 il ərzində lazımınca araşdırılmaması, hadisələrə hüquqi-siyasi qiymət verilməməsi, xalqımıza qarşı törədilən cinayətin iştirakçıları ilə bərabər, o cinayət əməlinə hərəkətsizlik göstərənlərin mənəvi məsuliyyəti vurğulanır. Bunlardan sonra soydaşlarımızın keçmiş Ermənistan SSR ərazisində tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə Prezident Heydər Əliyevin sədr olduğu Dövlət Komissiyası yaradıldı. Qeyd etməyi zəruri sayırıq ki, Qərbi Azərbaycan barədə akademik informasiya bazasının yaradılması, həmin ərazilərin kulturoloji qatlarının elmi-tədqiqata cəlb edilməsi, mövzu aktuallığının kütləvi informasiya vasitələrinin diqqətində saxlanılması məhz o zamanlardan sistemli şəkil almağa başladı. Bu istiqamətdə fəaliyyətin nümunəsi kimi AzTV-nin populyar "Fakt" verilişinin ölkəmizdə və onun sərhədlərindən kənarda necə səbirsizliklə gözlənildiyi indi də çoxlarının xatirindədir. Azərbaycan və Türkiyə elmi ictimaiyyətinin məşhur nümayəndələri – akademik Budaq Budaqov, Türkiyə Dil və Tarix Qurumunun sədri, professor Rəşad Gənc, görkəmli dilçi-alim, Əməkdar elm xadimi, professor Həsən Mirzəyev, tarix elmləri doktoru, professor Rəhim Əliyev, Qərbi Azərbaycanda nəşr edilən "Sovet Ermənistanı" qəzetinin sonuncu baş redaktoru İsrafil Məmmədov və onlarla cəfakeş araşdırmaçının təqdimatında Ermənistan SSR-də dövlət siyasətinə çevrilən erməni millətçiliyinin başlıca hədəfi– "Azərbaycanlılarsız

Ermənistan" ideologiyasının əsl mahiyyəti ortaya qoyuldu.

Prezident İlham Əliyevin hakimiyyəti dövründə isə Qərbi Azərbaycandan silah gücünə çıxarılan soydaşlarımızın gələcək taleyi ilə bağlı məsələ ölkəmizin 20 faizindən çoxunun Ermənistan silahlı qüvvələrinin işğalında olduğu, ölkə vətəndaşlarının 1 milyona yaxın əhalisi məcburi köçkün həyatı yaşadığı vaxtlarda da ikinci dərəcəli məsələyə çevrilmədi. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət siyasətinə çevrilən iradəsi idi. Məhz həmin iradənin nəticəsi idi ki, Ali Baş Komandanın qətiyyəti və "Dəmir yumruğu", Azərbaycan Silahlı Qüvvələrinin Vətən

sevgisi ilə çuğlaşan peşəkarlığı və rəşadəti sayəsində 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən 2 il sonra, dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən bir qrup icma üzvü önündəki çıxışında yer tapan tezislərdə qarşıya qoyulan hədəflərə beynəlxalq hüquq çərçivəsində çatmağın yollarını göstərdi. Əlbəttə, bu yol heç də kimlərinsə dilə gətirdiyi kimi, "beynəlxalq normalarla bugünkü Ermənistan Respublikasının qəbul edilən ərazilərinə" ölkəmizin torpaq iddiası olaraq qəbul edilməməlidir. Məhz QAİ-nin inzibati binasındakı çıxışında Prezident İlham Əliyev bu haqlar kontekstində çıxış edərək İcmanın perspektiv vəzifələrindən birini belə xatırlatdı: "Qərbi azərbaycanlıların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi, bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq".

Qərbi Azərbaycan İcmasının üzvlərinə, ümumilikdə, qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıtmasınadək hər zaman aktual olmalı məsələdə bütün azərbaycanlılara səfərbərlik çağırışı kimi səslənən bu fikrində cənab Prezident xalqımızı hüquqi-mənəvi varislər olaraq vahid məqsəd uğrunda birləşməyə səsləyirdi. Bu çağırışı səsləndirən amillər isə kifayət qədərdir və o amillərdən bir neçəsini xatırlatmaq istərdik. Ancaq azərbaycanlılar deyil, Cənubi Qafqazın etnik coğrafiyası ilə maraqlanan hər kəs, hətta bu gün 29 min 743 kvadrat kilometrlik ərazi ilə beynəlxalq hüququn subyekti sayılan Ermənistan Respublikasında yaşayan ermənilərin də mütləq əksəriyyəti bu ərazilərin etnik azərbaycanlıların tarixi vətəni olduğunu bilir. Onlar onu da bilirlər ki, yaxın son 100 ilə, bu torpaqlarda bolşevik Rusiyasının iradəsi ilə sovet Ermənistanı elan olunana qədər adıçəkilən ərazidəki 17 mahalın istisnasız olaraq hamısı türkdilli toponimlərdən ibarət idi. Maraqlı olan isə budur ki, 100 ildə "ermənilərin əzəli torpaqları" elan olunan bu arealda bircə dənə də ermənidilli toponimlə ifadə olunan ərazi adı ilə rastlaşmaq mümkün deyil. Qərbi Azərbaycanda günümüzə qədər, hətta, Ermənistan Respublikasında yerli əhalinin nəzərəçarpan hissəsinin istənilən söhbətində regionların adlarının Abaran, Ağbaba, Dərəçiçək, Dərələyəz, Gərnibasar, Göyçə, Karbi, Qaraqoyunlu, Qırxbulaq, Loru, Pəmbək, Sərdarabad, Şörəyel, Talın, Vedibasar, Zəngəzur, Zəngibasar mahalları kimi çəkildiyi heç kimə sirr deyil.

Erməni "alimlərinin" Rusiya imperatorunun 1828-ci ilin martından İrəvan xanlığının bazasında Erməni vilayəti yaradılması haqqında fərmanından sonra, XIX əsrin 2-ci yarısından başladıqları canfəşanlıqları – "yeni erməni tarixi yaratmaq prosesində daşları ağladan cəhdləri" nəinki həmin vaxtlar, bu günümüzdə də ciddi alimlərdə acı təbəssüm yaradır. Söhbət, coğrafi adlara – bəşəriyyətin mənəvi mədəniyyətinin ən qiymətli abidələrinə kobud müdaxilədən, onların yaralanmasından gedir. Həmin abidələr nəsildən-nəslə ötürülən, minilliklər boyu xalqın keçdiyi yollarda buraxdığı izlərin yaddaşını qoruyur. Ermənistan Respublikasında türkdilli toponimlərin istifadəsini də o yaddaş qaçılmaz edir və elmin təsdiq etdiyi kimi, onu pozmaq, demək olar ki, praktik olaraq heç kimə nəsib olmur.

Qərbi Azərbaycan İcmasının təşkil etdiyi 28 ölkədən 44 nümayəndənin iştirakı ilə paytaxt Bakıda 2023-cü il dekabrın 5-də keçirilən ilk beynəlxalq konfrans bu həqiqəti bir daha təsdiq etdi. Adıçəkilən konfransın 5 dekabr tarixinə salınması Qərbi Azərbaycandan soydaşlarımızın sonuncu nəfərinin çıxarıldığı gündür və həmin gün Deportasiya Günü kimi yaşanan faciələrin rəmzidir.

Bakıda keçirilən II beynəlxalq konfrans isə 5 dekabr 2024-cü ildə 51-dən çox dövlətdən 200-dən çox nümayəndənin iştirakı ilə işinə başladı. Konfransın panel iclaslarında "Ermənistandan zorla çıxarılmış azərbaycanlıların geri qayıtmaq hüququnun tarixi və hüquqi əsaslarına baxış", "Münaqişələrdən təsirlənən regionlarda barışıq və sülh quruculuğu səyləri", "Beynəlxalq vəkillik və diplomatiyanın rolu", "Ədalət, insan təhlükəsizliyi və əmlakın geri qaytarılması", "Mədəni irsin qorunması və bərpası" mövzuları ətrafında aparılan müzakirələr mühüm sənədlərin qəbulu ilə başa çatdı.

Konfransın ilk gününün bağlanış mərasimində çıxış edən Avrasiya Araşdırmaları Mərkəzinin aparıcı tədqiqatçısı Jakub Voytsex Koreyba bildirib ki, dünyanı yaşamaq üçün daha yaxşı məkana çevirmək lazımdır. İnsanların yaşadıqları ərazidən zorla qovulması heç bir halda qəbul edilməməlidir. Qayıdış haqqı beynəlxalq hüquqda təsbit edilib. Məhz ona görə də biz bu haqqı bərqərar etmək üçün müvafiq hüquqi alətlər yaratmışıq.

Konfrasda deportasiyanın insan hüquqlarının ən ciddi pozuntularından birinin, azərbaycanlıların Ermənistandan məcburi köçürülməsinin hələ də həll olunmamış böyük bir ədalətsizlik olduğu, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt, Pinheiro Prinsipləri və beynəlxalq adət hüququnun qayıdış üçün əsas verdiyi bir daha xatırladıldı və Beynəlxalq Cinayət Məhkəməsi prokurorunun, Ermənistanın azərbaycanlıların qayıdışına imkan verməməklə beynəlxalq hüquq və Roma Statutu çərçivəsində üzərinə götürdüyü öhdəlikləri pozmasını araşdırmağa çağırışlar səsləndirildi.

"Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransa təbrik məktubunda Prezident İlham Əliyev Azərbaycan hökumətinin bu istiqamətdə fəaliyyət göstərdiyini yada salıb, İcma üzvlərinin işini müsbət qiymətləndirib: "Qərbi Azərbaycan İcması üzvlərinin doğma torpaqlara qayıdış hüququnu təmin etmək məqsədilə beynəlxalq hüquqa uyğun dinc təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi olduqca əhəmiyyətlidir. Uğurla həyata keçirilən Qayıdış Konsepsiyasına əsaslanan bu təşəbbüslər Qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına geri dönməsinə böyük töhfələr verəcəkdir".

Mahirə HÜSEYNOVA,
ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, professor

Türkiyənin İzmir şəhərində Qərbi Azərbaycan İcmasının (QAİ) Türkiyə ofisinin açılış mərasimi olub. Türkiyənin dövlət rəsmilərinin, vilayət rəhbərliyinin, ziyalıların və İzmirdə yaşayan azərbaycanlıların iştirakı ilə təşkil olunan mərasimdə Ümummilli lider Heydər Əliyevin xatirəsi ehtiramla yad edilib.

Qərbi Azərbaycan İcmasının Türkiyədə fəaliyyəti genişlənir

Açılış mərasimində çıxış edən Qərbi Azərbaycan İcmasının Türkiyə təmsilçisi Asif Qurban bu ofisin QAİ-nin Azərbaycandan kənarda açılan ilk ofislərindən olduğunu bildirib və Türkiyədə sayı təxminən 1,5 milyon nəfər olan Qərbi Azərbaycan əsilli şəxsləri ətrafında birləşdirmək, qərbi azərbaycanlıların tarixi vətənlərinə qanunauyğun qayıdış hüququnu təşviq etmək məqsədi

daşıdığını qeyd edib. QAİ-nin Türkiyə təmsilçisi yeni yaradılan ofisin qarşısında duran vəzifələr, həyata keçirilməsi nəzərdə tutulan akademik konfranslar, simpoziumlar və digər fəaliyyət istiqamətləri barədə məlumat verib.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov mərasimdə çıxış edərək XIX əsrdə çar Rusiyası tərəfindən Azərbaycana qarşı aparılan demoqrafiyanın dəyişdirilməsi siyasəti haqqında geniş məlumat verib, bunun davamında XX əsrdə Ermənistanın məqsədyönlü siyasəti ilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın doğma yurdlarından didərgin salındığını bildirib. Səfir bir sıra dövlətlərin Azərbaycana qarşı siyasətində önə çıxan ikili standartlara diqqət çəkərək, Qərbi azərbaycanlıların dədə-baba yurdlarına qayıtması hüququna etinasız yanaşmanın yolverilməz olduğunu qeyd edib. O, ümidvar olduğunu bildirib ki, Ümummilli lider Heydər Əliyevin anım günü kimi önəmli bir tarixdə açılışı həyata keçirilən QAİ-nin Türkiyə təmsilçiliyi Azərbaycan həqiqətlərinin Türkiyə ictimaiyyətinə çatdırılmasında fəal rol oynayacaq. Səfir yeni yaranan mərkəzə fəaliyyətində uğurlar arzulayaraq Azərbaycan tarixinə işıq tutan kitabları hədiyyə edib.

Qeyd edək ki, QAİ-nin Türkiyə təmsilçisi, əslən Qərbi Azərbaycanın Hamamlı mahalının Saral kəndindən olan Asif Qurban 31 ildir ki, İzmirdə yaşayır və bir çox qeyri-hökumət təşkilatlarına rəhbərlik edib.

Nümayəndəliyin fəaliyyət istiqamətləri arasında Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında ictimaiyyəti məlumatlandırmaq, ardıcıl şəkildə Qərbi Azərbaycandan deportasiya olunan 300 mindən çox soydaşımızın beynəlxalq səviyyədə haqq və hüquqlarının bərpa olunması istiqamətində beynəlxalq təşkilatlarla işi gücləndirmək kimi məsələlər yer alır.

XQ

Dəhşət saçan xatirələr

1988-ci ilin noyabr və dekabr aylarında azərbaycanlılara qarşı aparılan təzyiqlər və zorakılıqların həcmi daha da artmışdı. Bu dövrdə Ermənistanın rəhbərləri azərbaycanlılara canlarını qurtarmaq üçün Azərbaycana köçmələrini təklif edirdilər. Bu məqsədlə avtobuslar təşkil olunmuşdu. Lakin bu təklifin, əslində, bir tələ olduğu sonradan başa düşüldü.

Erməni sürücüləri tərəfindən idarə edilən avtobuslar əhalini qurtarmaq və xilasetmə adı ilə kənddən çıxarıb birbaşa başkəsən "saqqallılar"ın yanına aparıb qırdırırdılar. Qaçan və sağ qalan bir çox insanlar qarlı dağ cığırlarında Azərbaycana sığınmağa çalışırdılar. Təəssüf ki, bu faciəli hadisələr nəticəsində 229 nəfər həyatını itirdi. 12 nəfər diri-diri yandırılmış, bir çoxları isə ağır işgəncələrdən sonra qətlə yetirilmişdi.

O zaman 250 min nəfərə yaxın azərbaycanlının taleyinə biganəlik göstərilirdi və bunun qəsdən edildiyini heç kəs ağlına belə gətirmir, hökumətin zəifliyi kimi qələmə verməyə çalışırdılar. Ancag sonrakı hadisələr göstərdi ki, bunlar sonuncu sovet diktatoru Qorbaçovun ermənipərəst siyasətinin nəticəsi imiş.

Deportasiya dövründə yerli sakinlərin ifadələri də heç bir ölçüyə sığmayan erməni vəhşiliklərini əyani şəkildə sübut edir.

Bir qədər öndə, Kəlbəcər dağlarına çathaçatda on-on beş adamın toplaşdığını gördük. Oraya tərəf yaxınlaşanda dedilər ki, cavan bir gəlin uşağa yata bilməyib, indicə canını tapşırdı. Sağ olsun igid oğlanlarımız belə bir vəziyyətdə həmin gəlinin meyitini Kəlbəcərə çatdırdılar.

Əlini-ayağını soyuq alanlar saysız-hesabsız idilər. Onlardan bir qismi az bir vaxtda həmin dərdlə dünyasını dəyişdi.

Amma bu ölüm-itimlər və vəhşiliklər sırasında gördüyüm başqa bir səhnə də unudulası deyil. Sarıyaqubdan olan bir oğlan arxasına vurduğu bağlamanı göz bəbəyi kimi qoruya-qoruya gedirdi. Daha çox ehtiyatlı hərəkət etdiyindən ürəyimdə onu "qorxaqlıqda" qınadım. Sonra da düşündüm ki, yəqin pulları-paraları var, ona görə ehtiyatlanır. Oğlan, deyəsən, mənim ona qarşı ürəyimdən keçənləri sezmişdi. Üzümə baxmadan, yoluna davam edə-edə dedi:

Basarkeçər rayonunun Qoşabulaq kəndinin müəllimi Əli Zeynalabdın oğlunun dediklərindən:

– Göyçənin nağıllı-dastanlı dünyası bizi başqa kökdə kökləmiş, başqa ruhda cilalamışdı. Hər şeydə şeir-sənət ölçüsü axtarır, nağıllı bir aləmlə ovuşurduq. Öz dünyamıza qapılıb rahat yaşadığımız bir zamanda "erməni barmağı" dünyanı bir-birinə çalxaladı. Hər gün kəndlərə silahlı basqınların təşkili daha camaatı canından da usandırmışdı.

Nə qədər bu vəziyyətə dözmək olardı... Artıq on ay olardı ki, amansız erməni təcavüzünə məruz qalan azərbaycanlılar əldən-ayaqdan düşmüşdülər. Əliyalın, silahlı düşmənlə üz-üzə durmaq, eyni zamanda müqavimət göstərildiyi təqdirdə cinayət məsuliyyəti daşımaq camaatı mənəvi cəhətdən sarsıtmışdı. Getdikcə ürək xəstəliyindən ölənlərin sayı artırdı. Bir sözlə, mənəvi genosid azərbaycanlıları bütövlükdə bürümüşdü.

Növbəti hücumlardan birində on yaşlı Rüxsarə özünü evə güclə çatdırdı. "Ay ana, ermənilər gəldi" – deyib hönkürtü ilə ağlamağa başladı. Bağrı yarılmaq dərəcəsinə çatırdı. Onu heç cürə ovundura bilmirdik. Su da içirə bilmədik, dişləri kilidlənmişdi. Heç yana əlimiz çatmadı. Bu məsum körpə gözümüzün qabağındaca çıraq sönən kimi söndü. Məni sarsıdan təkcə Rüxsarə balamın ölümümü oldu? Bala dərdi dözülməz dərd olsa da, aman Allah, daha dəhşətli, daha zülmlü ölümlər gördüm. Gözümün önündə Azərbaycana dağlarla aşan adamların faciəsi canlanır. Mən bu dərdi ömrüm boyu unuda bilməyəcəyəm!

– Mən Sarıyaqubdanam. Nəsibin oğluyam. Mənim arxamdakı əmanətin beş yüz il yaşı var. Miskin Abdalın sənədləri və əşyalarıdır. Şah İsmayıl Xətainin ona verdiyi möhürlü sənəd də bu bağlamadadır. Çalışıram ki, babamın nişanələrini Azərbaycana çatdırım.

Basarkeçər rayonunun Zərzebil kənd sakini Şəfiqə Zeynalova isə amansız zorakılığı belə xatırlamışdı:

– Səkkiz uşağımla birlikdə dağlarla Kəlbəcərə tərəf üz tutmalı olduq. Qardan-borandan göz-gözü görmürdü. Tez-tez cığırı itirir, uçuruma yuvarlanırdıq. Beş yaşlı kiçik uşağımı kürəyimdə apardığımdan və qoca qaynanama tez-tez kömək əli uzatdığımdan on yaşlı Fəxrəndə elə bil unudulmuşdu.

O, addımbaşı yıxılıb-qalxır, getdikcə gücdən düşürdü. Ondan böyük uşaqlarım isə özlərini birtəhər apara bilirdilər. Nəhayət, belə bir çətin şəraitdə, gözlərim görə-görə körpə qızımı, Fəxrəndəmi itirdim.

... Ermənilərin vəhşiliyinə dair faktlar bir deyil, beş deyil. Elə bir kənd, elə bir oba olmayıb ki, erməni təcavüzü ondan yan ötmüş olsun... Dərələrdə, yamaclarda donub qalan insanları, qoca və uşaqları görmək, onlara kömək edə bilməmək bəlkə də bu faciələrin kuliminasiyası idi. Hələ demirik ki, doğma anasının qolları arasında boranda donub can verən körpəni, ölmüş qardaşının ayağını, oğlunun başını qoltuğuna vurub dəli-divanə olmuş ana və bacıların harayına isə yetişənlər olmadı.

Səhifəni hazırladı:
Namiq QƏDİMOĞLU

O, Azərbaycan müstəqillik mübarizələri və istiqlal düşüncəsinin salnaməçilərindən idi. Unudulmaz alimimiz Şirməmməd Hüseynov millətinin cümhuriyyət quruculuğu tarixi, bu şərəfli və çətin yolda keçdiyi aşırımlar, yetirdiyi qəhrəman şəxsiyyətlər, onların doğurduğu irsi ilk qaynaqlardan öyərənərək bunları yeni nəsillərə çatdırmaq fəaliyyətlərinə gənclik illərində, o arxivlərin qapalı, bu mövzuların yasaq olduğu çağlarda başladı, həmin nəcib işi ömrünün son günlərinədək eyni qaynar həvəs və sevgi, yüksək peşəkarlıqla davam etdirdi.

Şirməmməd Hüseynov örnəyi

Rfi a l HÜSEYNOV,
Milli Məclisin sədr müavini, AMEA-nın həqiqi üzvü

Onun fikridir və bu dördcə kəlmə sözdə həm dərin təvazö, həm çağırış, həm xəbərdarlıq, həm arxayınlıq, əminlik, həm də bir az qınaq var.

"Maraqlananlar üçün faydasız olmaz".

Bu sözləri professor Şirməmməd Hüseynov bir əsrə çatan ömrünün axırlarında, artıq hər kəs tərəfindən canlı klassik kimi qəbul edildiyi çağlarda, millətin şərəf tarixi ilə bağlı apardığı qiymətli araşdırmalardan ibarət məqalələr toplusunu ictimaiyyətə təqdim edərkən lap başda yazırdı.

Və həmin dördcə kəlmə Şirməmməd Hüseynovun hər yazısına, hər tərtib etdiyi topluya, hər hazırladığı kitaba, hər doğurduğu əsərə, hər etdiyi çıxışa, hər apardığı mühazirəyə yığcam önsöz, "bismillah" biçimli bir başlanğıc kimi qavranıla bilər.

Aqil adam idi, yaxşı anlayırdı ki, qəzet səhifələrindən, cild-cild kitablar vasitəsilə xalqa təqdim etdiyi qiymətli yazıların hamı tərəfindən oxunmasına, bilinməsinə ehtiyac varsa da, daha artıq kürəsəlləşdikcə daha çox dəyişən, rəqəmsallaşdıqca kitabı, çap yazılarını mütaliə etmək istəyi tədricən daha ziyadə azalan dünyanın çox yerində olduğu kimi, bizdə də camaatın oxumaq səbri də, şövqü də sönükləşib.

Amma o, inadla öz işini görürdü.

Köhnə əlifbalarda əl çətin çatan arxivlərdə qalan yazıları qaldırır, indi işlək olan əlifbamıza köçürür, oxuyacaq kəslərin anlamasını asanlaşdırmaqdan ötrü ayrı-ayrı dövriyyədən çıxmış və başa düşülməsi əngəlli ola biləcək kəlmələrin lüğətini də əlavə edir və təqaüdündən bu məqsədlə ayırdığı vəsaitin üstündən müəyyən məbləği götürərək bu qəbil yazılarını əlyazmadan oxuyub çap edən kompüterçiyə taksi ilə göndərirdi.

Ertəsi gün oradan yenə həmin yolla qayıdan yazını bu dəfə yenə təzədən oxuyub təshih edəndən sonra taksi haqqını ödəyərək yollayırdı redaksiyalara.

Savabına da heç kəsi şərik etmək istəmirdi.

Bir dəfə təklif etdim ki, sürücümü göndərim, gəlib həmin aparıb-gətirmə əməliyyatlarında yardımçınız olsun.

Stalin dövrünün təmiz kommunistlərinin ifrat prinsipiallığı ilə etiraz etdi: "Bəs birdən bu yazıları apardığı zaman sənin idarənin həmin sürücü tərəfindən görülməli işləri necə olsun?"

Yalnız gərgin alim əməyi ilə deyil, həm də ağır fəhlə zəhməti ilə araya-ərsəyə gələn bu yazıları 10 adamdan birinin oxuyub-oxumayacağına şəkki olsa da, usanmadan, bezmədən çalışırdı.

Çünki həm də bu işlərin əhəmiyyətinə inanırdı, həm də əmindi ki, gec-tez mütləq bu yazıları oxuyub həzm edənlər artacaq, həm də bilirdi ki, özü indi bu işləri yerinə yetirməsə, bir ayrısının onlara vaxt və ürək sərf edəcəyi ehtimalı zəifdir.

İşləyirdi və nəticəni xalqa təqdim etməzdən öncə xəbərdarlığını da yaddan çıxarmırdı ki, bunlarda fayda var!

Qarşına qoyulan məhsulda xeyir olduğunu sənə bəyan edirlərsə, yəqin ki, sən də maraq göstərməli, ona doğru can atmalısan.

Amma bu müdrik kişi dərk edirdi ki, maraqlanmaya da bilərlər, biganə qalanlar da olacaq. Ona görə də bir az eyhamla (bunu yazanda gözümün önündə istər-istəməz Şirməmməd müəllimin kinayəqarışıq xeyirxah təbəssümlə işıqlanan çöhrəsi canlanır) deyirdi ki, əziyyətə qatlaşıb, heç olmazsa, öz faydanız üçün bu irsə maraq göstərin. Adətən, ata balası üçün belə canıyananlıq edir.

Adətən, valideyn balalarından hansının hansı ağıl səviyyəsinə, hansı qabiliyyətə malik olmasından asılı olmayaraq, hər birinin bilməli olduqlarını öyrənməsinə bu sayaq nəvazişlə, qayğıkeşliklə yanaşır.

Şirməmməd müəllimin yaşı elə həddə idi ki, tay-tuşlarının, simsarlarının, ürək dostlarının əksəri getmişdi.

Bu yazılar onunçün həm də daim özü qəbildən olan məsləkdaşlarla təmas qurmaq fürsəti idi.

Səninlə bir masa arxasında oturub mülahizə, sevinc, dərd, arzu, ümid bölüşən müasirlər tükənibsə, gərək Həsən bəy Zərdabi ilə, Məhəmməd Əmin Rəsulzadə ilə, Üzeyir Hacıbəyli ilə, Əlimərdan bəy Topçubaşı ilə, Əhməd bəy Ağayevlə... həmsöhbət olasan. Özün həmsöhbət ol, yüngülləş, bu feyz digərlərinə də nəsib olsun deyə onların köhnə, fəqət köhnəlməz sözlərini bugündəkilərə və sabahdakılara da çatdır.

Professor Şirməmməd Hüseynov bu amalın, bu əxlaqın yiyəsi, bu idealın daşıyıcısı idi!

Azərbaycan tarixinin elə hadisələri var ki, onları biz hər zaman anmalı, onlar barəsində müdam minnətdarlıqla düşünməliyik.

XX yüzilin başlanğıcındakı Azərbaycan tarixində iki oxşar səhnə yaşanıb ki, ikisinin də əvvəlində göz yaşı dayanır.

1918-ci il may ayının 28-də Tiflisdə sabiq Qafqaz canişinliyinin iqamətgahında Həsən bəy Ağayev Azərbaycanın İstiqlal Bəyannaməsini elan edirdi.

O, İstiqlal Bəyannaməsinin mətnini oxuyurdu, müstəqil dövlətimizin yarandığını elan edirdi və həmin yığıncağın protokolunda o qəbil sənədlər üçün çox da səciyyəvi olmayan qeydlər də əksini tapıb ki, Həsən bəy Ağayev ağlayırdı, Xəlil bəy Xasməmmədov ağlayırdı, Nəsib bəy Yusifbəyli ağlayırdı, Xudadat bəy Məlikaslanov ağlayırdı...

O insanlar ki, bu istiqlalı elan edirdilər, onlar bu möhtəşəm anların fövqəladə mənasını, millət tarixindəki yerinin ali siqlətini bütövlüyü ilə anlayırdılar, bunun bir millət üçün nə qədər müstəsna bəxtiyarlıq olduğunu dərk edirdilər, ona görə kövrəlirdilər. Və 1920-ci il aprel ayının 27-si Azərbaycan parlamentinin – Məclis-i Məbusanının son iclası. Məhəmməd Əmin Rəsulzadə söz alaraq iclasın başlanğıcında deyir ki, biz bu yığıncağımızı qapalı keçirməyək. Açaq qapıları, millət gəlsin və görsün ki, taleyimizdə nə baş verir. Millətin müqəddəratı həll olunur və insanlarımız bundan bixəbər qalmamalıdır.

Məhəmməd Əmin Rəsulzadə qəlb ağrısı ilə belə deyirdi. Çünki Azərbaycanın müstəqilliyi əldən gedirdi, hakimiyyət, istiqlal bolşeviklərə təslim edilirdi.

Bu sənəddə də belə protokollar üçün heç də xas olmayan belə bir cümlə var. Mötərizədə yazılıb ki, "Azərbaycan" qəzetinin baş redaktoru Şəfi bəy Rüstəmbəyli ağlayır.

O əvvəlki göz yaşı – Həsən bəy Ağayevgilin 1918-ci ilin mayındakı göz yaşı – fərəhin, böyük səadətin, iftixarın gətirdiyi göz yaşı idi, ikinci göz yaşı müdhiş faciənin, millətin tarixində dərin yaralar açan bir acının doğurduğu göz yaşı.

Və bu millət heç vaxt nə birinci, nə ikinci göz yaşlarını unuda bilər.

Yaxşı millət olmağın yolu yaddaşdan, yurdun taleyi, müqəddəratı ilə bağlı həlledici anları və şəxsiyyətləri unutmamaqdan keçir. Ömrü boyu, xüsusən də təzədən qayıtmış istiqlalımızın açdığı meydan sayəsində 1990-cı illərin lap əvvəllərindən başlayaraq daha güclü şəkildə Şirməmməd müəllim bu şərəfli tarixin salnaməsini millətimizə təqdim etmək missiyasını özünə şərəf borcu seçdi.

Daş daşımaq zəhmətlərin ən ağırı, fəhlə işlərinin ən çox güc istəyənlərindəndir.

Amma adi daşı daşımağa nə var! Daş yükünü çəkməyə nə xüsusi hərarəti, ilhamı, sevgisi olan bir ürək gərəkdir, nə yüksək peşəkar qabiliyyətlər, ağıl, istedad.

Bütün bunlarsız da hər kəs yaxşı-yaman daş daşımaq imkanındadır.

Vətənin daşını daşıya bilmək isə ağırlardan-ağır əməkdir və burada ortabab, alababat söhbətinə yer yoxdur. Millət naminə nə edirsənsə, ali səviyyəli olmalıdır.

Vətənin daşını çiyində yox, ürəkdə daşıyarlar!

Vətənin daşını çəkə bilməkçün ilk növbədə böyük hərflərlə VƏTƏNDAŞ olmağın vacibdir.

Üstəlik, ürəyində gərək xalqına sonsuz sevgi daim nəbz kimi vura, qan kimi damarlarında axa. Millətə və torpağa sədaqət, fədakarlıq, dözüm, ardıcıllıq, təpər, görəcəyin işlərin böyüklüyü və kiçikliyindən asılı olmayaraq, bir saniyə belə səngiməyən məsuliyyət, cavabdehlik hissi, üstəlik də əməlinin bəhrələrinin hər kəsin qəlbinə yata bilməsindən ötrü bilik, zövq, şövq, qaynar həvəs, yorulmazlıq və yüksəkdən-yüksək peşəkarlıq.

Şirməmməd Hüseynovun kitablarının bir qisminin sadəcə, adlarını sadalamaq onların hər birinin (və qovuşaraq hamısının) milli sərvət olduğunu anlamağa bəs edər: "Milli haqq və ədalət axtarışında" (Bakı, "Adiloğlu", 2004), "Mətbu irsimizdən səhifələr" (Bakı, "Çənlibel", 2007), "Publisistik miras və müasirlik" (Bakı, "Elm", 2007), "Müstəqilliyin çətin yolu... Reallıqlar, düşüncələr" (Bakı, "Elm", 2009), "Üzeyir Hacıbəylu. Nəşrlərdə kənarda qoyulmuş mətbu əsərləri" (İki cilddə, Bakı, "Elm", 2009, 2010), "Məhəmmədəmin Rəsulzadə. Əsərləri" (Beş cilddə, Bakı, "Təhsil", 2014), "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" (Üç cilddə, Bakı, "Qanun", 2012, 2015, 2016, 2017)...

Şirməmməd Hüseynov bu qəbil kitabları xalqınkı, millətinki etməklə məşğul idi.

Gözdən iraq düşənləri təzədən qaytarırdı, yazılmalı olanları yazırdı.

Bu kitabların hər birinin yaranması ictimai-siyasi həyatımızda, düşüncə mühitimizdə necə qarşılanmasından asılı olmayaraq, millət tarixinin çox önəmli hadisələri idi.

Hər bir istedadlı insan, hər bir güclü yaradıcı ömür möhləti boyu hansısa şah əsərini yaradır. Bu onun gənclik illərində də baş verə bilər, ahıllığında da, ixtiyar sinnində də.

Zəka, ilham sahibinin yaradıcılıq yolu uzun da çəkə, onun şah əsərinin ortaya çıxması həyatının erkən çağına da, yolun ortasına da təsadüf edə bilər, yaxud arzulanan şah əsərin ömrün sonlarına doğru, təcrübələrin yekunu kimi meydana gəlməsi də mümkündür.

Şirməmməd müəllim şərəfli ömür yaşadı, çox layiqli bir alim, xoşbəxt bir müəllim həyatı sürdü və indi onun yetirmələri, tələbələri Azərbaycan boyuncadır.

Şirməmməd müəllim örnək sayılası ailə başçısı ömrü yaşadı, Azərbaycana çox dəyərli balalar bağışladı.

Və ilk gəncliyindən əli qələmli oldu, durmadan işlədi, məqalələr, dissertasiyalar, kitablar yazdı.

Valideynə balalarından hansını daha çox istədiyini söyləmək necə cavabsız qədər çətin sualdırsa, yaradıcı adama da hansı əsərinin daha üstün olduğunu müəyyənləşdirmək bir o qədər qəliz məsələdir.

Şirməmməd müəllimin isə, mənim zənnimcə, ömrünün şah əsəri kitablı "Parlament hesabatları"dır.

Hərçənd, Şirməmməd müəllimin doğurduğu və sanbalına, çəkisinə, dəyərinə görə elə bu üçcildliyə bərabər sadaladığım və adını çəkmədiyim digər kitabları da var, amma bu üçcildliyin sanbalı, məna yükü, mahiyyəti büsbütün başqadır.

Uzaq 1918-1920-ci illərdə "Azərbaycan" qəzetində dərc edilmiş parlament hesabatlarını günümüzə çatdıran cildlər sırası qiymətəsığmaz salnamədir.

Azərbaycanın tarixində iki əvəzsiz əsər var ki, tariximizdən bəhs edərkən, salnaməçiliyimizdən söz düşəndə hər zaman onları hökmən xatırlamaq zərurəti yaranır.

XIII yüzildə Fəzlullah Rəşidəddin Təbrizdə Rəşidiyyə mədrəsəsini qurdu, ilk universitet təhsilimizin təməlini qoydu və "Cami ət-təvarix" adlı elmi əsaslara dayanan ilk misilsiz salnaməmizi yaratdı.

Bu "Tarixlər toplusu"ndan sonra çoxlu oxşar salnamələr, tarixi məcmuələr yaranıb, fəqət bir örnək olaraq bütün orta əsrlər içərisində ən uca mərtəbədə qərar tutan zirvə əsər "Cami ət-təvarix"dir.

Və XIX yüzildə Abbasqulu Ağa Bakıxanov "Gülüstan-i İrəm"i qələmə aldı.

Bu da salnamə idi, amma artıq həm də bir peşəkar tarixçi alimin əsəri idi ki, incə təhlillər, müxtəlif mənbələri tutuşdurmaq əsasında elmi tarixçiliyin yeni dövrdə şəkillənən bir sıra ümdə xüsusiyyətləri nəzərə alınaraq ərsəyə gətirilmişdi.

Bu iki əsər arasındakı altı əsrlik zaman kəsiyində, həmin iki kitabdan bir az əvvəli və bir qədər sonranı da nəzərə alsaq, 7-8 əsrlik iri tarix parçası ərzində çox salnamələr yaranıb. Amma bu iki müəllifin adı və əsəri, düşünürəm ki, hər zaman üstün tutularaq yaşayacaq və sayğılarla yad ediləcək.

Artıq bizim dövrdə – XX əsrdə və XXI yüzilin ilk onillərində Şirməmməd Hüseynov və Qulam Məmmədli salnaməçiliyin yeni tipini yaratmaq hünəri ilə ziyalı mühitimizi heyrətləndirə bildilər.

Onlar salnaməçiliyin Azərbaycanda buçağacan ortada olmayan nümunəsini ortaya qoydular.

Qulam Məmmədli Azərbaycan teatrının salnaməsini vücuda gətirdi, "günbəgün" adlandıra biləcək janr xəlq elədi, Hüseyn Cavidin, Abbas Mirzə Şərifzadənin, Hüseyn Ərəblinskinin, Cahangir Zeynalovun, Nəriman Nərimanovun, Mirzə Cəlilin, Üzeyir bəy Hacıbəylinin ömür yollarını əks etdirən tayı-bərabəri olmayan qiymətli salnamələr yaratdı və salnaməçiliyin tamam yeni çeşidi və tərzini Azərbaycan xalqına bəxş etdi.

İlk Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı, adı vətənimizin adı ilə eyni olan "Azərbaycan" qəzeti bəlli idi, ictimai-siyasi gerçəkliyimizdə, mətbuat tarixində izini qoyub getmişdi.

Dövlət müstəqilliyimizin bərpasından az sonra, 1998-ci ildə ilk Azərbaycan parlamentinin iclaslarının stenoqramları çapa hazırlanaraq nəşr edildi. Sanki boşluq doldurulmuşdu, onillərcə hətta arxivlərdə belə gizli saxlanmış, yalnız xüsusi hallarda və məxsusi icazə ilə istifadəsinə icazə verilmiş bu mətnlər hamınınkılaşmışdı.

Lakin nə yaxşı ki, müdrik alim və mətbuatşünas Şirməmməd Hüseynov həmin dövrə bir də nəzər salmağı vacib hesab etdi.

Onun təqdimatındakı "Azərbaycan" qəzetində dərc edilən parlament hesabatları və bu hesabatlarla bağlı yazılar, onların qovuşmasından törəyən üç sanballı cild xüsusi hadisə – məlumdan yaranan büsbütün yeni naməlum idi.

O mənada ki, bu nə "Azərbaycan" qəzetində Xalq Cümhuriyyəti dövründə buraxılmış qəzetdə çıxmış protokolların sadəcə əski əlifbadan latın qrafikasına köçürülməsi idi, nə də 1998-ci ildəki kimi, bəlli protokolların cüzi redaktə ilə nəşri.

Şirməmməd müəllim ömrü boyu topladığı təcrübə və biliklərə qəlbindəki coşqun millət və yurd sevgisini də artıraraq arxada qalmış şanlı, keşməkeşli, qəmli və nigaran tarixi, əslində, yenidən canlandırdı.

Bişkin alim usta qələmi ilə bəlli protokolları zəruri izah və şərhlər, yeri düşdükcə sözə söykək duran əlavə materiallarla zənginləşdirdi.

Buradaca bir-iki önəmli cəhətə diqqət yönəltməyə lüzum var.

Əvvələn, "Azərbaycan" qəzetinin nəşrindən 9 onillikdən də artıq böyük zaman sovuşmuşdu, yeni nəsillər o nüsxələrdən bixəbər idi.

İkincisi isə, həmin nüsxələrlə indi kitabxanalarda, arxivlərdə açıq istifadə imkanı varsa da, yeni nəsillərçün əlifba maneəsi, ərəb-fars tərkiblərinin yaratdığı müşküllər bəlli idi.

1998-ci ildə buraxılmış parlament protokolları isə xeyli şəkildə tələsik hazırlanmışdı, yanlışlar, kobud xətalarla ləbələb idi və heç bir tutarlı şərh və izahla müşayiət edilmirdi.

Şirməmməd Hüseynov – bu müstəsna alimimiz, bu cəfakeş müəllimimiz, bu təpədən-dırnağa işıq olan ziyalımız üçcildlik əsərini zahirən qısa bir zaman içərisində hazırladı.

Həmin yazıları kitablaşdıraraq xalqa təqdim edənəcən ard-arda mətbuatda dərc də elətdirdi və bu minvalla cildlərin yaranma gedişatını müşahidə etmək hər birimizə nəsib olub. Amma bilənlər bilir ki, bu kitabları hazırlamaq üçün Şirməmməd müəllim 50 illik yol gəlmişdi.

Ömrü uzunu bu barədə düşünmüşdü, ömrü boyu bu hadisələri və adları içərisində yaşatmışdı. Və öz etirafı idi ki, ilk gənclik illərindən, Moskvadakı aspirantura dövründən, orada məxfi arxivlərdə işlədiyi çağlardan, bu qəbil materialları nəinki üzə çıxarmağa, hətta oxumağa belə yasaq qoyulduğu zamanlardan gizli ümid və inamla tariximizin bu dövrü ilə əlaqədar materialları toplayırmış, qeydlərini edirmiş, haçansa belə işlərin də vaxtı yetişəcəyi, kilidli qapısının açılacağı arzusu və intizarı ilə təhlillərini aparırmış.

50 ildən artıq müddətdə qəlbdə bəslənmiş, kimsəyə görünməmiş, Şirməmməd müəllimin yazı masasının gözündə qalmış həmin ilkin hazırlıq yazıları XXI yüzildə "Azərbaycan" qəzetindəki parlament hesabatlarına qovuşaraq Ustadın xeyirxah və xilaskar əlləri ilə bizə qayıtdı.

Onlar mürəkkəbdən-mürəkkəb tarix dönəmində Azərbaycan istiqlalını elan edib 23 ay yaşayacaq müstəqil dövlətimizi qurmasaydılar, sonra 70 il ömür sürəcək Sovet İttifaqının içərisində də Azərbaycan Respublikası olmayacaqdı və SSRİ dağılarkən, 15 dırnaqarası müstəqil respublika artıq elə gerçək mənada müstəqil dövlətə çevriləndə biz o sırada olmayacaqdıq.

1991-ci ilin 18 oktyabrında biz dövlət müstəqilliyimizi yenidən elan edə bildiksə, səbəbkar o KİŞİlərdir!

Müstəqilliyin hər bəhrəsindən hər cür bəhrələnənlərə lap aydın olsun deyə bir daha təkrar edirəm: Sovet İttifaqı dağılanda onun içərisindən bizim müstəqil dövlət kimi çıxmaq imkanımız ona görə oldu ki, daha əvvəl cümhuriyyətimiz vardı, cümhuriyyətimizdən sonra Sovet İttifaqı içərisində Azərbaycan Respublikası vardı. Sovetin Konstitusiyası isə sözdə, yalandan da olsa, hər halda Əsas Qanununda məhz respublikalara İttifaqdan çıxmaq ixtiyarını rəsmən verirdi.

Bu gün müstəqil dövlətimiz varsa, buna görə biz o qurucu insanlara hər açılan səhərimizlə, müstəqil yaşadığımız hər yeni günümüzlə, başlanan hər yeni azad, asılılıqdan qurtulmuş sabahımızla borcluyuq.

O üçcildliyin (və Şirməmməd müəllimin bütün fəaliyyətlərinin) bünövrəsində, nüvəsində dayanan ən birinci amil eşqdir.

Qurucu babalarımızın öz yoluna, əqidəsinə, xəttinə sonsuz inamı, imanı və sevgisi, eləcə də Şirməmməd Hüseynovun Azərbaycan tarixinə, Azərbaycan millətinə, istiqlalımıza olan məhəbbəti, o nadir şəxsiyyətlərimizin ruhuna olan sədaqəti, ehtiramı, etibarı!

Məhəbbət yoxsa, dəryaca ağlın olsa da, əlindən çıxan bəhrənin işığı çatmaz, rəngləri solğun alınar, təqdim etdiyin məhsulla ürəklərə qığılcım ötürə bilməzsən.

Üzeyir bəyin sonrakı nəşrlərdə qırağa qoyulmuş mətbu əsərlərinin birləşdiyi cildlər də, Məhəmməd Əmin Rəsulzadənin qələm və düşüncə yadigarlarından ibarət Şirməmməd Hüseynov "Xəmsə"si də, söz yox, son dərəcə dəyərli və sanballı mətnşünaslıq nümunələridir.

Lakin parlament hesabatlarını əhatə edən üçcildlik bənzəri olmayan mətnşünaslıq abidəsidir.

Nəyə görə mətnşünaslıq abidəsi?

Mətnşünaslıq elmi iynə ucu ilə qaya çapmaq kimi gərgin əmək, alın təri tələb edən ciddi tədqiqat sahəsidir.

Təəssüflər olsun ki, artıq bu istiqamətin yaşamalı olan bir çox ənənələrini itirmişik, ya itirməkdəyik.

Azərbaycanda 1950-60-70-ci illərdə Əbdülkərim Əlizadə, Məmmədağa Sultanov, Tahir Məhərrəmov, Əbülfəz Rəhimov, Nəsrəddin Qarayev, Əziz Mirəhmədov, Turan Həsənzadə, Nəsrəddin Qarayev və bir sıra başqaları cox mükəmməl mətnşünaslıq məktəbi yaratmışdılar. Təəssüf ki, o insanlar getdilər, həmin ötkəm mətnşünaslıq məktəbi, o məktəbin iş üsulları, vərdişləri də korşalmağa, gündəlik təcrübədən qeyb olmağa başaldı.

1990-cı illərin ortalarında mən Məclis-i Məbusanımızın – ilk parlamentimizin birinci rəhbəri Həsən bəy Ağayevin ömür yolunu araşdırırdım. Əslində, milli parlamentimizin ilk sədri Əlimərdan bəy Topçubaşov idi. Lakin Əlimərdan bəy Topçubaşov əvvəlcə İstanbulda ezamiyyətdə idi, sonra isə Paris Sülh Konfransında iştirak etmək üçün Fransaya getdi və iki dəfə parlament sədri seçilsə də, bir gün belə həmin kürsüdə əyləşmədi, məclisi Həsən bəy idarə etdi.

Əlimərdan bəyin parlamentin sədri olaraq xaricdəki fəaliyyətlərinin başlıca hədəfi ondan ibarət idi ki, Azərbaycan dövlətinin başçısı kimi rəsmi statusa və səlahiyyətlərə malik olsun, Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə rəsmən tanınmasını təmin etmək üçün orada danışıqlar aparsın.

Həsən bəy Ağayevin faciəli ömür yolunu araşdıraraq məsləkinə candan bağlı bu millət fədaisi haqqında "Yaxşıların yaxşısı" adlı kitabımı yazarkən əski parlament materiallarını da qaldırmalı olurdum.

O zaman həmin protokollar nəşr edilməmişdi – hələ 1990-cı illərin başlanğıcı idi.

Parlament iclaslarının əlyazmalarını oxuduqca qürur hissi keçirirdim.

Hər vərəqin arxasında tarix durur. Yəni hətta mətninə nüfuz etməzdən əvvəl bu kağızların, xətlərin özü belə ayrıca tarixdir axı!

Təsəvvür edin, stenoqramları kimlər tərtib edir, kimlər qələmə alırmış – onlardan biri hələ xeyli gənc olan, az sonra Azərbaycanın ən parlaq ədibi kimi şöhrətlənəcək Cəfər Cabbarlı idi.

Di gəl, protokollarla tanış oduqca, stenoqramların əlyazmalarını oxuduqca görürdüm ki, hətta Cəfər Cabbarlı kimi bilgin, danışanların buraxdığı müəyyən üslubi səhvləri də yeri düşdükcə əlüstü islah edən stenoqrafistin – tezyazarın da əlindən çıxmış vərəqlərdə yanlışlıqlar az deyil.

Təbii, bu, ilk növbədə vaxt qıtlığı, tələskənlikdən yaranmış qüsurlar idi.

Müstəqilliyimizin bərpasından 7 il keçərkən həmin sənədlər Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi üzrə Dövlət Komissiyası və Baş Arxiv İdarəsi tərəfindən 5 kitabda nəşr edildi ki, onların 2 cildi parlament hesabatları idi.

1998-ci il nəşrinə materialları əlyazmalardan Bakı Dövlət Universitetinin müəllimi, cümhuriyyət tariximizə, bir vaxtlar dərs aldığı Cavidə, Müşfiqə coşqun məhəbbətlər bəsləyən Səfər İbrahimov hazırlamışdı.

Onun əsas işi mətnləri ərəb əlifbasından kirilə köçürmək olmuşdu. Lakin Səfər müəllim sadəcə ərəb əlifbasını bilirdi, klassik ədəbiyyata və üsluba az-çox bələd idi, amma tarixçi, mətnşünas deyildi.

Doğrudur, əslən Cənubdan olan və orta əsrlər tarixi üzrə yaxşı mütəxəssis sayılan professor Seyidağa Onullahi də redaktor kimi bu işə cəlb edilmişdi. Amma oxuduqca və orijinallarla tutuşdurduqca görürsən ki, həmin stenoqramlarda nə qədər kobud qüsurlar var.

Ehtimal yaranır ki, hətta həmin materialların çoxunu heç Seyidağa Onullahi görməyib. Çünki nəşrdə elə səhvlərə təsadüf edilir ki, bunlar heç vəchlə Seyidağa müəllimin nəzərindən qaça bilməzdi.

Bəs o stenoqramlarla "Azərbaycan" qəzetində dərc edilən hesabatların fərqi nədədir?

"Azərbaycan" qəzetində dərc edilən parlament hesabatlarının mənası və dəyəri büsbütün başqadır. Bunlar hamısı Məhəmməd Əmin və Üzeyir bəylərin redaktə süzgəcindən keçərək dərc olunub. Yəni onlar, məlum stenoqramlardan fərqli olaraq, ağızdan çıxan hər sözü əks etdirməyiblər, yalnız ictimai məna kəsb edənləri saxlayıblar, müəyyən ixtisarlar aparıblar, bəzi parçaların məzmununu veriblər.

Və Şirməmməd Hüseynovun məharəti, materiallara yetərincə hündürdən, gen miqyasda, panoramda baxa bilməsinin nəticəsi bundan ibarətdir ki, o, qəzetdə dərc edilən ayrı-ayrı iclaslar barədə hesabatları verir, amma bunun yanında bəzən əvvəldə, hərdən sonda həmin mətləblərə dayaq duran, elə o qəzetdəcə yer almış başqa yazıları da gətirirdi.

Qəfildən qarşımıza bu məsələlər və mətləblərlə həmahəng gələn, heç parlamentdə olmayan Fərhad Ağazadənin məqaləsi çıxır və sanki həqiqətlərə əlavə bir pəncərə taybatay açılır.

Ya Məhəmməd Əmin Rəsulzadənin özünün, yaxud Üzeyir bəy Hacıbəylinin parlament divarları arasında səslənməmiş, müstəqil məqalə kimi işıq üzü görmüş yazıları parlament hesabatları kontekstinə qovuşur, həmin andaca mətnin ahəngi, ritmi dəyişir, yeni məna qatları ortaya çıxır, xeyli qaranlıq suallara aydınlıq gəlir.

Bunları edə bilməkçünsə, bu kompozisiyanı qura bilməkdən ötrü isə gərək o dövrün hadisələrinə, həmin dövrün ayrı-ayrı şəxsiyyətlərinin əqidəsinə, qələminə, düşüncə tərzinə dərindən vaqif olasan.

Şirməmməd Hüseynov kimi!

Bu yazılar silsiləsinin göstərdiyi parlament mənzərəsi, istiqlal uğrunda gedən mübarizəmizin gerçəkçi və dolğun fonu, ayrıca vurğulayıram ki, yalnız və yalnız Şirməmməd Hüseynov kimi həmin tarix kəsiyindən incəlikləri ilə agah olan müstəsna bələdçinin əməkləri ilə yaradıla bilərdi.

Hər halda bu gün həmin işi o cür səriştə və vurğunluqla yerinə yetirə biləcək ikinci şəxsi mən tanımıram.

Şirməmməd müəllimin "Parlament hesabatları"nın cildlərini vərəq-vərəq çevirdikcə hadisələri yalnız oxumuruq, dinləmirik, həm də bütün əyaniliyi ilə görürük.

Hesabatları ibtidasından son səhifəsinəcən mütaliə edəndə belə qənaətə gəlirsən ki, bu, nəhəng bir film kimidir, bir epopeya timsallıdır və oxuya-oxuya olmuşları sanki ilk kadrından son kadrınacan seyr edirsən.

Bu kitab həm də bir ülgüdür. 3 cild olsa da, onları bir bütöv sayaraq "kitablar" yox, sadəcə "kitab" deyirəm.

Birincisi, bu kitab bir daha əyan edir, nəşrindən bir əsr keçəndən sonra da ülgü göstərir ki, yaxşı qəzet nədir.

XX əsrin əvvəlindəki "Azərbaycan" qəzetinin nümunəsi işarə edir ki, millətin ola biləcək yaxşı qəzeti necə çıxarmaq lazımdır ki, üstündən zamanlar keçəndən sonra da salnamə sayılsın, tarixin bərpa olunması üçün mənbəyə çevrilsin, saralıb-solsa da, mahiyyətcə nimdaşlaşmasın, boyatlaşmasın, yeni zamanla da ünsiyyətə girə bilsin.

Və həmin qoca "Azərbaycan" indikilərə bunu da pıçıldayır ki, nəşr olunmaq üçün istənilən məqaləni yazanda fərqində olmalısan, çək-çevir etməlisən ki, 50 il ötəcək, mənim haqqımda bu yazıya görə nə deyəcəklər, 100 il sovuşacaq, mənə bu yazıma görə necə qiymət verəcəklər.

Qələmi götürəndə, qəzet-jurnal buraxanda bir an belə vaxtı yetişincə hər suala cavab tələb edən tarix qarşısında məsuliyyətini unutmamalısan!

Kim bilir, bəlkə də o qüdrətli şəxsiyyətlər o zaman bütün bunlar barədə fikrə dalıblar?!

Məhəmməd Əmin Rəsulzadə də, Üzeyir bəy Hacıbəyli də, Şəfi bəy Rüstəmbəyli də, Ceyhun bəy Hacıbəyli də, ola bilsin, bu barədə ən azı təhtəlşüur düşünüblər, ona görə o təhər köhnəlməz, dəyərini itirməz qəzet yaradıblar. Həmin səbəbdəndir ki, "Azərbaycan" qəzetinin səhifələri vətən işığı ilə, millət atəşi ilə doludur.

Vətən işığı, millət atəşi elə əziz Şirməmməd müəllimin də bütün varlığında olduğundandır ki, bu cür mükəmməl bir əsəri ortaya çıxarmağa müvəffəq olub.

Bu cildləri yaratmaq əsnasında Şirməmməd Hüseynov dünənin dumanlarında əriyib-itmiş, bugünün insanlarına pünhan qalan bir sıra adları da aşkarlayıb, onlara təzədən həyat bağışlayıb.

Universitetə gedərək əsgərlərinə təlimini verirdi – gələcəyin jurnalisti olacaq tələbələrinə dərsini deyirdi, qayıdıb gəlib səngərinə – yazı masasının arxasına keçir, silahını – qələmini götürür və başlayırdı itirdiklərimizi qaytarmağa, qazandıqlarımızı daha yaxşı qoruya bilməkçün yollar göstərməyə, istiqlal salnaməmizi bir az da bütövləşdirməkçün yeni mübarizələrinə.

Şirməmməd Hüseynov nümunəsi bu millətin ruhuna keşik çəkmək, varlığını sağlam saxlamaq, yeni sınaqlardan mərdanəliklə keçirməkçün taleyin və tarixin Azərbaycana misilsiz ərməğanıdır.

AMEA-da beynəlxalq elmi konfrans

Dekabrın 16-da Azərbaycan Milli Elmlər Akademiyasında "Asiya xalqları ədəbiyyatı: ənənələr və müasir tendensiyalar" mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə keçirilən konfransda AMEA Rəyasət Heyətinin üzvləri, Türkiyə, Pakistan, Çin, Hindistan, Cənubi Koreya, Vyetnam, Özbəkistan, Qazaxıstan və başqa ölkələrdən gəlmiş tanınmış alimlər, ədəbiyyat, mədəniyyət və elm xadimləri, KİV nümayəndələri iştirak ediblər.

Tədbirdə giriş nitqi ilə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli konfransın uzun zaman diqqətdən kənarda qalmış Asiya ölkələri ədəbiyyatı ilə bağlı Bakıda keçirilən ilk beynəlxalq elmi konfrans kimi tarixi əhəmiyyət daşıdığını bildirib. Keçmiş sovetlər birliyi dönəmində Qərb ölkələrinin ədəbiyyatı, mədəniyyəti və siyasətinin daha çox öyrənildiyini deyən akademik İsa Həbibbəyli bildirib ki, həmin dövrdə ictimai fikirdə bir Asiya boşluğu yaranmışdı. O, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizdə Asiya ölkələri ilə bağlı silsilə tədqiqatların aparıldığını diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli bu məqsədlə AMEA-da Asiya ədəbiyyatını öyrənən ayrıca şöbənin yaradıldığını, Ədəbiyyat İnstitutunda Çin Mərkəzi, Pakistan Ədəbiyyatı Mərkəzi, Mehmet Akif Ərsoy Mərkəzi, Əlişir Nəvai adına Ədəbiyyatşünaslıq Mərkəzi, eləcə də Məhtimqulu Fəraqi Türkmən Ədəbiyyatı Mərkəzinin fəaliyyətə başladığını söyləyib.

Ədəbiyyat İnstitutunda Dünya ədəbiyyatı və komparativistika şöbəsinin də fəaliyyət göstərdiyini söyləyən AMEA rəhbəri sözügedən şöbədə Qərb, Avropa və Amerika ədəbiyyatları ilə bağlı tədqiqatların aparıldığını diqqətə çatdırıb. Bundan başqa, o, Ədəbiyyat İnstitutunda Türk xalqları ədəbiyyatı və Şərqşünaslıq İnstitutunda Mərkəzi Asiya ölkələri şöbələrinin fəaliyyət göstərdiyini qeyd edib.

AMEA rəhbəri yaxın günlərdə UNESCO-nun mənzil-qərargahında Türk dünyasının ən qiymətli kitablarından biri olan Mahmud Kaşğarinin məşhur "Divanü lüğat-it-türk" əsərinin 950 illiyi çərçivəsində AMEA tərəfindən üç cilddə Azərbaycan dilində çap olunmuş sözügedən kitabın təqdimatının keçirildiyini xatırladıb. Onun sözlərinə görə, "Divanü lüğat-it-türk" əsərinin UNESCO-da təqdimatı Asiya ədəbiyyatının UNESCO zirvəsinə qaldırılması deməkdir. Bu, həmçinin UNESCO zirvəsindən AMEA nəşrinin təqdimatı kimi böyük əhəmiyyətə malikdir.

Daha sonra Asiya Elmlər Akademiyası və Cəmiyyətləri Assosiasiyasının prezidenti professor Əhməd Nuri Yurdusev, Pakistan Ədəbiyyat Akademiyasının prezidenti professor Najeeba Arif, Çin Sosial Elmlər Akademiyasının Ədəbiyyat Tədqiqatları İnstitutunun direktor əvəzi professor Lu Yusong, Vyetnam Hanoy Universitetinin əməkdaşı Nguyen Van Çien, Özbəkistanın Fərqanə Dövlət Universitetinin Ədəbiyyatşünaslıq kafedrasının müdiri professor Mənzurə Jurayeva, Qazaxıstanın Abay adına Qazax Milli Pedaqoji Universitetinin əməkdaşı Janakul Sametova, Hindistanın Camiə Milliyə İslam Mərkəzi Universitetinin Xarici Dillər Departamentinin əməkdaşı dosent Nouşad, Yaponiyanın ölkəmizdəki səfirliyinin attaşesi İvasaki Takamasa və Monqolustanın Azərbaycandakı fəxri konsulu Könül Əlizadə çıxış edərək konfransın Asiya ölkələri arasında elmi əlaqələrin genişlənəcəyinə töhfə verəcəyini biliriblər.

Tədbirdə Cənubi Koreyanın Seul Milli Universitetinin Koreya dili və ədəbiyyatı kafedrasının professoru Bang Min-Ho "Şərqi Asiya diskursu və Koreya ədəbiyyatının yeni gələcəyi", Çin Sosial Elmlər Akademiyasının Ədəbiyyat Tədqiqatları İnstitutunun direktor əvəzi professor Lu Yusong "Çin ədəbiyyatının xalq mərkəzli təbiəti; təkamül və missiya", AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri professor Bədirxan Əhmədli "Asiya ədəbiyyatında doğu-batı diskursu: Koreya, yapon və əfqan romanları konteksində" mövzusunda məruzələrlə çıxış ediblər.

Konfrans öz işini "Türk xalqları ədəbiyyatı", "Müqayisəli ədəbiyyatşünaslıq", "Şərqi Asiya xalqlarının ədəbiyyatı", "Cənubi Asiya xalqlarının ədəbiyyatı" seksiyaları ilə davam edib.

XQ

Yenidən "səhnəyə qayıdan" Hüseyn Ərəblinski

O, Azərbaycan teatrının fədailərindən idi. Ötən əsrin əvvəllərində cəhalət məngənəsində boğulan cəmiyyət üçün teatr ən qorxulu məkan idi. O isə aktyor idi, bu, odla oynamaq demək idi. Hüseyn Ərəblinski Bakı qoçularının hədələrindən qorxub çəkinmədən ömrünü teatra həsr etdi.

Həmin vaxt ayrı-ayrı həvəskar qrupların, teatr dərnəklərinin simasında qərarlaşan Azərbaycan teatrı, sözün əsl mənasında, çətin günlərini yaşayırdı. Təqib olunan teatr truppalarının əsas problemlərindən biri də səhnə idi. Tamaşa göstərmək üçün bina icarəyə götürmək külli miqdarda vəsait tələb edirdi. Çox zaman pul tapmayan aktyorlar nəyi isə girov qoymağa məcbur olurdular. Hüseyn Ərəblinskinin də tez-tez girov qoyduğu bir üzüyü var idi. Həmkarlarının "sehirli üzük" adlandırdığı bu üzük illərlə girov qalırdı.

Azərbaycanın ilk peşəkar aktyoru və rejissoru sayılan Hüseyn Ərəblinskinin şəxsi qayğıları, eləcə də, maddi çətinlikləri yetərincə idi. Onu nəinki mürtəce qüvvələr başa düşmürdü, eləcə də, bəzi qohumları onun sənəti ilə heç cür barışmaq istəmirdilər. Bütün bunlar bəlli həqiqətlərdir. Bu yazıda məqsədimiz heç də Hüseyn Ərəblinskinin ömür yoluna nəzər salmaq deyil.

Xalq yazıçısı Elçinin Hüseyn Ərəblinski sənətinə və onun simasında teatra hörmət və məhəbbətin ifadəsi olan "Sənətkarın taleyi" tamaşası bu günlərdə Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında nümayiş etdirildi. Dramaturqun qeyd etdiyi kimi, bu, sırf bioqrafik əsər deyil. Pyesdəki Ərəblinski ömrünü Azərbaycan teatrının yaranmasına, inkişafına həsr etmiş sənət fədailərinin ümumiləşmiş obrazıdır. Görkəmli dramaturqumuz Elçin bu əsərilə Ərəblinskiyə müəzzəm bir abidə ucaldıb.

Azərbaycan Respublikasının Xalq artisti İrana Tağızadənin quruluş verdiyi tamaşada Ərəblinskini Əməkdar artist Firdovsi Atakişiyev canlandırır. Biz səhnədə, sözün əsl mənasında, özünü dəlicəsinə teatra həsr etmiş Ərəblinskini görürük. Onun sənətə vurğunluğu, teatr uğrunda fədakarlığı, şəxsi duyğuların fövqünə qalxan hiss və həyəcanları o qədər təbiidir ki, bu enerji dalğası tamaşaçıya da sirayət edir. Siqaret almağa belə pulu olmayan aktyor üçün yalnız səhnə var, Otellonun, Hamletin, Xlestakovun yaşantıları var. Bütün maddi çətinliklərə sinə gərən Ərəblinski öz kiçik truppasına qarşı da olduqca qəddardır. Onları şəxsi qayğılardan ayrılmağa, yalnız obraz haqda düşünməyə vadar edən bu tələbkar rejissor Ofeliyanı oynayan Mayanın ciddi xəstəliyini də vecinə almır, onu xəstə vəziyyətdə səhnəyə çıxmağa məcbur edir. Ərəblinskinin dahiliyi ondadır ki, Maya səhnədə huşunu itirdikdən sonra tamaşanın yarımçıq qalmaması üçün özü Ofeliya libasında səhnəyə çıxıb onun da əvəzinə bu rolu ifa edir.

Paloni və Yaqo Ərəblinskini Mayaya qarşı amansız olduğu üçün qınayırlar. "Sən necə insansan?" Ərəblinski hayqırır: "Mən insan deyiləm, mən aktyoram!" Doğrudan da, Ərəblinskinin Freylinaya dediyi kimi, "teatr romantika deyil, teatr işgəncədir". Ərəblinski zavallı Mayanın sevgisini də, onun sənətinə vurulmuş Qrafinyanın məhəbbətini də teatra fəda etmiş böyük aktyordur. Onun yalnız bir sevgisi var – səhnə. O, özünü yalnız səhnədə xoşbəxt hiss edir. Bütün dünyanı teatrın ayaqları altına atmağa hazırdır. Firdovsi Atakişiyevin səhnə plastikası mükəmməldir. Rol sanki onun boyuna biçilib.

Gənc aktrisa Natavan Hacıyeva Maya obrazının öhdəsindən məharətlə gəlir. O, tamaşa içində "Hamlet"in Ofeliyasını canlandırır və onun səhnəyə son çıxışı və ölümü son dərəcə təsirli duyğular oyadır. Maya yuvarlanıb səhnədən yerə düşəndə ön cərgədə oturanlar yüyürüb onu tutmağa çalışdılar. Aktrisanın gerçəkdən yıxıldığını zənn etmişdilər. Etiraf edirəm, 3-cü sırada oturan mən də bir anlıq özümü itirdim və narahat oldum. Xalq artisti Mərahim Fərzəlibəyovla yanaşı oturmuşduq. O anda bir-birimizə baxdıq. Mərahim müəllim qulağıma pıçıldadı: "Gördün necə yıxıldı?" Bax, bu, aktrisanın uğurudur!

Unudulmaz rejissorumuz İrana Tağızadənin quruluşunda tamaşa həqiqətən mükəmməldir. Digər aktyorların da tamaşanın uğurunda danılmaz payı var.

Burada fransız teatr nəzəriyyəçisi və rejissoru Piter Brukun "Teatr olduqca qəddar sahədir" fikri yada düşür. İnsan bəzən bir ömrün yükünü çəkməkdə çətinlik çəkir. Aktyor isə bir ömürdə onlarla insanın ömrünü yaşamağa məhkumdur. Ərəblinski vicdanını ovutmaq üçün yenə də səhnəyə sığınır.

İki hissəli tamaşa təsirli səhnələrlə yadda qalır. Bu əsərdə Hüseyn Ərəblinski dövrünün atmosferi – o zamanlar neft bumu yaşayan Bakı həyatı da, çarizmin Bakıya münasibəti də ustalıqla təsvir edilib. Ən əsası isə fədakar sənətkar və zaman problemi çox yüksək bədii-estetik həllini tapıb. Ərəblinski, onun həmkarları təkcə teatrı sevməklə kifayətlənmədilər, teatrın şərəfi, inkişafı naminə gecələrini gündüzə qatıb milli teatr mədəniyyətini formalaşdırdılar. "Sənətkarın taleyi" tamaşası bu həqiqəti gözlər önünə sərir. Aktyor sənətini seçən gənclər mütləq bu tamaşaya baxıb hansı peşənin sahibi olacaqlarını, hansı sənətkarların xələfləri kimi meydana atıldıqlarını dərindən dərk etməlidirlər. Sənətkarlıq məqamına yetişmək üçün teatrı Hüseyn Ərəblinski kimi sevmək lazımdır. Hər şey bu qədər sadədir və həm də çətindir.

Tamaşanın səhnə tərtibatını Mustafa Mustafayev, musiqi tərtibatını Əməkdar mədəniyyət işçisi Vladimir Neverov verib. Geyim üzrə rəssam Əməkdar mədəniyyət işçisi Olqa Abbasova, işıq üzrə rəssam isə Nikolay Rudıçevdir.

"Sənətkarın taleyi" tamaşasının Azərbaycan teatr mədəniyyətində müstəsna yeri var. Və bu tamaşa bütün zamanlarda sevilə-sevilə baxılacaq.

Kənan HACI

Dünyanın sərgi salonlarında

Toğrul Nərimanbəyovun ruhu şad olsun: layiqli xələflərindən biri olan Əsgər Məmmədov onun nar obrazlarını layiqincə yaradıb dünyaya tanıtmaqda davam edir. Elə bu günlərdə Moskvada, M.İ.Rudomino adına Rusiya Xarici Ədəbiyyat Kitabxanasında Əsgər Məmmədovun "Nar dastanı" adlı sərgisi açılıb.

Bildiyimiz kimi, "Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilib. Azərbaycanın və Rusiyanın Əməkdar rəssamı Əsgər Məmmədovun yaradıcılığında da narın xüsusi yeri var. Nar kainatın görünüşüdür, onun dənələri isə həm də səma cisimlərini əks etdirir və rəssam üçün onun hər bir dənəsi tam bir dünyadır.

"Nar dastanı" Moskvada

Əsgər Məmmədov Qarabağda dünyaya göz açıb. Qəzavü-qədərə baxın ki, ermənilərin orada zaman-zaman el-obamıza qarşı törətdikləri bir yana, gənc rəssam olarkən Əsgər böyük şəxsi faciə ilə də üzləşib: evində baş verən yanğın zamanı bütün əsərləri yanıb. Amma sənətkar həmişə yaxşılığa, ədalətin təntənəsinə inandığı üçün ruhdan düşməyib (Onu da xatırladaq ki, ikinci dəfə Moskva ətrafındakı İzmaylovoda qalereya binalarının yanması nəticəsində rəssamın əsərləri məhv olub, o isə yenidən özündə qüvvə taparaq, yaradıcılıq işini səylə davam etdirib).

Onun dediklərindən: "İkinci Qarabağ müharibəsindən əvvəl Ağdamda sərgim keçirilirdi. Həmin vaxt ərazinin bir hissəsi işğal altında idi. Rəsmlərimin nümayiş olunduğu binanın pəncərəsindən erməni postları, onların arxasında isə bir addım məsafəsində olan doğma torpaqlarımız görünürdü. Və o zaman "Xarıbülbül" tablosunun yaradılması ideyası ağlıma gəldi, kətanda təsvir olunan, qələbəmizin simvolu olan Xarıbülbülə uzanan qanayan əl çəkdim".

Əsgər Məmmədov Qarabağ münaqişəsinin bütün çətinliklərini yaşamış bir insandır. "O, artıq çox illərdir Moskvada yaşayır və Azərbaycana, Qarabağa həsr olunmuş rəsm əsərləri ilə bizi sevindirir. Bu sərgisi də onun milli ruhundan soraq verir".

Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Tatyana Şirokova bildirib ki, diplomatiya qurumunda da Əsgər Məmmədovun rəsm sərgisinin keçirilməsi planlaşdırılır: "Mən Əsgər Məmmədovun yaradıcılığı ilə 15 ildir ki, tanışam. "Nar dastanı" sərgisi məndə dərin təəssürat yaratdı. Rəssamın rəsmlərindəki nar cücərtiləri bu gün çox aktual olan sülhə çağırışdır. Əsgər Məmmədov incə sənətkar, gözəl insandır və mən ona bundan sonra da yaradıcılıq uğurları arzulayıram".

M.İ.Rudomino adına Xarici Ədəbiyyat Kitabxanasının baş direktoru Pavel Kuzmin, kitabxananın Xüsusi Sərgi Layihələri Mərkəzinin rəhbəri Lyudmila Skaçkova və başqaları rəssamın yaradıcılığından danışıblar. Bildirilib ki, Əsgər Məmmədovun əsərlərində mənzərə, natürmort, portret və qrafika üslubu ilə yanaşı, Azərbaycan folklorunun, çoxəsrlik miniatür sənətinin təsiri də sezilir.

Sərginin açılışında, həmçinin, Paytaxt Rəssamlar Qalereyasının direktoru Lyudmila Titova, Azərbaycan Mədəniyyətinin İnkişaf Fondunun nümayəndəsi Elşən İbrahimov, şair-tərcüməçi Sultan Mərzili, Rusiya Elmlər Akademiyasının Psixologiya İnstitutunun əməkdaşı Bayan Uzıxanova və başqaları iştirak ediblər.

Əsgər Məmmədov deyib: "Sərginin məqsədi Rusiya tamaşaçılarına Azərbaycan haqqında, xalqım haqqında bəhs etməkdir. Ümummilli lider Heydər Əliyevin bizə vəsiyyət etdiyi kimi, Vətəndən uzaqlarda yaşayan azərbaycanlılar öz milli adət-ənənələrini, dillərini unutmamalıdırlar. Əsərlərimdə xalqımızın adət-ənənələrini, ruhunu çatdırmağa çalışıram. Sərginin təşkilinə görə Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinə və onun yaradıcılığına maraq göstərərək sərgini ziyarət edən hər kəsə təşəkkürümü bildirirəm".

Taleyin keşməkeşlərinə mətanətlə sinə gərən Əsgər Məmmədov hazırda Moskvada yaşayır. Rusiya Rəssamlar İttifaqının və Rusiya Kinematoqrafçılar İttifaqının, UNESCO-nun Beynəlxalq Rəssamlar Federasiyasının, Paris Elm və İncəsənət Akademiyasının üzvü, həmçinin Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvüdür. Rusiyanın (həm də Azərbaycanın) Əməkdar rəssamı fəxri adlarını daşıyır. Bundan əvvəl rəssamın fərdi sərgiləri Fransa, İspaniya, İsrail, Türkiyə, Latviya və digər ölkələrdə də keçirilib. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi və Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunmuş Moskva sərgisində isə rəssamın milli koloritli 40-dan çox rəsmi – natürmortları, portretləri, mənzərə və qrafika nümunələri nümayiş etdirilir. Azərbaycanın simvolu kimi təqdim olunan nar rəsmlərində fəlsəfə ilə poeziyanın harmoniyası əksini tapıb.

Sərginin açılışında çıxış edən Milli Məclisin komitə sədri, Azərbaycan–Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan, Türkmənistan, Özbəkistan və Başqırdıstanın Xalq artisti, Dağıstan Respublikasının əməkdar incəsənət xadimi Polad Bülbüloğlu bildirib ki, Əsgər Məmmədov Qarabağ müharibəsinin bütün çətinliklərini yaşamış bir insandır. "O, artıq çox illərdir Moskvada yaşayır və Azərbaycana, Qarabağa həsr olunmuş rəsm əsərləri ilə bizi sevindirir. Bu sərgisi də onun milli ruhundan soraq verir".

Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Tatyana Şirokova bildirib ki, diplomatiya qurumunda da Əsgər Məmmədovun rəsm sərgisinin keçirilməsi planlaşdırılır: "Mən Əsgər Məmmədovun yaradıcılığı ilə 15 ildir ki, tanışam. "Nar dastanı" sərgisi məndə dərin təəssürat yaratdı. Rəssamın rəsmlərindəki nar cücərtiləri bu gün çox aktual olan sülhə çağırışdır. Əsgər Məmmədov incə sənətkar, gözəl insandır və mən ona bundan sonra da yaradıcılıq uğurları arzulayıram".

Rəssam öz dərin fəlsəfi əsərləri ilə bir daha göstərir ki, Qarabağ birmənalı olaraq əzəli Azərbaycan torpağıdır, nar obrazı isə dəyişməz simvollarımızdandır. Biz şübhə etmirik ki, Əsgər Məmmədov doğma diyarı haqqında hələ çox əsərlər yaradacaq.

Ə.DOSTƏLİ
XQ

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

Qərar

№ 3-27/3-7-17/2024

Bakı şəhəri **3 dekabr 2024-cü il**

"Fərqlənmə nişanı"nın, "Xüsusi fərqlənmə nişanı"nın və "Fərqlənmə nişanı"nın alınması üçün ərizə"nin formalarının təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının 1.25-ci bəndinə əsasən Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

qərara alır:

1. "Fərqlənmə nişanı"nın forması" təsdiq edilsin (1 nömrəli əlavə).
2. "Xüsusi fərqlənmə nişanı"nın forması" təsdiq edilsin (2 nömrəli əlavə).
3. "Fərqlənmə nişanı"nın alınması üçün ərizə"nin forması" təsdiq edilsin (3 nömrəli əlavə).
4. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
5. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

Kollegiyanın sədri,
rəqəmsal inkişaf və nəqliyyat naziri
Rəşad Nəbiyev

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 3 dekabr 2024-cü il tarixli 3-27/3-7-17/2024 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

1 nömrəli əlavə

"Fərqlənmə nişanı"nın forması

1. Avtobuslarla sərnişin daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün:



1. Vergi ödəyicisi_____
(hüquqi şəxsin tam adı, VÖEN-i; fiziki şəxsin adı, atasının adı, soyadı, VÖEN-i)

2. "Fərqlənmə nişanı"nın qüvvədə olma müddəti: _____

Avtobusun markası və dövlət qeydiyyat nişanı	Avtobusun oturacaq yerlərinin sayı	Daşımanın həyata keçirildiyi ərazi	Ödənilmiş sadələşdirilmiş verginin məbləği	Ödənilmiş məcburi dövlət sosial sığorta haqqının məbləği	Ödənilmiş icbari tibbi sığorta haqqının məbləği
1	2	3	4	5	6

"Fərqlənmə nişanı"nı verən məsul şəxs: _____
(adı, atasının adı, soyadı)

M.Y. _____
(imza və tarix)



2. Taksi minik avtomobilləri ilə sərnişin daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün:



1. Vergi ödəyicisi_____
(hüquqi şəxsin tam adı, VÖEN-i; fiziki şəxsin adı, atasının adı, soyadı, VÖEN-i)

2. "Fərqlənmə nişanı"nın qüvvədə olma müddəti: _____

Taksi minik avtomobilinin markası və dövlət qeydiyyat nişanı	Taksi minik avtomobilinin oturacaq yerlərinin sayı	Daşımanın həyata keçirildiyi ərazi	Ödənilmiş sadələşdirilmiş verginin məbləği	Ödənilmiş məcburi dövlət sosial sığorta haqqının məbləği	Ödənilmiş icbari tibbi sığorta haqqının məbləği
1	2	3	4	5	6

"Fərqlənmə nişanı"nı verən məsul şəxs: _____
(adı, atasının adı, soyadı)

M.Y. _____
(imza və tarix)



Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 3 dekabr 2024-cü il tarixli 3-27/3-7-17/2024 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

2 nömrəli əlavə

"Xüsusi fərqlənmə nişanı"nın forması

1. Vergi ödəyicilərinin mülkiyyətində olan avtobuslarla öz sahibkarlıq fəaliyyətini təmin etmək məqsədilə işçilərinin daşınması üçün:



1. Vergi ödəyicisi_____
(hüquqi şəxsin tam adı, VÖEN-i; fiziki şəxsin adı, atasının adı, soyadı, VÖEN-i)

2. "Fərqlənmə nişanı"nın qüvvədə olma müddəti: _____

Avtobusun markası və dövlət qeydiyyat nişanı	Avtobusun oturacaq yerlərinin sayı	Daşımanın həyata keçirildiyi ərazi	Ödənilmiş sadələşdirilmiş verginin məbləği	Ödənilmiş məcburi dövlət sosial sığorta haqqının məbləği	Ödənilmiş icbari tibbi sığorta haqqının məbləği
1	2	3	4	5	6

"Fərqlənmə nişanı"nı verən məsul şəxs: _____
(adı, atasının adı, soyadı)

M.Y. _____
(imza və tarix)



1. Vergi ödəyicisinin adı: _____
(hüquqi şəxsin tam adı, VÖEN-i; fiziki şəxsin adı, atasının adı, soyadı, VÖEN-i)

2. "Xüsusi fərqlənmə nişanı"nın qüvvədə olma müddəti: _____

Avtobusun markası və dövlət qeydiyyatı nişanı	Avtobusda oturacaq yerlərinin sayı	Daşımanın həyata keçirildiyi ərazi
1	2	3

"Xüsusi fərqlənmə nişanı"nı verən məsul şəxs: _____
(adı, atasının adı, soyadı)

M.Y. _____
(imza və tarix)

2. Vergi ödəyicilərinin mülkiyyətində olan minik avtomobilləri ilə öz sahibkarlıq fəaliyyətini təmin etmək məqsədilə işçilərinin daşınması üçün:



1. Vergi ödəyicisinin adı: _____
(hüquqi şəxsin tam adı, VÖEN-i; fiziki şəxsin adı, atasının adı, soyadı, VÖEN-i)

2. "Xüsusi fərqlənmə nişanı"nın qüvvədə olma müddəti: _____

Avtonəqliyyat vasitəsinin markası və dövlət qeydiyyatı nişanı	Avtonəqliyyat vasitəsində oturacaq yerlərinin sayı	Daşımanın həyata keçirildiyi ərazi
1	2	3

"Xüsusi fərqlənmə nişanı"nı verən məsul şəxs: _____
(adı, atasının adı, soyadı)

M.Y. _____
(imza və tarix)

3. Vergi ödəyicilərinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz sahibkarlıq fəaliyyətini təmin etmək məqsədilə özünə məxsus yüklərin daşınması üçün:



1. Vergi ödəyicisinin adı: _____
(hüquqi şəxsin tam adı, VÖEN-i; fiziki şəxsin adı, atasının adı, soyadı, VÖEN-i)

2. "Xüsusi fərqlənmə nişanı"nın qüvvədə olma müddəti: _____

Avtonəqliyyat vasitəsinin markası və dövlət qeydiyyatı nişanı	Avtonəqliyyat vasitəsinin yük götürmə qabiliyyəti	Daşımanın həyata keçirildiyi ərazi
1	2	3

"Xüsusi fərqlənmə nişanı"nı verən məsul şəxs: _____
(adı, atasının adı, soyadı)

M.Y. _____
(imza və tarix)

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 3 dekabr 2024-cü il tarixli 3-27/3-7-17/2024 nömrəli Qərarı ilə təsdiq edilmişdir.
3 nömrəli əlavə

"Fərqlənmə nişanı"nın alınması üçün ərizə"nin forması

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə

Daşıyıcı: _____
(hüquqi şəxsin adı / fərdi sahibkarın soyadı, adı, atasının adı və FİN-i)
_____

Ünvan: _____
_____

VÖEN: _____

Telefon nömrəsi: _____

Elektron poçt ünvanı: _____

ƏRİZƏ

Sizdən xahiş edirəm ki, _____ şəhərində (rayonunda) _____ markalı _____ dövlət qeydiyyat nişanlı ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitəsilə sərnişin daşımalarının həyata keçirilməsi ilə əlaqədar _____(ay/rüb/yarım il/il) üçün "Fərqlənmə nişanı" verəsiniz.

Tələb olunan sənədlərin surətləri ərizəyə əlavə edilir:

1. Sadələşdirilmiş verginin ödənilməsini təsdiq edən ödəniş sənədi;
2. Məcburi dövlət sosial sığorta haqqının ödənilməsini təsdiq edən ödəniş sənədi;
3. İcbari tibbi sığorta haqqının ödənilməsini təsdiq edən ödəniş sənədi.

M.Y.: İmza: _____
Tarix: _____

Qeyd: Ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 278 (30682) 17 dekabr 2024-cü il, çərşənbə axşamı

İdman aləmində

Bakıda antidopinq konfransı

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Bakıda "Təmiz qələbə: Olimpiya ilinə yenidən baxış" adlı beynəlxalq konfransın açılış mərasimi keçirilib.

Gənclər və İdman nazirinin müavini Mariana Vasileva bütün idmançılara təmiz qələbə arzulayıb. Konfransa onlayn formatda qoşulan Ümumdünya Antidopinq Agentliyinin (WADA) prezidenti Vitold Banka Azərbaycanın olduqca önəmli tədbirə evsahibliyi etdiyini bildirib. Bu yığıncağın əsas hədəfinin Azərbaycanla yanaşı, digər ölkələrdə də dopinqə qarşı mübarizənin inkişafına töhfə verəcəyini deyən V.Banka konfransın gələn il ilk dəfə Asiya ölkəsində - Cənubi Koreyada keçiriləcəyini də diqqətə çatdırıb.

AMADA-nın icraçı direktoru Təhminə Tağızadə isə 2024-cü ili agentlik üçün uğurlu hesab edib. O, il ərzində mindən çox dopinq testinin aparıldığını, 50-dən çox seminar və vebinarın təşkil olunduğunu və 2 mindən çox iştirakçının antidopinqlə bağlı məlumatlandırıldığını vurğulayıb.

Konfrans çərçivəsində AMADA və "Gilavar" Foto Klubunun birgə təşkil etdiyi "Olimpiya ruhu: Qələbə və məğlubiyyətdən kənar" adlı beynəlxalq müsabiqənin qalib fotolarından ibarət sərgi nümayiş olunub.

Federasiya nümayəndələri beynəlxalq seminarda

Cüdoda tətbiq olunacaq yeni qaydalarla bağlı beynəlxalq seminar keçirilib. Seminarda Azərbaycan Cüdo Federasiyasının vitse-prezident Elnur Məmmədli, qurumun prezidentinin müşaviri Natiq Bağırov, böyüklərdən ibarət milli komandanın baş məşqçisi Riçard Trautman, hakimlər üzrə menecer Mətin Rəhimli, hakimlər Arzu Acalova, Fariz Hüseynov, Akif Tahirov və Nazim Umbayev iştirak ediblər.

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, Beynəlxalq Cüdo Federasiyası (IJF) tətbiq ediləcək yeni qaydaları rəsmi olaraq elan edib.

Aparılan təhlil və müzakirələrdən sonra qaydalar növbəti Olimpiya dövrünə uyğunlaşdırılıb və yenilənib. Yeniliklər gələn il yanvarın 1-dən qüvvəyə minəcək.

S.FİDAN
XQ

OXUCULARIN NƏZƏRİNƏ!

"Xalq qəzeti"

2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.

Hörmətli oxucular!
ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

Türkiyənin turizm şirkətləri Azərbaycanda

Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Türkiyənin 6 aparıcı turizm şirkətinin nümayəndələri üçün tanışlıq səfəri təşkil edilib.

İştirakçılara Azərbaycanın mədəni irsi, təbiəti və turizm imkanları təqdim edilib. Həmçinin, Naxçıvan Muxtar Respublikasının turizm potensialı nümayiş olunub.

Planlaşdırılmış səfər sərçivəsində Kəngərli dağlarından Əlincə qalasınadək bir çox turizm potensiallı məkanlar ziyarət edilib.

Səfər çərçivəsində qonaqlar 20-yə yaxın yerli turizm şirkəti ilə B2B formatında görüş keçirərək. gələcək əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

Dövlət Turizm Agentliyinin məlumatına görə, 2024-cü ilin yanvar-noyabr aylarında Türkiyədən Azərbaycana səfər edənlərin sayı 389 min 173 nəfərə çatıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz artım deməkdir.

Qəzənfər QASIMOV
XQ

Paxlava festivalı

Bakıda Türkiyənin Paxlava və Şirniyyat İstehsalçıları Assosiasiyası (BAKTAD) və "Rəmzioğlu paxlava"nın təşkilatçılığı ilə "13-cü Ənənəvi Qızıl Oxlova Paxlava Ustaları Müsabiqəsi və Şirniyyat Festivalı" keçirilib.

İki ölkə arasında möhkəm dostluq və qardaşlığı təmsil edən festival xalq rəqslərinin nümayişi ilə başlayıb. 100 nəfərlik nümayəndə heyətinin qatıldığı ənənəvi festivalda püstə, qoz, midye, şöbiyyət, yerkökü dilimi kimi Türkiyəyə məxsus 60 növ, ölkəmizdən isə daha çox Qərbi Azərbaycana xas olan paxlavalar təqdim edilib. Həmçinin, festivalda ziyarətçilərə 20 min dilim paxlava paylanıb.

Tədbirin açılışında çıxış edən BAKTAD dərnəyinin sədri Mehmet Yıldırım Bakıda festival çərçivəsində bir araya gəlməkdən məmnun olduğunu bildirib. Türkiyədə paxlavanın sadəcə bir şirniyyat olmadığını ifadə edən Yıldırım onun türk mətbəxinin simvolu sayıldığını bildirib.

Tədqiqatçı, "QAİ" Qadınlar Şurasının üzvü Vəsilə Əkbərova XQ-ya müsahibəsində bildirib:

– Paxlava ortaq türk dünyasının ən qədim şirniyyat növlərindən biridir. Ona görə də, builki paxlava festivalının "Rəmzioğlu paxlava" şirkəti tərəfindən Bakıda keçirilməsi məsləhət görüldü. Burada türk paxlavaları ilə yanaşı, Azərbaycan mətbəxinin bütün bölgələrinə məxsus fərqli çeşiddə paxlavalar təqdim edildi. Ən əsası Qərbi Azərbaycanın İrəvan – Xan sarayı mətbəxinə aid tamamilə unudulmuş qədim paxlava növləri nümayiş olundu. Abbasqulu xanın paxlavası, Göyçə mahalının "Kəvər", "Öncir" paxlavaları, Naxçıvanın unudulmuş paxlavası iştirakçıların çox böyük marağına səbəb oldu.

Festivalın sonunda müxtəlif sertifikat və mükafatlara layiq görülmüş paxlava ustalarından da təəsuratlarını soruşduq:

Mayıl Əlizadə, "Rəmzioğlu paxlava" şirkətinin azərbaycanlı təmsilçisi:

– Festival çox uğurlu oldu. Buna görə təşəkkür edirəm. Ən gözəl hədiyyə isə mükafata layiq görülməyim idi. Bir daha əməyi keçən hər kəsə minnətdarlıq edir, məsləkdaşlarıma uğurlar arzulayıram.

Orhan Öztürk, "Rəmzioğlu paxlava" şirkətinin türk təmsilçisi:

– Festival çox xoşuma gəldi. Mən də türk paxlava ustası olaraq, burada iştirak edirəm. Bu gün türk paxlavasının necə hazırlandığını iştirakçılara göstərdik. Əminəm ki, hər kəs çox bəyəndi. Azərbaycan və Türk xalqı hər zaman bir-birinə dəstək olur. Azərbaycanlıları çox sevirik.

Fidan SALMANOVA
XQ

Aranda yağmursuz, dumanlı və küləkli, dağlarda yağıntılı

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 17-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Lakin gecə bəzi şəhərətrafı ərazilərdə arabir yağıntılı olacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək, axşam arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 3-6°, gündüz 8-12° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 759 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

Q.QASIMOV
XQ

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki "Bibiheybət" Gəmi Təmiri Zavodu üçün iaşə xidmətlərinin satın alınması məqsədilə ikimərhələli (1-ci mərhələ texniki tələblər, 2-ci mərhələ kommersiya qiymətləndirilməsi)

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il dekabrın 19-u saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– (012) 404-37-00, daxili: 1144.

Ünvan: Bakı, Mikayıl Useynov küçəsi 2.

Süni intellekt artıq elmi iş də yazır

Süni intellekt tədris prosesində, yaradıcılıq və elmi fəaliyyətlərdə istifadə olunan innovativ texnologiyadır. Onun tətbiqi alimlər üçün yeni imkanlar açır. Sürətli olduğundan tədqiqat apararkən vaxta qənaət etməyə imkan verir. Bundan başqa, süni intellekt nəinki insan kimi məntiqli düşünməyi öyrənib, həm də müəyyən mənada artıq öz yaradıcısını ötüb.



Bu sahədə ChatGPT xüsusilə seçilir. O insan dilini başa düşən, təsirli, təfərrüatlı və insana bənzər yazılı mətn hazırlaya bilən prototip danışıq və süni intellekt chatbotudur. Çətin tənlikləri belə saniyələr ərzində həll etmək qabiliyyətinə malikdir. Hətta bunu necə həll etdiyini sadə şəkildə izah edir. Əsas akademik məqalələr, bədii mətnlər, film ssenarisi və s. hazırlayır və bütün mətnlərin təqdim edilməsində uğurludur. Təbii ki, onu düzgün istiqamətləndirmək və sorğunu dəqiq və ətraflı şəkildə daxil etmək önəmlidir.

ChatGPT-nin GPT-o1 modeli isə neyron şəbəkələr sahəsində yenilikdir. "NASA Ames" Araşdırma Mərkəzinin əməkdaşı Kayl Kabasares özünün YouTube kanalında bildirib ki, o1 modeli bir saat ərzində doktorluq dissertasiyasının kodunu yazıb. Model yalnız 6 sorğu tələb edib. Süni intellekt müəllifin GitHub repozitoriyasına daxil olmadan kodun bütün "skeletini" öz sintetik məlumatları əsasında hazırlayıb. Halbuki Kabasares kodun yazılması üçün bir il vaxt sərf etmişdi. Süni zəka isə hər şeyi qısa müddətdə effektiv şəkildə yerinə yetirib.

O bildirib ki, süni intellekt texnologiyasının köməyi ilə ideyalar üzərində düşünmədən və internetdə məlumat axtarmadan qısa zamanda mətn tərtib etmək olar. Bunun üçün sual vermək və ya bir neçə giriş cümləsi yazmaq kifayətdir. Neyron şəbəkə onun davamını yaza bilir.

Beləliklə, süni intellekdən istifadə etməklə dissertasiya yazmaq mümkündür. O məlumatların təhlili, ədəbiyyatın nəzərdən keçirilməsi, qrammatika yoxlanışı və məzmunun dəqiqləşdirilməsi kimi yazı prosesinin müxtəlif aspektlərini optimallaşdırmağa kömək edir.

PÜNHAN
XQ

✓ *"Protean Construction" Açıq Səhmdar Cəmiyyətinə məxsus "HOWO" markalı ZZ5257GSS4320E model yük avtomaşınının 77 JF 699 dövlət qeydiyyat nömrəsi itdiyi üçün etibarsız sayılır.*

ALLAH RƏHMƏT ELƏSİN

Saatlı rayonu üzrə Maliyyə Şöbəsinin kollektivi Maliyyə Nazirliyi İnsan resurslarının idarə edilməsi şöbəsinin müdiri Elman Hüseynova anası

RAYA XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Təşkilatı universitetin Turizm və Qonaqpərvərlik fakültəsinin dekan müavini Emin Quliyevə atası

ƏNVƏR QULİYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin "Maliyyə və audit "kafedrasının müdiri, professor Əvəz Ələkbərov və kafedranın əməkdaşları, keçmiş kafedra müdiri, fəxri professor, Əməkdar müəllim

ASİF KƏRİMOVUN

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Təşkilatı universitetin İqtisadiyyat kafedrasının müdiri Səkinə Hacıyevaya atası

ABDURRƏHİM HACIYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2855
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00